Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Elşad Hacıyev: "Bəzi qüvvələr hüquq-mühafizə orqanlarının fəaliyyətini gözdən salmağa çalışırlar"



**"Bəzi qüvvələr hüquq-mühafizə orqanlarının fəaliyyətini gözdən salmağa çalışırlar".**

Adalet.az xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev Baş Prokurorluğun Bərdədə "Heydər Əliyev və hüquqi dövlət quruculuğu" adlı keçirdiyi konfransda çıxışı zamanı deyib.

"Ölkədə baş vermiş hər bir cinayətin araşdırmasında hüquq-mühafizə orqanlarının hər bir əməkdaşı, prokuroru, polisi, müstəntiqi və digərləri öz vəzifəsini tam yerinə yetirir.

Bəzi qüvvələr isə yalan məlumatlar yayaraq, Azərbaycanda hüquq-mühafizə orqanlarının fəaliyyətini gözdən salmağa çalışır.

Lakin biz vətəndaş qəbullarında da şahid oluruq ki, hüquq-mühafizə orqanlarından insanlar tam razıdırlar", - DİN rəsmisi vurğulayıb.

## Milli Məclisin növbəti iclasının vaxtı məlum oldu



**Milli Məclisin növbəti iclasının vaxtı məlum olub.**

Adalet.az xəbər verir ki, parlamentin yaz sessiyasında növbəti plenar iclası martın 7-də keçiriləcək

Bu barədə parlamentin İnsan hüquqları komitəsinin iclasında Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı məlumat verib. O qeyd edib ki, həmin iclasda Ombudsman Səbinə Əliyeva da iştirak edəcək.

## Martda 14 gün iş olmayacaq



**Mart ayında bayramlarla əlaqədar 10 gün iş olmayacaq.**

Adalet.az verir ki, martın 8-i Qadınlar günü kimi qeyd olunur və Qadınlar günü iş günü hesab edilməyən bayramlardandır.

Nazirlər Kabineti tərəfindən təsdiqlənən müvafiq qərara əsasən isə 2023-cü il martın 20, 21, 22, 23 və 24-ü Novruz bayramıdır.

2023-cü ildə 18, 19 və 25, 26 mart tarixləri şənbə və bazar günlərinə təsadüf edir. Beləliklə, gələn il Novruz bayramı ilə əlaqədar ardıcıl 9 gün iş olmayacaq.

Başqa sözlə, mart ayında bayramlarla əlaqədar 10 gün iş olmayacaq.

## Ərdoğan prezident seçkiləri barədə: "Bu millət mayın 14-də lazım olanı edəcək"



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşıdan gələn prezident seçkiləri ilə bağlı danışıb.**

Ərdoğan Ədalət və İnkişaf Partiyasının Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısı zamanı seçkilərin təxirə salınıb-salınmayacağı ilə bağlı məlumat verib.

"Onu yaxşı bilin ki, bu millət mayın 14-də lazım olanı edəcək", - deyə o çıxışında qeyd edib.

## Kamran Əliyev: "Zəruri olsa, Prokurluq və DTX əməkdaşları İrana ezam olunacaqlar"

**"Zəruri olsa, bizim Prokurluq və DTX əməkdaşları İrana ezam olunacaqlar". Adalet.az xəbər verir ki, bunu Respublikanın Baş Prokuroru Kamran Əliyev "Real TV"yə müsahibəsində deyib.**

K. Əliyev bildirib ki, Azərbaycanın Tehrandakı səfirliyinə terror hücumunun istintaqı ilə bağlı İran tərəfinə çoxlu suallar var:

"Bu şəxsin yarım saatdan artıq müddətdə bizim diplomatik korpusa silahlı basqın etməsi və buna qarşı təhlükəsizlik orqanları tərəfindən heç bir tədbir görülməməsi, avtomatı necə əldə etməsi qaranlıq qalır. Onun iki odlu silahı olub. İran mətbuatında xəbər yayılıb ki, həmin şəxs psixiatriya xəstəxanasına yerləşdirilib. İşin halları da göstərir ki, bu, təşkil olunub. Cinayətin iştirakçıları, sifarişçiləri və icraçıları məsuliyyətə cəlb olunmalıdırlar. Biz bununla bağlı Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə İran tərəfinə hüquqi yardım haqqında vəsatət hazırlayırıq. Zəruri olsa, bizim Prokurluq və DTX əməkdaşları İrana ezam olunacaqlar".

## Aqil Abbas: Bu dünyanın göz yaşları göyərdəmməz ölüləri...



**İmam Hüseyn yadigarı Hacı Şahin ölüm xəbəri səhər- səhər ağlatdı məni. Çox sevərdim... Tez-tez də zəngləşərdik. Çox ziyalı, çox işıqlı bir insan idi.**

Xəbəri oxuyanda nədənsə özümdən aslı olmayaraq 25 yaşında avtoqəzada həlak olmuş qardaşımın ölümü gəldi gözlərimin qarşısına. Həyət adamla dolu idi. Ağlayan kim, saçın yolan kim, ağı deyən kim, anam donub qalmışdı, göz yaşları da yanağında donmuşdu. Atam quruyub oturmuşdu pilləkəndə. Deyəsən qaradşımla birlikdə o da ölmüşdü. Bibim ağı deyirdi, amma qardaşıma yox, öz qardaşına.

Atamın bundan sonra necə yaşayacağına, nə əzab çəkəcəyinə ağı deyirdi. Və mən də bu göz yaşlarına və özümün göz yaşlarına dözməyib bibimə qoşulub ağı dedim.

Allahın nurundan yaranmışdı.
Onun üçün çevrilib nura,
Tərk elədi göyü- yeri.
Ağlamayın,
Bu dünyanın göz yaşları göyərdəmməz ölüləri.

Hacı Şahin də Allahın nurundan yaranmışdı. Ona görə də nura çevrildi. Və tərk elədi göyü- yeri. Bütün göz yaşları göyərdəmməz Hacı Şahini.

**Yolun düşsə bu dünyaya birdə gəlmə, Hacı Şahin! Sən bu dinsiz- imansız dünyanın adamı deyildin!**

## İCTİMAİ TELEVİZİYANIN ƏMƏKDAŞLARININ ZƏHMƏTİNƏ HEYFİM GƏLİR

**Fevralın 28-də İctimai Televiziyada "Sabaha saxlamayaq" verilişində həmişə olduğu kimi, yenə də çox ciddi və aktual bir mövzu qoyulmuşdu. Söhbət qadınlara qarşı zorakılıqdan gedirdi. Bu zorakılığın qarşısını necə almağın yolları axtarılırdı. Ekspertlər də maraqlı və ağıllı təkliflərlə çıxış edirdi.**

Amma nə olsun? Həmin vaxt digər özəl kanallarda gedən proqramlarda isə ailəni dağıtmaq üçün ailə dəyərlərini ayaq altına atacaq üç-dörd saatlıq verilişlər gedirdi: qayınana-gəlin davası, ər-arvad davası, söyüşlər, təhqirlər və sair və ilaxır.

Belə üç-dörd saatlıq verilişlərin qarşısında İctimai Televiziyanın iki saatlıq əxlaqımızı, mənəviyyatımızı, ailə dəyərlərimizi qorumağa çalışan verilişi nə edə bilər?

Sadəcə olaraq, İctimai Televiziyanın əməkdaşlarının zəhmətinə heyfim gəlir.

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 9 (6002) 4 mart 2023-cü il | Qiyməti 40 qəpik

# "Fransanı üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq"




Bax:səh-2

## DİN Bəxtiyar Hacıyevlə bağlı məlumat yaydı

**Vətəndaş Bəxtiyar Hacıyevin şəxsi məlumatlarının yayılması ilə bağlı iddialar var. Daxili İşlər Nazirliyi B.Hacıyevin polis orqanına dəvət edilən zaman onun üzərində olan cihazlar - mobil telefon, planşet, kompüterinin götürülməsi, evində və ofisində axtarış aparılması ilə bağlı iddialara aydınlıq gətirib.**

DİN-in Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev mətbuatın sorğusuna cavab olaraq bildirib ki, vətəndaş Bəxtiyar Hacıyev Bakı Şəhər Baş Polis İdarəsinə vəkili ilə birgə dəvət edilib, onun üzərində hər hansı elektron daşıyıcı cihaz - mobil telefon, planşet, kompüter olmayıb, evində və ofisində axtarış aparılmayıb:

"Qeyd olunan məsələlər istintaqın araşdırma predmetini təşkil etməyib.

O, vəkili ilə birgə məhkəməyə aparılıb, məhkəmə qərarından sonra Bakı İstintaq Təcridxanasına köçürülüb.

Təkrar olaraq qeyd edim ki, onun şəxsi əşyalarına baxılması və yaxud köçürülməsi ilə bağlı iddiaları qəti olaraq təkzib edirik".

B.Hacıyevin şəxsi hesablarından ayrı-ayrı ictimai fəallarla bağlı yayılan məlumatlar - görüntülər və yazışmalarla bağlı suala cavab olaraq şöbə rəisi bildirib ki, bu məlumatların haradan, necə qaynaqlandığı, B.Hacıyevin onlara məxsus məlumatları arxivləşdirməsi ilə bağlı bir neçə qadından və onların ailə üzvlərindən şikayət xarakterli müraciətlər daxil olub.

**Həmin müraciətlər üzrə müvafiq araşdırmalar aparılır.**

## MEDİA Youtube kanallarına haker hücumunu pislədi

**Medianın İnkişafı Agentliyi "Səs" və "Yeni Müsavat" media qruplarına məxsus "Youtube" platformasında fəaliyyət göstərən eyniadlı kanalların kənar müdaxiləyə məruz qalması ilə bağlı bəyanat yayıb.**

Agentlikdən Adalet.az-a verilən xəbərə görə, bəyanatda deyilir:

"1 mart 2023-cü il tarixində Azərbaycanın "Səs" və "Yeni Müsavat" media qruplarına məxsus "Youtube" platformasında fəaliyyət göstərən eyniadlı kanallar kənar müdaxiləyə məruz qalmış, onların arxivi silinib. Ölkəmizin informasiya təhlükəsizliyinə yönəlmiş bu hücum bir daha sübut edir ki, milli informasiya məkanımız daim ictimai fikri çaşdırmaq istəyən qüvvələrin nəinki dezinformasiya və yanlış xəbərlər yayılması, habelə infrastruktura kənar müdaxilə etməklə informasiyanın mənbədən silinməsi və dəyişdirilməsi üsulundan istifadə etməklə hədəfinə çevrilir. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi "Səs" və "Yeni Müsavat" media qruplarının "Youtube" kanallarına haker hücumunu ölkəmizin informasiya təhlükəsizliyinə təhdid hesab edir və bu kimi halların baş verməsinin qarşısının alınması məqsədilə media qurumlarını öz resurslarının mühafizəsinə daha həssas yanaşmağa, eyni zamanda həm media qurumlarını, həm də aidiyyəti dövlət orqanlarını qarşılıqlı əməkdaşlıq çərçivəsində tədbirlər görməyə çağırır".

## Azərbaycanda pensiyalar artırıla bilər



**Azərbaycanda pensiyaların artırılması təklif edilir.**

Adalet.az xəbər verir ki, bu, Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) 2022-ci il üzrə illik məruzəsində əksini tapıb.

Məruzədə bildirilib ki, əmək pensiyasının minimum məbləği artırılarkən həmin artıma qədər təyin edilmiş pensiya məbləğlərinin müvafiq artıma mütənasib və ya müəyyən məbləğdə artırılması Ombudsman tərəfindən təklif edilir.

## COVID-19 virusu Vuhandakı laboratoriyadan sızıb




**ABŞ Federal Təhqiqatlar Bürosunun (FTB) direktoru Kristofer Rey COVID-19 pandemiyasının virusun Vuhandakı laboratoriyadan sızması nəticəsində baş verdiyini deyib.**

Adalet.az xəbər verir ki, FTB direktoru virusun mənşəyinə dair araşdırmaların onun Vuhandakı laboratoriyadan qaynaqlandığını göstərdiyini bildirib. "FTB-nin dəyərləndirmələri bir müddətdir ki, pandemiyanın mənşəyinin böyük ehtimal Vuhandakı laboratoriya insidenti olduğunu göstərir", - deyə Rey "Fox News"a bildirib. FTB direktoru Çini qlobal pandemiyanın mənbəyinin müəyyənləşdirilməsini mümkün olan hər yolla ləngitməyə çalışmaqda ittiham edib.

Qeyd edək ki, ötən şənbə "Wall Street Journal" da ABŞ Enerji Nazirliyinin pandemiyanın Çindəki laboratoriya insidenti nəticəsində baş verməsi qənaətinə gəlməsinə dair məlumat dərc edib. Çin COVID-19 virusunun Vuhanda laboratoriyadan sızması ilə bağlı iddiaları təkzib edir və bunun qaralama kampaniyasının bir hissəsi olduğunu bildirir.

## Ukrayna 17 hərbçinin cəsədini geri qaytardı

**Ukrayna hərbçilərinin 17 nəfərinin cəsədi ölkəyə qaytarılıb.**

Adalet.az Ukrayna mətbuatına istinadən xəbər verir ki, bu barədə Ukraynanın müvəqqəti işğal olunmuş ərazilərin reinteqrasiyası nazirliyi məlumat yayıb. Nazirlikdən bildirilib ki, Rusiya Silahlı Qüvvələrinin genişmiqyaslı işğalı başlayandan bəri ümumilikdə 1426 həlak olmuş hərbçinin cəsədi geri qaytarılıb.

## Zəlzələdən sonra vəba epidemiyası başladı

**2 nəfər öldü, 568 hadisə aşkarlandı**



**Türkiyənin Kahramanmaraş bölgəsində 7,7 və 7,6 bal gücündə zəlzələlər Suriyanın şimalını da əhatə edib. Zəlzələdən sonra bölgədə vəba epidemiyası yayılıb.**

Adalet.az xəbər verir ki, Suriyanın şimal-qərbinə nəzarət edən müxalif qrupların tərkibində olan mülki müdafiə qrupu bölgədə başlayan vəba epidemiyasında 2 nəfərin öldüyünü açıqlayıb. Şiddətli ishal və qusma kimi əlamətlərlə özünü göstərən vəba xəstəliyinin çox yoluxucu və ölümcül olduğu qeyd edilib. Mülki müdafiə qrupu onu da qeyd edib ki, su şəbəkələrinə və infrastruktur sistemlərinə ciddi ziyan dəydiyi üçün 568 vəba xəstəliyi aşkar edilib.

## Paşinyan: "Azərbaycanla sülh müqaviləsinin imzalanmasında qərarlıyam"



**"Azərbaycanla sülh müqaviləsinin imzalanmasında qərarlıyam və məsuliyyəti üzərimə götürürəm".**

Adalet.az erməni mətbuatına istinadən xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin bugünki iclasında deyib.

Onun sözlərinə görə, bu Ermənistan üçün kapitulyasiyaya bənzər bir sənəd olmamalıdır.

"Bu, regionumuz üçün real və davamlı sülh sənədi olmalıdır. Mən sülh, sabitlik, regional və beynəlxalq əməkdaşlıq naminə bu məsuliyyəti daşımağa hazıram".

## Azərbaycanda mal əti bahalaşdı



**Biləsuvar rayonunda mal ətinin satış qiyməti qalxıb. Adalet.az xəbər verir ki, artıq bir neçə gündür ki, mal əti bahalaşıb.**

Satıcıların sözlərinə görə, bazarda mal ətinin qiymətində 1-2 manat artım var: "İndi mal ətinin 1 kq-ın 13-14 manata satırılır. Əvvəl isə ətin qiyməti 12 manat idi".

Buna səbəb kimi diri mal-qaranın qiymətinin qalxması göstərilir. Diri mal-qara satıcıları isə deyir ki, rayonda yem bahalaşdığı üçün bu da öz növbəsində diri heyvanların qiymətinə təsir edib:

**"Hazırda quru yonca bağlamasının qiyməti 6-7 manat arasında dəyişir. Amma keçən il bu qiymət 4-5 manat idi". Həmçinin satıcıların sözlərinə görə, quzu ətinin qiyməti isə təxminən 1 ay öncə qalxıb.**

Aqil ABBAS
aqilabbas@rambler.ru

## AVROPA MƏHKƏMƏSİNİN CINDIRLIĞI



*Bir Avropa Məhkəməsi var, guya insan haqlarını qoruyur, çox yaxşı. Amma nədənsə bu Avropa Məhkəməsi bizi insan saymır. Otuz ildi, əslində otuz beş ildi yurdundan-yuvasından perik düşmüş, evləri-eşikləri yandırılmış, müqəddəs ziyarətgahları dağıdılmış bir milyon azərbaycanlının bircə dəfə də olsa hüququnu müdafiə etməyib, amma indi Qarabağda təxminən 50 min ermənininin (onun da 20 mini Ermənistan ordusunun əsgərləridi) hüquqlarını müdafiə edir. Guya blokadaya almışıq. Naxçıvanda 30 ildən çoxdur blokadada yaşayan 400 min azərbaycanlının hüququnu müdafiə etmir, amma Qarabağda 50 min ermənini (onun da 20 mini Ermənistan ordusunun əsgərləridi) müdafiə edir.*

*Ermənistanın baş naziri Paşinyanın da qol çəkdiyi üçtərəfli Bəyannaməyə görə, qaçqınlar doğma yurd-yuvalarına qayıtmalıdır. Hələ bu günədək Qarabağda yaşayan bir azərbaycanlı nəinki doğma yurd-yuvasına qayıdıb, heç əzizlərinin yatdığı qəbiristanlığa da ziyarətə gedə bilməyib. Bunu müdafiə etmir, amma Qarabağda yaşayan 50 min ermənini (onun da 20 mini Ermənistan ordusunun əsgərləridi) müdafiə edir.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ



Zakir Fəxrini 15 sutka həbs edirlər.

Kamera olanlardan biri soruşur ki, "səni nə üstə həbs ediblər?"

Zakir Fəxri:

**- Qu quşlarına çörək atdığıma görə.**

Kamera yoldaşı təəcüblə:

**- Quşlara çörək atmağa görə də adamı həbs edərlər?**

Zakir Fəxri:

**- Əşi mən Opera Balet teatrında "Qu gölü" baletindəki quşlara çörək atırdım.**

# İlham Əliyev bolqarıstanlı həmkarını təbrik etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevə təbrik məktubu ünvanlayıb.**

Adalet.az xəbər verir ki, təbrik mətnində deyilir:

"Hörmətli cənab Prezident,

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz Azərbaycan-Bolqarıstan əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk.

Dost ölkə və strateji tərəfdaşımız olan Bolqarıstanla yüksək səviyyəli siyasi dialoqumuz, iqtisadi, enerji, nəqliyyat, mədəni və digər sahələrdə dinamik inkişaf edən münasibətlərimiz, səmərəli əməkdaşlığımız və bir çox sahələrdə əldə etdiyimiz nailiyyətlər bizi sevindirir.

Keçən ilin oktyabrında Bolqarıstana etdiyim rəsmi səfərin nəticələri, eyni zamanda səfər çərçivəsində Avropanın enerji təhlükəsizliyinə töhfə verən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun istifadəyə verilməsi strateji tərəfdaşlığımızın yüksək səviyyəsindən xəbər verir.

Enerji sektorunda səmərəli işbirliyimizin ticarət, nəqliyyat, logistika, sərmayə, yüksək texnologiyalar, turizm və digər sahələr və istiqamətlər üzrə də müvəffəqiyyətlə davam etdiriləcəyinə əminliyimi ifadə edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# İlham Əliyev Əlcəzairin baş naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Əlcəzair Xalq Demokratik Respublikasının Baş naziri Ayman Benabderrahman ilə görüşüb.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev Əlcəzair Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirakını məmnunluqla xatırlayıb. Dövlətimizin başçısı səfər çərçivəsində Azərbaycanla Əlcəzair arasında ikitərəfli əlaqələrin perspektivlərinə dair müzakirələrin də aparıldığını diqqətə çatdırıb.

Baş nazir Əlcəzair Prezidenti Abdelmacid Tebbunun səmimi salamlarını dövlətimizin başçısına çatdırıb.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını və ölkəmizə səfər etməklə bağlı dəvətini Əlcəzair dövlətinin başçısına çatdırmağı xahiş edib.

Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşünə dəvətə görə minnətdarlığını bildirən Baş nazir bu tədbirin yüksək səviyyədə təşkilinə və Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrliyinə görə Prezident İlham Əliyevi təbrik edib, ölkəmizin sədrliyi sayəsində Hərəkatın beynəlxalq münasibətlərdə oynadığı rolun daha da gücləndiyini vurğulayıb.

Ayman Benabderrahman Əlcəzairin Azərbaycanla qarşılıqlı münasibətlərin hərtərəfli inkişafında maraqlı olduğunu deyib. Qeyd edib ki, hazırda parlamentlərarası əməkdaşlıq və ədliyyə sahəsində əlaqələrimiz inkişaf edir, eyni zamanda, Xarici İşlər nazirlikləri səviyyəsində siyasi dialoq mexanizmi başlayıb və yaxın vaxtlarda siyasi məsləhətləşmələr keçiriləcək.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin bu ilin sonunda başa çatacağını vurğulayan dövlətimizin başçısı deyib ki, ölkəmiz sədrliyi dövründə Hərəkatın təsisatlanması istiqamətində fəal şəkildə çalışıb.

Prezident İlham Əliyev, həmçinin azərbaycanlı mütəxəssislərin, o cümlədən neftçilərin, geoloqların və mədəniyyət xadimlərinin Əlcəzairdə uğurla fəaliyyət göstərdiklərini deyib.

Baş nazir Ayman Benabderrahman da öz növbəsində Əlcəzair müstəqillik qazanandan sonra azərbaycanlı mütəxəssislərin ölkəsinin inkişafına verdiyi töhfələrin yüksək qiymətləndirildiyini vurğulayıb.

# İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvünü qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvü, Ras əl-Xeymə Əmirliyinin hakimi Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasimini qəbul edib.**

Adalet.az xəbər verir ki, Azərbaycanda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edən Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasimi bu tədbirin xüsusi önəm daşıdığını bildirdi.

Qonaq Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinə çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasiminin səfərinə və Birləşmiş Ərəb Əmirliklərinin sammitdə iştirakına görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlıq münasibətlərinin olduğunu qeyd etdi, iki ölkənin liderlərinin münasibətlərini xüsusi vurğuladı.

Sammitin əhəmiyyəti barədə danışan Azərbaycan Prezidenti ölkəmizin sədrlik dövründə Qoşulmama Hərəkatının təsisatlanması və beynəlxalq münasibətlər sistemində rolunun artırılması baxımından ciddi şəkildə fəaliyyət göstərdiyini dedi.

**Görüşdə ikitərəfli əlaqələr barədə fikir mübadiləsi aparıldı. Bərpaolunan enerji sahəsində Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin ölkəmizdə həyata keçirdiyi layihənin əhəmiyyəti vurğulandı. Turizm sahəsində əməkdaşlığın inkişaf etdiyi bildirilərək, qarşılıqlı turist səfərlərinin artmasının insanlar arasında təmaslara xidmət etdiyi qeyd olundu.**

# "Fransanı üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq"

**Martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib.**

Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İlham Əliyev tədbiri açaraq çıxış edib.

Ölkə rəhbəri çıxışında bildirib ki, "2019-cu ildə Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatına sədrliyinə başladı. Sədrlik müddəti yekdil qərarla daha bir il uzadıldı.

Qoşulmama Hərəkatının sədri olaraq Azərbaycanın məqsədi ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu".

Qoşulmama Hərəkatı ilə bağlı əlaqələrdən danışan İ,Əliyev bildirdi ki, "Azərbaycan 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin ehtiyaclarını müəyyən etmək üçün sözügedən məlumat bazasına istinad edib.

Azərbaycanın BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılması təklifi BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı və xüsusi sessiya 2020-ci ilin dekabr ayında keçirildi. Tədbirdə 70-dən çox dövlət və hökumət başçısı çıxış edib.

Xüsusi sessiyada beynəlxalq həmrəyliyin artırılmasının zəruriliyi vurğulanıb, Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyi qəbul edilib".

### Azərbaycan 80-dən çox ölkəyə koronavirusla bağlı yardım göstərib

Ölkə rəhbəri çıxışı zamanı bildirib ki, bəzi varlı ölkələrin həyata keçirdiyi "peyvənd millətçiliyi" pandemiya ilə mübarizədə ciddi maneədir: "Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu.

Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər edilməsində liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini bir daha nümayiş etdirdi".

Ölkə rəhbərliyi vurğulayıb ki, "Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib"

### Fransız müstəmləkə imperiyasının iyrənc qalıqları

"Yeni dünya düzəni yenidən formalaşmaqdadır"-deyən Azərbaycan prezidenti bildirib ki, "indi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur: "Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi




beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir".

İ.Əliyev bildirib ki, bu gün neokolonializm meylinin artdığını müşahidə edirik. Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir: "Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq".

### BMT Təhlükəsizlik Şurasında bir daimi yer Qoşulmama Hərəkatına verilməlidir

"BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir" - deyən ölkə rəhbəri bildirib ki, dünyada uzun illərdir müzakirə olunan mühüm məsələ BMT sistemində aparılan islahatlardır. Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun: "BMT Təhlükəsizlik Şurasında bir daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə növbəli şəkildə bu yerə sahib olmalıdır. Qoşulmama Hərəkatına üzv ölkələri bu məsələ ilə bağlı məsləhətləşmələrə başlamalı və öz fikirlərini BMT-nin müvafiq komitəsinə təqdim etməlidir. Təhlükəsizlik Şurasında Afrikaya da daimi yerlərin verilməsi fikri dəstəklənməlidir".

Prezident bildirib ki, BMT Təhlükəsizlik Şurası bu gün səmərəli deyil: "Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə günün içində icra olunub. Lakin Azərbaycana gəldikdə isə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmamışdır. 2020-ci ildə Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi və Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi. Yəqin ki, bu hadisə BMT-nin əsası qoyulandan bəri dünyada ilk dəfə idi baş verirdi".

Azərbaycan Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif edib.

Pandemiyanın "2030: Davamlı İnkişaf Məqsədləri"nin icra olunmasına mənfi təsirindən danışan ölkə rəhbərliyi bildirdi ki, "hədəflərə çatmaqda geriləmənin qarşısını almaq və 2030-cu il gündəliyinin icrasına vaxtında nail olmaq üçün qlobal səylər gücləndirilməlidir. Azərbaycan BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif edib. Bu panel postpandemiya dövrü üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər".

### İki qlobal çağırış

Çıxışı zamanı qlobal təhdidlərə diqqət çəkən ölkə prezidenti Azərbaycan bu sahə üzrə də yardımlarını davam etdirəcəyini bildirdi: "İqlim dəyişikliyi bəşəriyyət üçün digər bir təhdiddir və su qıtlığı, ərzaq çatışmazlığı və məcburi miqrasiya kimi ciddi problemlərə səbəb olur. İnkişaf edən kiçik ada ölkələri daha çox diqqətəlayiqdir.

Onlar iqlim dəyişikliyinin təsirlərinə daha həssas olduqları üçün yer üzündən silinmək təhlükəsi ilə üzləşiblər. COVID-19 pandemiyası dövründə olduğu kimi, Azərbaycan Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcək"

Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləyəcəyimizi də vurğulayan prezident bildirdi ki, "Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır".

### İşğal illəri ərzində Azərbaycanın bütün mədəni və dini abidələr talan və qarət edilmişdir

İşğal illəri ərzində Azərbaycanın yüzlərlə şəhər və kəndi Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılmış, bütün mədəni və dini abidələr talan və qarət edilmişdir -deyən Azərbaycan prezidenti bildirdi ki, "Azərbaycanın işğaldan azad olunmuş əraziləri klassik urbisid, kultursid və ekosid nümunələridir. 2020-ci ilin sonundan etibarən Qoşulmama Hərəkatına üzv ölkələr də daxil olmaqla, bir çox ölkədən minlərlə xarici diplomat, jurnalist, QHT üzvü və siyasətçi işğaldan azad olunmuş əraziləri ziyarət edərək Ermənistan tərəfindən törədilmiş vəhşiliklərin şahidi olmuşdur".

Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə öz maliyyə resursları ilə genişmiqyaslı yenidənqurma işləri apardığını vurğulayan İ.Əliyev bildirdi ki, Azərbaycan hökuməti 2021-2022-ci illərdə yenidənqurma işlərinə 4 milyard ABŞ dollarına yaxın pul xərcləyib. Bu il bu məqsəd üçün ən azı 1,7 milyard ABŞ dolları məbləğində vəsaitin ayrılmasıplanlaşdırılır. "Ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarımilli hökumətlər tərəfindən postmünaqişə dövründə icra olunan nadir və daha öncə görünməmiş bir inkişaf və yenidənqurma modelidir.

### Azərbaycan Həmfikirlər Qrupunun yaradılmasını təklif edir

Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasında olduğunu tədbir iştirakçılarının nəzərinə çatdıran prezident bildirdi ki, "İkinci Qarabağ müharibəsindən sonra, yəni, 2020-ci ilin noyabr ayından bəri 300 azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Ölkə üçün humanitar minatəmizləmənin böyük əhəmiyyətini nəzərə alaraq, Azərbaycan hazırda xüsusi milli Dayanıqlı İnkişaf Məqsədinin müəyyən edilməsini nəzərdən keçirir. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə görür, çünki minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini ləngidir.

Azərbaycan minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, AzərbaycanHərəkatının səsini qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif edir. Münaqişənin bitməsindən qısa müddət sonra Azərbaycan sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsipi Ermənistana təqdim edib"

**Nicat Novruzoğlu**

# Azərbaycanın nümayəndə heyəti Xocalıda

**Xəbər vediyimiz kimi, Rusiyanın bəzi dairələrinin Qarabağ regionunda aranı qarışdırmaq üçün göndərdikləri emissarı Ruben Vardanyan, qondarma separatçı rejimin, qondarma dövlət naziri vəzifəsindən uzaqlaşdırılan kimi, Azərbaycanın nümayəndə heyyəti, hazırda müvəqqəti olaraq Xocalı şəhərində yerləşən Rusiya Federasiyasının sülhməramlı qüvvələrinin qərərgahında, Azərbaycanın Qarabağ regionunda yaşayan erməni icmasının nümayəndələri ilə görüşüb.**

Azərbaycan tərəfini Qarabağ bölgəsində yaşayan erməni sakinləri ilə təmaslar üzrə məsul şəxs qismində təyin edilən, Milli Məclisin deputatı Ramin Məmmədovun başçılıq etdiyi nümayəndə heyyəti təmsil edib. Xatırladırıq ki, əslən Qarabağdan olan Ramin Məmmədov Ağdərə rayonunda doğulub. Nümayəndə heyyətinin tərkibində, təbii sərvətlərin qanunsuz istismarını araşdıran monitorinq qrupunun rəhbəri Məsim Məmmədov, Ekologiya və Təbii Sərvətlər nazirliyinin, İqtisadiyyat nazirliyi yanında Dövlət Əmlak məsələləri üzrə xidmətinin və



AzərGold QSC-nin mütəxəsisləri də görüşdə iştirak ediblər. Görüşdə Qarabağ regionunda yaşayan erməni vətəndaşların Azərbaycan Respublikasına reinteqrasiyası məsələləri ilə bağlı ilkin danışıqlar aparılıb. Görüş barədə YouTube kanalı ilə ilkin təsüratlarını bölüşən qrupun rəhbəri Ramin Məmmədov bildirib ki, "Bu gün bəlli bir formatda ilk görüş keçirilib. Görüş zamanı əsasən Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə, sosial - mədəni həyatına reinteqrasiyası, bu prosesi sürətləndirmək üçün Azərbaycan tərəfinin təmin edə biləcəyi imkanlar, eləcə də bölgədə sülhün təmin olunmasının qarşısında duran maneələr və çağırışlar müzakirə olunub".

Deputatın fikrincə, təsuratlara görə, ilkin təmas baş tutmuş sayıla bilər. Daha əvvələrdə Azərbaycanın dövlət nümayəndələrinin Qarabağ regionunda yaşayan erməni əhalisi ilə qeyri-rəsmi görüşlər keçirmələri ilə bağlı xəbərlər verilirdi. Lakin bu görüş ilk rəsmi görüş kimi qiymətləndirilə bilər. Görüşün Xocalı şəhərində keçirilməsi xüsusi əhəmmiyət daşıyır. 30 ilə yaxın işğal altında olan Xocalı torpağına ayaq basmağımız bizləri sevindirməyə bilməz.

İlk rəsmi görüşün baş tutması ümid yaradır. İnanırıq ki, qrupun rəhbəri Ramin Məmmədovun başçılıq etdiyi nümayəndə heyyəti bu görüşlərin mütamadi hal alması üçün əllərindən gələni edicəklər.

"Ədalət" qəzeti olaraq bu məsuliyyətli işdə Ramin müəllimə və qrup üzvülərinə uğurlar arzulayırıq. İnanırıq ki, onların səyləri nəticısində, tarixin ən ağır faciələrini yaşamış Xocalı sakinləri də tezliklə öz doğma yurdlarına qayıdacaqlar.

**Rüstəm Hacıyev**

### Ukrayna İranı beynəlxalq məhkəməyə verir

**Ukrayna İranı Beynəlxalq Cinayət Məhkəməsinə şikayət edəcək.**

Bu barədə Ukraynanın Baş naziri Denis Şmıqal bildirib.

O bildirib ki, Kiyev Rusiyanın Ukraynanın enerji və mülki




infrastrukturuna hücum etmək üçün istifadə etdiyi İranın pilotsuz təyyarələrlə təmin edilməsi məsələsinə məhkəmədə baxılmasında israrlı olacaq:

"Biz İranın bu hərbi cinayətlərin törədilməsində Rusiya ilə şərikliyindən narahatıq və İranın bu cinayətlərdə iştirakının tanınmasına çalışacağıq".

O qeyd edib ki, Moskvaya dəstəyi dayandırmaq üçün Tehrana təzyiq etmək lazımdır.

*Aqil ABBAS*

# AVROPA MƏHKƏMƏSİNİN CINDIRLIĞI

*Bir Avropa Məhkəməsi var, guya insan haqlarını qoruyur, çox yaxşı. Amma nədənsə bu Avropa Məhkəməsi bizi insan saymır. Otuz ildi, əslində otuz beş ildi yurdundan-yuvasından perik düşmüş, evləri-eşikləri yandırılmış, müqəddəs ziyarətgahları dağıdılmış bir milyon azərbaycanlının bircə dəfə də olsa hüququnu müdafiə etməyib, amma indi Qarabağda təxminən 50 min erməninin (onun da 20 mini Ermənistan ordusunun əsgərləridi) hüquqlarını müdafiə edir. Guya blokadaya almışıq. Naxçıvanda 30 ildən çoxdur blokadada yaşayan 400 min azərbaycanlının hüququnu müdafiə etmir, amma Qarabağda 50 min ermənini (onun da 20 mini Ermənistan ordusunun əsgərləridi) müdafiə edir.*

*Ermənistanın baş naziri Paşinyanın da qol çəkdiyi üçtərəfli Bəyannaməyə görə, qaçqınlar doğma yurd-yuvalarına qayıtmalıdır. Hələ bu günədək Qarabağda yaşayan bir azərbaycanlı nəinki doğma yurd-yuvasına qayıdıb, heç əzizlərinin yatdığı qəbiristanlığa da ziyarətə gedə bilməyib. Bunu müdafiə etmir, amma Qarabağda yaşayan 50 min ermənini (onun da 20 mini Ermənistan ordusunun əsgərləridi) müdafiə edir.*

*Qarabağda bircə dənə də müsəlman məbədi, məscidi qalmayıb, ermənilər darmadağın edib, amma Avropa Məhkəməsi bu barədə dilini qoyub dinməz yerinə, guya biz xristian abidəsi dağıtmışıq. Müsəlman hər üç peyğəmbərə inanır, Musaya da, İsaya da, sinaqoqu da Allahın evi sayır, kilsəni də. Heç bir müsəlman Allah evinə toxunmaz. Avropa Məhkəməsinin ağlı öz xristianlarına gedib.*

*78-ci gündür Laçın-Xankəndi yolunda Azərbaycanın sərvətlərinin talanmasına etiraz edən gənclərin səsini eşitmir, amma ermənilərin şikayətini eşidir. O gənclər necə həmin yolu blokadaya alıblar ki, hər gün az qala Qarabağdakı ermənilərin sayı qədər İrəvandan Xankəndinə və əks istiqamətə yük daşıyan, adam daşıyan və eləcə də Qırmızı Xaçın maşınlarını görmür?!*

*Ermənilər nəinki bizim insan hüquqlarımızı, hətta ölülərimizin hüquqlarını pozub, qəbiristanlıqlarımızı dağıdıb taxıl əkib - Avropa Məhkəməsi bunu görmür.*

*O gün getmişdim Ağdam şəhərinə. Getdim dağıdılmış Qarağacıya - anamın, qardaşımın qəbrini ziyarət etməyə, tapa bilmədim. Əlli metr Əsgəran tərəfdə Ermənistan silahlı qüvvələrinin postu idi. Yanlarında rus sülənənməramlıları vardı-yoxdu, görmədim. Niyə Ağdamdan Şuşaya 37 kilometrlik yol ilə gedə bilməyim, məcbur olub Şuşaya Horadizdən 110 kilometrlik yolu gedim, amma onlar Laçından keçməklə Xankəndinə, təxminən 45 kilometrlik yolu ürəkləri istəyəndə gəlib-getsinlər. Silah daşısınlar, sursat daşısınlar və sair və ilaxır.*

*Avropa Məhkəməsi, qısası desəm, get hoppan. Sənin çıxartdığın qərardı, qətnamədi, bilmirəm nə zibildi bizə təfavüt etmir. Necə ki Ermənistan BMT Təhlükəsizlik Şurasının çıxartdığı 4 qətnaməni zibil yeşiyinə atdı, biz də sənin çıxartdığın qərardı, qətnamədi, bilmirəm nə zibildi onunla nəvələrimizin dalını silib atarıq.*

# LAVROVA VERİLMƏYƏN SUALLAR

**Lavrov dedi ki, üçtərəfli Bəyannaməyə görə, Laçın dəhlizi açıq olmalıdır, qısası, orda nəzarət məntəqəsi qura bilməzsiniz. Çox gözəl. Bəy dediyin nədi, Bəyannaməni yerinə yetirməməyin nədi?!**

**Bu üçtərəfli Bəyannaməyə əməl eləmək yalnız Azərbaycan tərəfinin borcudur, bəs Ermənistan tərəfi niyə yerinə yetirmir? Bəyannamənin qəbul olunmasından iki ildən çox vaxt keçib, Ermənistan hələ də kommunikasiya xətlərini açmayıb, Zəngəzur dəhlizi bağlıdı, Naxçıvanda 400 mindən artıq adam blokada şəraitində yaşayır.**



**Bəyannamədə göstərilib ki, qaçqınlar, daha doğrusu, məcburi köçkünlər yurd-yuvalarına qayıtmalıdır. Sülhməramlıların vəzifə borclarından biri də buna əməl etməkdir. Bu günədək separatçıların və sülhməramlıların nəzarəti altında olan bir kəndə, bir şəhərə bircəcə dənə məcburi köçkün gedə bilirmi? Cəhənnəm yaşamağa, heç olmasa dədəsinin-nənəsinin qəbrini ziyarət etməyə gedə bilirmi? Təbii ki, yox.**

**Xocalılar soyqırımın 31-ci ildönümündə də Xocalısız qaldılar.**

**Laçın dəhlizi açıqdırsa və ordan həm separatçılar, həm də Ermənistan maksimum istifadə edə bilirsə, biz niyə Şuşaya 37 kilometr yolu Ağdamdan gedə bilməyək və milyardlarla pul töküb Horadizdən Füzuliyə 110 kilometrlik yol çəkək?!**

**Biz niyə Ağdamdan, Tərtərdən Kəlbəcərə rahat 83-84 kilometr yolu deyil, gedib Murovdan keçməliyik. Özü də belə qarlı-şaxtalı havalarda.**

**Niyə erməni separatçıları Əsgəranda, Xocavənddə, Suqovuşanda postlarını qurub öz polislərini qoyub nəinki bizə nəzarət eləyirlər, heç buraxmırlar da.**

**Niyə ermənilər ürəkləri istəyəndə bizim postlardan keçib Dədəvəng kilsəsini ziyarət etməyə gedə bilər, amma biz separatçıların nəzarəti altında olan ərazilərdəki məscidlərimizi (dağıdılmış olsa da), məbədlərimizi (dağıdılmış olsa da) ziyarət edə bilmərik?**

**Jurnalistlərimizi də o qədər gözüqıpıq ediblər ki, mətbuat konfransında bu sualları Lavrova ünvanlaya bilmədik.**

**80 gündür qarda-qiyamətdə, şaxtada Laçın dəhlizində dinc aksiya keçirən gənclərimiz, sizə eşq olsun! Darıxmayın, bir gün sizin səsinizi eşidən tapılacaq. Düzdür, dünya kardı, kordu, sizi görmək istəmir, eşitmək istəmir. Gələr bir gün barmağımızı soxub dünyanın o kor gözlərini çıxardarıq, kar qulaqlarını da deşərik. 44 günlük müharibədə elədiyimiz kimi.**

### Çinə qarşı sanksiya: ABŞ məsləhətləşmə aparır

**ABŞ müharibədə Rusiyaya yardım göstərəcəyi təqdirdə müttəfiqlərinin Çinə qarşı sanksiyalar tətbiq etməyə nə dərəcədə hazır olduğunu anlamağa çalışır.**



Bu barədə "Röyters" ABŞ rəsmilərinə istinadən məlumat yayıb.

"Məsləhətləşmələr ilkin mərhələdədir və ilk növbədə G7 ölkələri ilə aparılır. Hansı mümkün məhdudiyyətlərin müzakirə oluna biləcəyi göstərilmir. ABŞ-ın məsləhətləşdiyi ölkələrdən birinin nümayəndəsi bildirib ki, Çinin Rusiyaya hərbi yardım göstərmək niyyətilə bağlı bir neçə kəşfiyyat məlumatı təqdim edilib", - məlumatda vurğulanıb.

Qeyd edək ki, ABŞ Dövlət katibi Entoni Blinken Moskvaya kömək edəcəyi təqdirdə Pekinə qarşı sanksiyalar tətbiq ediləcəyini bildirmişdi.

# Bu da belə bir ömürdü



**Xəzər rayonu H.Z.Tağıyev adına 123 saylı tam orta məktəbdə Xalq şairi Məmməd Arazın anadan olmasının 90 illiyinə həsr olunmuş "Bu da belə bir ömürdü..." adlı tədbir təşkil olundu.**

Tədbirdə Xalq şairi Məmməd Arazın müxtəlif illərdə yazdığı şeirləri böyük sevgi və məhəbbətlə söylənildi.

Məktəbin direktoru Sevinc xanım Mustafayeva vətənpərvərlik, azadlıq ideyası ilə yoğrulmuş Məmməd Araz poeziyasının gənc nəsillər üçün örnək olduğunu, hər zaman öz aktuallığını saxladığını bildirdi.



Çıxış edənlər şairin Azərbaycan ədəbiyyatının inkişafına verdiyi töhfələrdən bəhs edərək şairin şeirlərindən parçalar, sözlərinə yazılmış mahnılar səsləndirilməklə tədbirə daha gözəl ovqat qatdılar.

Xalq şairinin qızı İradə xanım Tuncay,millət vəkili, yazıçı-publisist Aqil Abbas ,Xəzər Rayon İcra Hakimiyyətinin başçısının müavini Lalə xanım Əhmədova və Rayon İcra Hakimiyyəti nümayəndəsi Ofeliya xanım Məmmədzadə tədbirin təşəbbüskarı və təşkilatçılarına minnətdarlıqlarını bildirdilər.

## Fəxrəddin Altun: "Dövlətimiz var gücü ilə zəlzələ qurbanlarının yaralarını sarıyır"



**"Dövlətimiz var gücü ilə zəlzələ qurbanlarının yaralarını sarıyır. Vətəndaşlarımız da AFAD başda olmaqla, yardım fəaliyyəti həyata keçirən qurumlara maddi və humanitar dəstəyini əsirgəmir".**

Adalet.az xəbər verir ki, bu sözləri Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun Yunanıstanın aparıcı qəzetlərindən olan "Kathimerini"nin Türkiyənin 11 vilayətində baş verən və "əsrin fəlakəti" olaraq xarakterizə edilən zəlzələlərlə bağlı suallarını cavablandırarkən deyib.

Türkiyədə 1939-cu ildən bu yana ən böyük iki zəlzələnin təxminən 9 saat fasilə ilə baş verdiyini və ölkənin iki çox böyük zəlzələ ilə sarsıldığını vurğulayan F.Altun "Bu zəlzələlərin hər ikisi 1999-cu ildə Mərmərə bölgəsində yaşadığımız zəlzələdən daha böyük idi.

Üstəlik 11 ıəhərimiz ayrı-ayrılıqda bundan zərər gördü. Xalqımız bu zəlzələləri "əsrin fəlakəti" adlandırdı.

Axtarış-xilasetmə personalından təhlükəsizlik qüvvələrinə, tibb işçilərinə qədər hər kəs bu prosesdə fövqəlbəşəri bir səy göstərdi.

Ancaq həm yaşanan fəlakətin miqyasını, həm də ilk andan zəlzələ bölgəsində həyat xilas edənlərin zəhmət və fədakarlığını görməməzlikdən gəlmək istəyənlər var. Dövlətimiz var gücü ilə zəlzələ qurbanlarının yaralarını sarıyır. Vətəndaşlarımız da AFAD başda olmaqla, yardım fəaliyyəti həyata keçirən qurumlara maddi və humanitar dəstəyini əsirgəmir. Biz həqiqətən də bu çətin dövrdə Türkiyənin dövləti və milləti ilə birliyini, bütövlüyünü açıq şəkildə nümayiş etdirdik. Hazırda hökumətimizin vətəndaşlarımızın ehtiyaclarını ödəmək və zəlzələdən zərər çəkmiş şəhərlərimizi yenidən qurmaqdan başqa prioriteti yoxdur", - deyib.

Türkiyədə seçkilərin təxirə salınması məsələsinin gündəmdə olub-olmaması ilə bağlı suala isə Altun belə cavab verib: "Belə bir gündəmimiz yoxdur. Hal-hazırda bir nömrəli prioritetimiz yaraları bir an əvvəl sağaltmaqdır. Zəlzələ nəticəsində həyatini itirənlər və yaralılarımız var.

Bizim yeganə qayğımız yaralananlara, yaxınlarını itirənlərə və zəlzələdən zərər çəkmiş bütün vətəndaşlarımıza dövlətin dövlətin şəfqətli əllərini uzatmaqdır. Təbii ki, kədərimiz böyükdür. Amma biz bu ağır günlərdən dövlət-millət birliyi ilə çıxacağıq".

Altun axtarış-xilasetmə prosesində Twitter-in işləməməsi və ya zəif işləməsi ilə bağlı müzakirələrlə bağlı qeyd edib ki, dezinformasiya ilə mübarizənin son illərdə təkcə Türkiyədə deyil, bütün dünyada prioritet məsələyə çevrilib. Bu çərçivədə Twitter kimi qlobal şirkətlərin dövlətlərlə necə əlaqə qurması lazım olduğunun da müzakirə edildiyinə diqqət çəkən Türkiyə rəsmisi zəlzələdən sonra sosial şəbəkələr vasitəsilə çox sayda saxta məalumatlar aşkar etdiklərini bildirib.

"Bunun məqsədli şəkildə olub-olmadığını və ya axtarış-xilasetmə işlərini sabotaj etmək istəyən daxili və xarici ünsürlər tərəfindən edilib-edilmədiyini araşdırırıq. Buna görə də inzibati qərar verildi. Twitter də narahatlığımızı anladığını bildirdi və konkret addımlar ataraq narahatlıqlarımızı aradan qaldırdı. Məhdudiyyətlər bir neçə saat sonra aradan qaldırıldı", - deyə o qeyd edib.

"Mart ayında zəlzələ bölgələrində binaların tikintisinə başlanılacağı deyilir. Bu, real vəddirmi?" sualına cavabında Altun deyib:

"Bu, şübhəsiz ki, real hədəfdir. Çünki Türkiyə Cümhuriyyəti güclü dövlətdir. Onun ciddi potensialı var. Əslində söhbət dünyanın hər yerində təhlükəsiz binalar tikən, nəhəng layihələrə imza atan bir ölkədən gedir. Ən əsası isə Türkiyənin prezidentimiz kimi güclü lideri var.

Təəssüf ki, hökumətin atdığı hər addımı tənqid etməyi siyasət və ya ziyalılıq hesab edənlər var. Bizim onların hər tənqidinə cavab verərək itirməyə vaxtımız yoxdur.

Daha əvvəl yaşanan fəlakətlərdə vətəndaşlarımızı çətin vəziyyətdə qoymadığımız kimi, bu gün də tez bir zamanda yaraları sağaldacağıq. Vətəndaşlarımızı təhlükəsiz və keyfiyyətli sığınacaqlarla təmin edəcəyik".

Yunanıstanın ilk andan etibarən həm dəstək mesajı yayımladığı, həm də axtarış-xilasetmə qrupu ilə işlərə qoşulduğu xatırladılaraq, bunun Türkiyə-Yunanıstan münasibətlərində "yeni səhifə" açıb-açmayacağı barədə isə F.Altun Türkiyənin ilk böyük zəlzələdən dərhal sonra beynəlxalq yardım çağırışı etdiyinə və bu çərçivədə onlarla ölkədən axtarış xilasetmə qruplarının Türkiyəyə gəldiyinə, bu ölkələr arasında Yunanıstanın da olduğuna diqqət çəkərək sözlərinə belə davam edib:

"Təbii ki, biz Yunanıstana və dəstək verən bütün ölkələrə minnətdarıq. Yunanıstanla münasibətlərimiz haqqında onu deyə bilərəm ki, biz həmişə bütün qonşularımızla yaxşı münasibətlərdə olmaq istəyirik.

Dövlətlər arasında bəzən fikir ayrılıqlarının olması təbii haldır. Bu fikir ayrılıqlarını beynəlxalq hüquqa uyğun mənalı və səmimi dialoq və ədalət zəminində həll etməliyik. Türk milləti heç vaxt ona uzadılan dost əlini havada qoymayıb".

# Eldar Əzizov rəhbər şəxsləri meriyaya topladı

**Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın təsərrüfat strukturlarının rəhbərlərinin iştirakı ilə geniş tərkibdə müşavirə keçirilib.**



İcra Hakimiyyətindən Adalet.az-a verilən xəbərə görə, toplantıda yaz-yay mövsümünün başlanmasına hazırlıqla bağlı bir sıra məsələlər müzakirə olunub.

Şəhər parklarının və istirahət guşələrinin abadlaşdırılması və parklarda cari təmirlə bağlı müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib. Eyni zamanda, qış mövsümündə zədələnmiş qazon örtüyünün landşaft dizaynı, bərpası və yenilənməsi, yeni gül və bitkilərin əkilməsi işlərinin aparılmasının vacibliyi vurğulanıb.

Müşavirədə bəzi respublika təşkilatlarının və icra hakimiyyətinin müvafiq strukturlarının işi sərt şəkildə tənqid edilib. Belə ki, bir sıra orijinal tikililər səhvən tarixi irs siyahısına daxil edilmədiyindən onlar sökülmək təhlükəsi ilə üzləşib. Yalnız Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın müdaxiləsindən sonra bir çox memarlıq binaları xilas edilib.

Nazirlik tərəfindən memarlıq binalarının yeni inventarlaşdırılmasına başlanıldığı və bu proses müsbət istiqamətdə inkişaf etdiyi üçün rayon icra hakimiyyətlərinə bu işə qoşulmaq tapşırılıb, bu istiqamətdə nəzarətin gücləndirilməsi üçün konkret tədbirlər müəyyən edilib. Paytaxt rayonlarının icra hakimiyyətlərinə tapşırılıb ki, Memarlar İttifaqı və digər təşkilatlarla razılaşdırmaqla mədəni-tarixi dəyəri olan memarlıq tikililərinin tam siyahısını qısa müddətdə müəyyənləşdirib Mədəniyyət Nazirliyinə təqdim etsinlər.

Görüşdə paytaxt sakinləri üçün son dərəcə aktual olan qəzalı vəziyyətdə olan binaların problemi qaldırılıb. Bildirilib ki, qəzalı binaların əksəriyyəti sovetlər dövründə tikilib və onların istismar müddəti başa çatıb. Söhbət əsasən "Xruşşovka" adlandırılan beş mərtəbəli binalardan, yataqxanalar və digər tikililərdən gedir və onların siyahısı daim yenilənir. Xüsusilə qeyd olunub ki, ölkə rəhbərliyinin səyləri nəticəsində son 5 ildə Bakıda 1239 qəzalı bina sökülüb, on minlərlə insan yeni mənzillərə köçürülüb və ya müvafiq kompensasiya alıb. Hazırda bu istiqamətdə işlər davam edir və Nazirlər Kabinetinin nəzarətindədir.

Məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin struktur bölmələrinə paytaxtın mənzil fondunun vəziyyətinə nəzarəti gücləndirmək tapşırılıb.

**Həmçinin, yazın gəlişi ilə əlaqədar "Novruz bayramını təmiz şəhərlə qarşılayaq" devizi ilə Bakıda iməciliyin keçirilməsi qərara alınıb. Bakı Şəhər İcra Hakimiyyəti idarə və müəssisə kollektivlərinə, sahibkarlara, paytaxt sakinləri və şəhərimizin qonaqlarına müraciət edərək onları iməclikdə fəal iştirak etməyə çağırıb.**

# Fransa XİN-dən riyakar açıqlama: "Laçın dəhlizinin bağlanması..."

**Xəbər verdiyimiz kimi, Fransa dövlətinin birmənalı olaraq yürütdüyü ermənipərəst və Ermənistanyönümlü siyasət olduqca ziyanlıdır. Bundan əlavə, bu ölkənin ayrı-ayrı yüksək vəzifəli şəxsləri, senatorları da erməniləri müdafiə etməkdən və qərəzli olaraq Azərbaycanı ittiham etməkdən əl çəkmirlər.**

Çox təəssüf ki, onlar proseslərə obyektiv yanaşmaq istəmirlər ki, Ermənistanın düşdüyü bəlaya dəqiq qiymət verə bilsinlər.

Adalet.az xəbər verir ki, Fransa prezidentinin və senatorlarının Azərbaycana qarşı haqsız və ermənipərəst münasibətindən sonra Fransanın Xarici İşlər Naziri Katrin Kolonna da özünü izhar etməyə çəkinməyib. Belə ki, K. Kolonna ermənilərin "blokada", "yeni soyqırım" nağıllarına uyaraq açıqlama verib.

Gerçəyi öyrənməyi özünə borc bilməyən Fransanın əsas rəsmi şəxslərindən olan bu siyasətçi Azərbaycanın Beynəlxalq Ədalət məhkəməsini "görməzdən gəlmə"sini hədəfə alıb: "Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Məhkəməsinin qərarına hörmət etməlidir. Laçın dəhlizinin bağlanması qəbuledilməzdir"

Fransanın xarici işlər naziri dəhlizdəki uydurma "blokada"nın açılmasına və sərbəst hərəkətin dərhal bərpasına üstünlük verdiyini vurğulayıb.

Kolonnanın sözlərinə görə, bu, Azərbaycanın öhdəliyidir və qanuna hörmət edilməlidir.

Kolonna bildirib ki, Fransa iki ölkə arasında təhlükəsizlik məsələləri və təmaslarla məşğul olan Aİ missiyasında iştirak edir. O, BQXK-nın humanitar problemlərin həllində fəaliyyətini xüsusi vurğulayıb: "Dəhlizdə gediş-gəlişin qarşısının alınsa da, Bakı ilə İrəvan arasında dialoq prioritet olaraq qalır. Biz Aİ və ABŞ tərəfdaşlarımızla kömək etməyə hazırıq". Qeyd edək ki, Fransanın xarici işlər naziri



Ketrin Kolonna hələ ötən ayın 10 fevralında ABŞ Dövlət katibi Entoni Blinkenlə telefon danışığı aparıb. Onlar danışıq zamanı Qarabağdakı vəziyyəti də müzakirə ediblər. Məlumata görə, Kolonna və Blinken Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla təmasları davam etdirmək niyyətində olduqlarını təsdiqləyiblər: "Qarabağ əhalisi üçün (erməni icması nəzərdə tutulur - red.) "ciddi humanitar nəticələr" qəbuledilməzdir, Fransa və ABŞ Baş nazir Paşinyan və Prezident Əliyev arasında təmaslar vasitəsilə bu vəziyyətə son qoymaq üçün güclərini birləşdirir".

***P.S.* Xanım Kalonna, doğma Qarabağımıza, kəndimizə, evimizə getməmək üçün Ermənistan ordusu 28 il tanklarla, toplarla, dişinə qədər silahlanmış əsgərlərlə yolumuzu kəsdi. Minlərlə dinc soydaşımızı qanına qəltan etdi. Yurdumuzu darmadağın edib xarabaza çevirdi... Nə olardı, onda da, heç olmasa 1 dəfə Ermənistana etiraz edəydiniz, söz keçirəydiniz...**

***İndi nə oldu, 1 dəstə silahsız dinc ekoloq yolu kəsib ( kəsmiyib haa, gediş var, gəliş var) niyə saçınızı yolub üzünüzü cırırsınız, tumanınızı başınıza keçirmisiniz? Azzz, bir Allahınız olsun dana...***

**Əntiqə Rəşid**

# "Artsax"a himn yazan, AYB "üzvü" Vardan Akopyanın xəyanəti

***Erməni mediasına nəzər salarkən "Artsax" Yazıçılar Birliyinin sədri, Ermənistanın əməkdar mədəniyyət xadimi, Qriqor Narekatsi Universitetinin rektoru, t.ü.f.d., professor VardanAkopyan vəfat edib. Vardan Akopyan "Artsax" respublikasının dövlət himninin müəllifidir.***

***O, yeddidən çox kitabın və bir çox elmi məqalənin müəllifidir" xəbəri diqqətimizi cəlb etdi. Separatçıların birçoxunu hələ Xankəndidə yaşayarkən yaxından tanıyan tanınmış yazıçı- jurnalist İlham Cəmiloğluya müraciət etdik. İlham müəllim, cəmiyyətimizin bu separatçını yaxından tanınması üçün bildiyi bütün bilgiləri Adalet.az -ın oxucuları üçün bizimlə bölüşdü.***

**-İlham müəllim, ermənilərin kədərlə adını qeyd etdikləri Vardan Akopyan deyəsən, Qarabağ ermənisidir?**

- Əvvəlcə qeyd edim ki, Azərbaycan torpağının çörəyini yemiş, suyunu içmiş havasını udaraq korlamış bir xaindir, şovinistdir. Vardan Akopyan 1948-ci ildə Hadrut rayonun Arpagədik kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakıda keçmiş Lenin adına Azərbaycan Pedaqoji İnstitutda ali təhsil alıb.

Ali təhsilini başa vurduqdan sonra onun təyinatı başqa rayona verilib.Amma o vaxt respublikamızdakı ermənipərəst gözəgörünməz qüvvələrin sayəsində Vardan Akopyan təyinat yerdəyişməsinə nail oldu və şovinizmlə yiğrulmuş təxəyyüllərini doğulduğu Qarabağda həyata keçirmək üçün Dağlıq Qarabağ Muxtar Vilayətinə dönüb. Xankəndi onun İlk əmək fəaliyyətinə başladığı məkan olub. Burda o ali təhsil ocağımızdan əxz etdiyi biliklərlə partiya komitəsinin orqanı olan "Sovetskiy Karabax" qəzetində ədəbi işçi olaraq şovinizmə xidmətə başlayıb.

**-O vaxt Sovet Azərbaycanında vəzifədə azərbaycanlılara yanaşı ermənilər də vardı. Yəqin ki, Vardandakı azərbaycanlılara qarşı nifrəti onlar hiss edə biliblər...**

- Ümumiyyətlə, Qarabağ erməniləri hər zaman azərbaycanlılara qarşı nifrətlə böyüdülüb, amma o qədər hiyləgər idilər ki, bu nifrəti gizli saxlaya bilirdilər. Hətta o dərin nifrətlə özlərini dost da göstərməyi bacarırdılar. Sovet rejiminin asıb-kəsən vaxtlarıolmasına baxmayaraq Akopyanın yazılarında sətiraltı olaraq qatı millətçilik özünü tez-tez biruzə verib. Vilayət rəhbərliyində işləyən millətçi ermənilər üçün Vardan Akopyan əsl "patriot" sayılıb və onun da irəli getməsinə şərait yaradılıb. Bununlada o, qısa müddətdən sonra qəzetdə şöbə müdiri, daha sonra isə redaktor müavini vəzifələrinə irəli çəkilib. Hətta 1983-cü ildə Azərbaycan Yazıçılarİttifaqının Dağlıq Qarabağ Muxtar Vilayəti filialına məsul katib təyin edilib.





**- AYB-nin rəhbəri yazıçı dramaturq İmran Qasımovun vaxtında...**

-Əslində bu məsələdə sovet təbliğatının böyük təsirini və ermənilərdən ibarət yüksək vəzifə sahiblərini hədəfə almaq daha düzgün olardı. Ermənilər yüksək vəzifəyə birbaşa Moskvadan təyin edilirdilər.

**- Deməyim odur ki, niyə axı, İmran Qasımov kimi bir yazıçı, bir mütəfəkkir insan Vardanın cılız bir şovinist olduğunu hissetməyib, anlaya bilməyib...**

-Bayaq dedim axı... hiyləgərdirlər, bu hiyləgərlik bu millətin qanındadır, təbiətindədir. Onlar bunu gizlətməyi gözəl bacarırdılar. Akopyan Bakıda ezamiyyətlərdə olarkən özünü beynəlmiləlçi kimi göstərib, xalqlar dostluğundan ağız dolusu danışıb. Kim onun iç dünyasında hansı fəsadların olduğunu anlayardı ki...

**- Bəs saf Azərbaycan nə vaxt anladı ki, bu yazıçı türk qanına həris bir çaqqaldır?**

- 1988-ci ildə əsl simasını biruzə verib. İnsan 40 il içindəki nifrəti necə mükəmməl şəkildə gizlədə bilərmiş...Təşəvvür edin ki, Dağlıq Qarabağda erməni hərəkatı başlananda Akopyan bu hərəkatda olan ən fəal üzvlərdən birinə çevrildi. "Krunk"un ideoloji bölməsinin rəhbəri Xankəndi ipək fabrikinin partkomu, Robert Koçaryan, sədr müavini isə qatı millətçiliyi nəzərə alınaraq Akopyan seçilib.

**- Koçaryan, Serj Sarkisyan, Seyran Ohonyan, Samvel Karapetyan, Kamo Ağacanyan , Zori balayan qədər qatil bir erməni...**

- Xankəndi tikinti materialları kombinatının direktoru və 1988-ci ildə Xankəndi şəhərində yaradılmış Krunk adlı terror təşkilatın rəhbəri Arkadi Manuçarovla yaxın dost, əqidədaş olub. Akopyan öz şəxsi mənafeyini də unutmayıb. Azərbaycanın hesabına zənginləşən Manuçarov "səxavətini" Akopyandan əsirgəməyib ki, bu da millətçi şairi Azərbaycan əleyhinə təbliğatda daha da "ilhamlandırıb".

**- Yəqin ki, o hərəkatdan sonra şovinist yazar daha geniş əl-qol açır, Azərbaycana qarşı daha çirkin iftiralar yazıb?**

- Akopyan 1989-cu ildə "Artsax" jurnalını və "Artsax" nəşriyyatını təsis edib. 1991-ci ildə o, "Artsax" Yazıçılar İttifaqının sədri vəzifəsinə sahib olub. Bunlarla yanaşı, Vardan Akopyan Xankəndi şəhərində "Qriqor Narekatsi" universitetini də yaradaraq onun rektoru olub. Qondarma "DQR"-in himnini öz "şah əsəri" adlandıran Akopyan bu "himn"in sözlərinin müəllifi olmaqla özünü toxunulmaz şəxs sayıb. Həqiqətən də Vardan Akopyan 1988-ci ildən bu günə qədər Dağlıq Qarabağda erməni "lider"lərin konfliktlərindən, çəkişmələrindən, həbslərindən, qruplaşmalarından, bir-birlərinə qarşı terrorlarından hiyləgərliyi sayəsində özünü "qoruya" bilib. İstənilən vəziyyətdə simasını dəyişməyi, özünə sərf edəcək mövqeni seçməyi, mənafeyinə uyğun əyilməyi bacaran Akopyan bu illər ərzində hamıya "yararlı" olmağa müvəffəq olub.

Bütün bunlara görə də özünü Qarabağ ermənilərinin əsgəri sayan Vardan Akopyan "Qaregin Njde" medalı ilə təltif olunub.

**- "Qaregin Njde" medalı?**

-Bəli, 2001-ci ildə qarabağlı qatil erməni, prezident Köçaryan Ermənistanın dövlət mükafatlarının siyahısına daha bir mükafat əlavə etdi. Köçəryan özünün də qidalandığı faşist ideologiyasın daşıyıcısı və hərbi cinayətkarın adı ilə bağlı "Qaregin Njde" medalı idi. Faşist təfəkkürlü Ermənistan rəhbərliyinin bu adda mükafat təsis etməsi heç də təəccüblü deyil. Təəccüblü olan başqa məsələdir. Mükafatın nizamnaməsində konkret olaraq qeyd edilib ki, medal Ermənistan silahlı qüvvələrində xüsusi xidmətləri olan zabit və gizirlərə təqdim olunur.

Belə olan halda qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma yazıçılar ittifaqının sədri Vardan Akopyan bu medalla necə təltif olunub?

Əlbəttə, ermənilər bu məsələyə də çox asanlıqla don geyindiriblər, Vardan Akopyanın qələmini silah sayaraq onu Dağlıq Qarabağın "mərd əsgəri" kimi dəyərləndiriblər.Özünü Qarabağ ermənilərinin əsgəri sayan Vardan Akopyan "Qaregin Njde" medalı ilə təltif olunub.

2015-ci ildə qondarma "DQR"-in "yazıçılar ittifaqı"nın 5-ci qurultayı keçirilib. Vardan Akopyan "ittifaq"a yenidən sədr seçilib. Həmin qurultayda o, "DQR"-də ədəbi mühitn yüksək səviyyədə olduğunu vurğulayıb, "respublika"nın şair və yazıçılarına vətənpərvərlik mövzusuna daha çox yer vermələrini tövsiyə edib.

**-Öldü...)))**

- Bu torpağa, bu dövlətə xəyanət etdiyi üçün Allah onu bağışlamaz!

**-Maraqlı müsahibəyə görə, təşəkkür edirik!**

**Əntiqə Rəşid**

<u>*Aqil ABBAS*</u>

# FUTBOL OLMAYAN ÖLKƏDƏ HAMI FUTBOL PROFESSORU OLUB

***Tofiq Bəhramov stadionunda "Qarabağ" UEFA Kuboku uğrunda hansısa bir xarici komandanı qəbul edirdi. Xüsusi qonaqlar üçün ayrılmış bölmədə oturub oyunu izləyirdik. Burda əyləşənlərin də demək olar ki, hamısı keçmiş futbolçular, məşqçilər və sair və ilaxır idi. "Neftçi"nin "Neftçi" vaxtında ulduzlardan biri olmuş Füzuli Cavadovla yanaşı əyləşmişdik. Vaqif Cavadovun da Vaqif Cavadov vaxtı idi. "Qarabağ"ın gözünün işıqlarından biri idi. Bölmədə oturanlar futbolçulara, xüsusilə də Vaqif Cavadova çox nöqsan tuturdular: topu özündə çox saxlayır, vaxtında zərbə vurmur, Qurban Qurbanov filan oyunçunu əvəzləməlidi, taktikanı düzgün qurmayıb. Axırda Füzuli Cavadov dözmədi, qalxdı ayağa, üzünü hamıya tutub dedi:***

***- Burda hamı futbol professoru imiş ki...***



***Və gedib başqa bölmədə azarkeşlərlə bir yerdə oturdu.***

***Onun əsəbi halda dediyi bu sözləri heç vaxt unutmuram.***

***Bir rus siyasətçisinin də məşhur bir deyimini xatırlayıram: "Bu ölkədə hamı siyasəti, polis işini və futbolu çox gözəl bilir".***

***İndi bizdə də hamı futbol professorudu, siyasətçidi, amma siyasi partiyalar 5 min üzv tapa bilmirlər, qeydiyyatdan keçmək üçün.***

***Üç gündür baxıram bütün futbol "professorları" düşüb Qurban Qurbanovun üstünə, "Qarabağ"ı sağdan da söyürlər, soldan da, hamı da məsləhət verir, istefaya çağıranlar da var. Hətta utanmadan yazırlar ki, Qurban oyunu satıb və sairə... Kiminsə sifarişi ilə trollar tökülüb sosial şəbəkələrə.***

***Adı misli olub, misilsiz Azərbaycan top-top çempionatında (bəli, top-top çempionatı, uşaq vaxtı oynayırdıq ey, məktəbdə, məhlədə) az-çox futbol mədəniyyəti olan və Avropa futbol çempionatında Azərbaycanın üzünü ağardan Qurban Qurbanovu və "Qarabağ"ı ruhdan salmaq üçün bütün güclərini qoyublar ortaya.***

***Məqsəd birdir: "Qarabağ" komandasını necə dağıtmaq olar və Qurbanı bu komandadan necə uzaqlaşdırmaq olar ki, "Qarabağ" da düşsün "Səbail"in gününə.***

***"Gent"lə oyunda "Qarabağ" 120 dəqiqə dirəniş göstərdi və lotereyada bəxti gətirmədi. Necə xalqımızın "Poz-qazan"da bəxti gətirmədiyi kimi. Bu futboldu, qələbəsi də var, məğlubiyyəti də. Əsl azarkeş komandası uduzanda yanında olar. Mən inanmıram ki, Qurbana futbol dərsi keçənlər "Qarabağ"ın əsl azarkeşləridi. Bəlkə onların içində "Qarabağ"ın uduzması üçün nəzir deyənlər də olub.***

***Bütün bu cəhdlər Lobanovski kimi soyuqqanlı Qurban Qurbanovu hövsələdən çıxarmaq üçündü. Amma mən Xocanı yaxşı tanıyıram, onu təbdən çıxarmaq mümkün deyil, amma ruhdan salmaq mümkündü.***

***Azərbaycanın top-top çempionatına futbol mədəniyyəti gətirən Qurban Xoca, inanıram ki, belə şeylərə fikir verməyəcəksiz. Sizə və köhlən atlarınıza uğurlar arzulayıram. Yaxşı ki varsınız, Avropada üzümüzü ağ edirsiniz və edəcəksiniz də.***

***Baxıram, son zamanlar "Sabah"ın baş məşqçisi komandasına top-top yox, futbol oynadan Murad Musayevin də üstünə düşüblər. Hamı Qurban Qurbanov kimi soyuqqanlı ola bilməz. İndi Murad Musayev bir az emosionaldı, o da keçib gedər, futboldu da, adam özündən çıxır.***

***Bizə Qurban Qurbanov, Murad Musayev yox, bizə Foqts lazımdı, De Byazi lazımdı.***

***Nə isə. Sifarişlə işləyən trollar, Allah sizə insaf verməsin, çunki Allahın sizdən xəbəri yoxdur.***

<u>*Rüstəm Hacıyev*</u>

# Rusiya qəbuledilməz şərtlərini açıqladı



***Rusiyanın Çin Xalq Respublikasındakı səfiri İqor Morqulov, Çinin Global Times qəzetinə verdiyi müsahibədə bildirib ki, Ukraynada atəşkəsə nail olmaq üçün Rusiyanın təhlükəsizliyi və reallığı baxımından maraqları nəzərə alınmalıdır.***

***"Atəşin dayandırılması və münaqişənin sonlandırılması, biz həmişə qarşı tərəfi buna çağırırıq. Təbii ki, Rusiyanın ərazi bütövlüyü və onun qanuni təhlükəsizliyi nəzərə alınmaqla buna nail olmaq olar"- deyə səfir bildirib.***

***Morqulov sadəcə olaraq qanuni sərhədlər dedikdə, məhz hansı sərhədləri - beynəlxalq səviyyədə tanınan Rusiya sərhədlərini, yoxsa işğal etdiyi və sonradan öz ərazilərinə biləşdirdiyi əraziləri nəzırdə tutduğu barədə açıqlama verməyib. Yəni öz aləmində suala guya diplomatik cavab verdiyini düşünüb.***

***Diplomat qeyd edib ki, Rusiya heç zaman Ukrayna ilə danışıqlardan imtina etməyib və həm Kiyevlə, həm də onun "sponsorları ilə" danışıqlara başlamağa hazırdır. " Təbii ki, Rusiyanın köklü maraqları və hazırki reallıq nəzərə alınmaqla"- deyə Morqulov bildirib.***

***Hazırki reallıq deyəndə yəqin ki, diplomat işğal etdikləri əraziləri - bu da təxminən Ukraynanın yarısı deməkdir - artıq Rusiyanın qanuni əraziləri kimi başa düşür və ictimayyəti də buna inandırmağa çalışır.***

***"Hazırki vəziyyət danışıqlara başlamağa imkan vermir. Kiyev Vaşinqtondan altığı təlimatlarda yerinə yetirilməsi mümkün olmayan tələblər irəli sürür. ABŞ və onun NATO-dakı tərəfdaşlarının hərəkətləri vəziyyətin daha da gərginləşməsinə doğru aparır"- deyə səfir bildirir.***

***Rusiyslı səfirin sözlərindən belə çıxır ki, Ukrayna işğal edilmiş ərazilərindən imtina etməli, "reallıqla barışmalı", işğal edilmiş torpaqlarını azad etmək üçün döyüşməməlidir, yəni ağ bayraq qaldırıb Rusiyanın önündə diz çökməlidir.***

***Ukraynananın belə alçaldıcı təkliflərlə hansısa danışıqlara başlayacağı nəinki inandırıcı deyil, heç mümkün variant kimi də ağlabatan sayıla bilməz. Hazırda işğal edilmiş Ukrayna ərazilərində bir ildən artıqdır ki, qanlı döyüşlər gedir. Ukrayna hərbi qüvvələri cəbhənin bütün istiqamətlərində rus ordusuna aarşı ciddi müqavimət göstərir.***

***Diplomatların verdikləri, özlərinin də inanmadığı təkliflərin söz demək xatirinə olduğu hüç kimdə şünhə doğurmur. Artıq demək olar ki, bütün dünyanın qoşulduğu bu müharibənin tezliklə başa çatacağı inandırıcı görünmür. Görünən odur ki, bu müharıbə tərəflərin silah -sursatları bitməyənə qədər, yəni sonsuzluğa qədər davam edəcək.***

## Ərdəbildə etiraz aksiyası keçirildi

**Martın 2-si gecə saatlarında Ərdəbil şəhərinin bir neçə yerində vətəndaşlar etiraz aksiyaları keçiriblər.**

Ərdəbil sakinləri martın 1-də məktəblərdə 400 şagirdin zəhərlənməsinə etiraz ediblər.

Qadın və qızların daha çox fəal olduğu aksiyada Əli Xamenei və hökumət əleyhinə şüarlar səsləndirilib.



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Bakıda zəlzələ olsa...

### Yeni tikilmiş yüksək mərtəbəli binaların uçub- uçmayacağını bir Allah bilir!

**Qardaş Türkiyədə 7.7 bal gücündə baş vermiş zəlzələ bütün dünyaya bir örnək olmalıdır. Ən azından ona görə ki, o binalar standartlara uyğun və yüksək keyfiyyətli inşaat materiallarından tikilsəydi minlərlə ev uçmaz, 50 minə yaxın insan dünyasını dəyişməz, ondan da çox adam yaralanmazdı. Görünən odur ki, bu faciəvi hadisədən hələ də bir çoxları və o cümlədən Bakıda yüksək mərtəbəli binalar inşa edən şirkətlər elə bir nəticə çıxarmırlar.**

**Əgər yadınızdadırsa, 2000-ci ildə paytaxtımızda zəlzələ oldu. Onda indiki kimi Bakıda çoxlu sayda 40, 30, 16 mərtəbəli binalar inşa olunmamışdır. 10-15 16 mərtəbəli bina var idi və əksər binalar da sovet dövründə inşa edilmiş 9 və 5 mərtəbəli evlər idi. O evlərin heç biri zəlzələ zamanı uçmadı, Ən yaxşı halda bəzi binalar zədələndi. Mütəxəssislər də bunu onunla izah edirdilər ki, sovet dönəmində binaların tikintisinə, standartlara və inşaat materiallarının keyfiyyətinə xüsusi diqqət yetirilib. Binalar keyfiyyətli tikildiyi üçün həmin zəlzələyə davam gətirə bilib.**

**Bəs bu gün Bakıda vəziyyət necədir? Bax bu barədə heç də mütəxəssislər və ekspertlər birmənalı fikir səsləndirmirlər. Çoxmərtəbəli binaları inşa edən şirkətlər deyir ki, bizim tikdiyimiz evlər 8 bal gücündə zəlzələyə tab gətirə bilər. Amma ekspertlər isə bildirirlər ki, heç kəs öz ayranına turş demir. Çünki yüksək mərtəbəli binaların heç də hamısı keyfiyyətli inşaat materiallarından ucadılmayıb. Ona görə də əksər yüksək mərtəbəli binalar o zəlzələyə tab gətirib- gətirməyəcəyini zaman göstərəcək. Ancaq görünən odur ki, 10 il bundan qabaq 6-cı Paralelni küçəsində inşa edilmiş bina öz-özündən çökmüşdü. O binada çökmə zamanı ölən də var idi, xəsarət alan da. Amma xoşbəxtlikdən itki az olmuşdu. Sonradan məlum oldu ki, bina keyfiyyətsiz inşaat materiallarından tikilib.**

**Çox təəssüf ki, bu gün Bakının seysmik zonası olan yerlərində belə yüksək mərtəbəli binalar inşa edilir və inşa edilməkdədir. Məsələn, Yeni Günəşli yaşayış sahəsində 15-dən çox 16 mərtəbəli bina tikilib. Və bu gün də Yeni Günəşlinin ”D massivi”ndə ”Fatimeyi-Zəhra” məscidinin yanında və kərpic zavodunun 5 addımlığında 6 yüksək mərtəbəli binanın inşası davam eləyir. Xüsusən də ” Ana kür” Məzil Tikinti Kooperativi nə az- nə çox Yeni Günəşlidə dörd belə bina ucaldıb. Üstəlik də ikisini tikməyə başlayıb. Kooperativin sədri Vahid Abdullayev nə qanundan qorxur, nə də Allahdan. Düşünmürlər ki, belə seysmik zonada yüksək mərtəbəli bina tikmək nə dərəcədə təhlükəlidir. Ümumiyyətlə, aidiyyatı qurumlar, Bakıda yeni tikilən yüksək mərtəbəli binaların inşasına xüsusi diqqət yetirməli, bütün təhlükəsizlik tədbirlərini nəzərə almalı və istifadəyə verilən binaları qəbul edərkən, kimliyindən aslı olmayaraq, onlara güzəşt edilməməlidir.**

**Bunlar hamsı aydındır. Aydın olmayan odur ki, hətta 9 mərtəbəli binalarda belə sakinlər evlərin arasındakı beton hissələri dağıdaraq mənzili genişləndirmiş və tikintinin layihəsini kobud surətdə pozmuşdur. Bu isə hər hansı zəlzələ baş verərsə, binanın möhkəmliyini zəiflədir və onun uçma təhlükəsini daha da artırır.**

**Allah eləsin Bakıda zəlzələ baş verməsin. Əgər baş versə, kortəbii surətdə tikilmiş binaların uçub- uçmayacağına görəsən kim zəmanət verəcək?! Bax onda da faciə baş versə, Türkiyədəki kimi keyfiyyətsiz bina tikənlər yaxalarını dövlətin və xalqın əlindən qurtara bilməyəcəklər.**

## Xanım sürücü qəza törətdi



**Ümumiyyətlə, qəzalar həmişə olur. Amma son vaxtlar paytaxtımızda xanım sürücülərin iştirakı ilə baş verən yol- nəqliyyat hadisələri xeyli çoxalıb. Təbii ki, bu da həm yol polisini, həm də ictimaiyyəti narahat etməyə bilməz. Bu günlərdə isə Bakının mərkəzi küçələrinin birində xanım sürücünün ehtiyatsızlığı üzündən zəncirvari qəza baş verib. Məlum olub ki, sükan arxasında əyləşmiş xanım sürücü yol hərəkəti qaydasını pozub və ara məsafəsi saxlamayıb, nəqliyyat vasitəsi üstəlik də yüksək sürətlə idarə olunub.**

Aydındır ki, qaydaların bu cür kobud surətdə pozulması digər sürücülərin avtomobillərinə böyük ziyan vurub.

Bir faktı deyə bilərik ki, sürücünün cinsi olmur. Yəni o, sükan arxasındadırsa, kişi və qadın olmağından aslı olmayaraq məsuliyyət daşıyır. Bu məsuliyyət isə unudulanda qəzalar baş verir, digər sürücülərə maddi ziyan dəyir və nəticədə yol hərəkəti qaydalarının kobud sürətdə pozulması hadisəsi qeydə alınır. Ona görə də bütün sürücülər sükan arxasında diqqətli olmalı, mövcud qanunlara əməl etməlidir.

## Yubiley yaxınlaşır



**May ayında Mədəniyyət və İncəsənət Universitetinin yaradılmasının 100 illiyi tamam olur. Bu barədə əməkdaşımıza universitetin professoru, kultrologiya elmləri doktoru İlqar Hüseynov məlumat verib.**

Professor bildirib ki, mayın 26-da yubiley münasibəti ilə çox möhtəşəm konforans olacaq və həmin konfransada respublikamızın tanınmış alimləri, ziyalıları iştirak edəcəklər. Professsor İlqar Hüseynov onu da bildirib ki, çalışdığı ali məktəb yubileyə çox böyük həvəslə hazırlaşır. Onların orjinal və möhtəşəm proqramları var. Təbii ki, hər bir ali məktəbin öz tarixi var. Mədəniyyət və İncəsənət Universisteti də fəaliyyət göstərdiyi bu 100 ildə tariximizə, mədəniyyətimizə və incəsənətimizə çox böyük ziyalılar, şəxsiyyətlər bəxş edib. O böyük şəxsiyyətlərlə bu gün Azərbaycan xalqı fəxr edir və qürur duyur. Onların yolunu isə mədəniyyətimizə və incəsənətimizə töhfə verən digər böyük şəxsiyyətlər bu gün şərəflə davam etdirirlər.

**Emil FAİQOĞLU**

## Avropa, Asiya daha təhlükəsizdir

**Meksikanın qərbində yerləşən eyniadlı ştatın paytaxtı Kolima 2022-ci ildə dünyanın ən təhlükəli şəhəri olub.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, Meksikanın ”İctimai Təhlükəsizlik və Cinayət Mühakiməsi üzrə Mülki Şura” qeyri-hökumət təşkilatının ekspertləri son reytinqlərində belə qənaətə gəliblər. Reytinqi tərtib edənlərin fikrincə, dünyanın ən təhlükəli 50 şəhərindən 17-si Meksikada, 10-u Braziliyada yerləşir.ABŞ, Kolumbiya, Cənubi Afrika və Honduras ölkələri müvafiq olaraq 7, 6, 4 və 2 yaşayış məntəqələri ilə siyahıda təmsil olunub. Avropa və Asiyanın böyük şəhərləri siyahıya daxil edilməyib.

**Emin**

# Polis intihar etmək istəyən şəxsi xilas etdi

**Son vaxtlar ölkəmizdə intihar hadisələrinin sayı xeyli çoxalıb. Bunun da obyektiv və subyektiv səbəbləri var. Bir çox insanların həyat tərzinin ağırlığı, iqtisadi çətinlik və digər amillər onların psixoloji durumunu pozub. İradəsi möhkəm olan və özünə güvənən adamların çoxu ən çətin stresslər keçirəndə belə, özlərini idarə etməyi bacarırlar. Amma iradəcə zəif və psixoloji durumunda probelmi olan və çətinliklər məngənəsində sıxılan adamlar çıxış yolunu intiharda görürlər.**

Müqəddəs kitabımız olan ”Qurani-Kərim”də buyurulur ki, intihar ən böyük günahlardan biridir. Allahın verdiyi canı yalnız Allah ala bilər. Əgər kimsə həyatına qəsd etməklə intihar edirsə, o, çox böyük günah sahibidir.

Təbii ki, intihar hadisələrinin qarşısını heç də həmişə almaq mümkün olmayıb. Amma Azərbyacan polisi ”Koroğlu” metrosunun yanındakı körpünün üstündə və eləcə də digər yüksəskliklərdə özlərinə qəsd etmək istəyən insanların həyatını xilas etməyi bacarıb. Bir sözlə, polisin gücü ilə neçə- neçə insanların həyatnı xilas etmək mümkün olub.

Bu yaxınlarda isə Yasamal rayonu ərazisindəki Moskva prospekti bina 75-in damında intihar etmək istəyən 1986-cı il təvəllüdlü Həsən Əliqulu oğlu Kərimovun həyatını polislər çətinliklə də olsa xilas etməyi bacarıblar. Belə ki. Həsən Kərimov ailə problem ilə əlaqədar olaraq, həmin binanın damına çıxıb və özünü yerə atmaq istəyib. Bu vaxt həmin ərazidə xidmət edən Çevik Polis Alayının 6-cı patrul bölüyünün əməkdaşı, polis leytenantı Hüseyn Qurbanlı bu anı diqqətdən qaçırmayıb. Polisin peşəkarlığı, çevikliyi və ekstrimal şəraitdə hadisəyə dərhal reaksiya verməsi öz müsbət nəticəsini göstərib. Belə ki, bir göz qırpımında Hüseyn Qurbanlı binanın damına qalxıb, intihar etmək istəyən Həsən Kərimovu şirin dilə tutub, onun psixoloji durumuna və çətin vəziyyətinə uyğun olaraq, daha bir orjinal metodla onunla danışığa girib. İlk dəqiqələrdə intihar etmək istəyən Həsən Kərimovu fikrindən daşındırmaq mümkün olmayıb. Amma yenə də H.Qurbanlı onun ”boş damarını” tutub, psixoloji durumunu düzgün dəyərləndirib və Həsəni inandırmağa nail olub. 10 dəqiqəlik söhbət ərzində Həsən Kərimov fikrindən daşınıb. H.Qurbanlının və digər polis əməkdaşlarının köməkliyi ilə o, damdan düşürdülərək Yasamal Rayon Polis İdarəsinin 29-cu Polis Bölməsinə təhfil verilib.









Həmin anları xatırlayan Hüseyn Qurbanlı bildirir ki, intihar etmək istəyən Həsən Kərimov çox mürəkkəb durumda idi. O, hər an damdan özünü yerə ata bilərdi. Mən də düşündüm ki, onunla söhbət etdiyim hər dəqiqə qızıl vaxtdır. Bir dəqiqə ləngimək, yaxud da onun əsəblərinə toxunmaq intiharın baş verməsi demək idi. Bütün bunları nəzərə alaraq, var qüvvəmlə çalışdım. Allaha şükürlər olsun ki, onun həyatını xilas etdim. Mən həmişə xalqıma, dövlətimə və prezidentimə sədaqətli olmuşam. Düşünmüşəm ki, əgər dövlət mənə bu vəzifəni etibar edibsə, mən də onu doğrultmalıyam.

Çevik Polis Alayının 6-cı Paturl Bölüyünün komandiri, polis polkovnik- leytenantı Azər Seyidov bildirir ki, hər səhər növbəni qəbul edəndə əməkdaşlarımızı təlimatlandırır, onlara tövsiyyə edirik ki, çətin vəziyyətdə olan vətəndaşlarımıza kömək etsinlər. Və dəfələrlə bölüyümüzün əməkdaşları sükan arxasında huşunu itirən sürücüyə, yolda özünü pis hiss edən insana və eləcə də psixloji durumu mürəkkəb olan adamlara lazımi köməklikləri göstərsinlər. Əlbəttə, polisin vəzifəsi ictimai asayişi qorumaq və cinayətkarlığa qarşı mübarizə aparmaqdır. Və eyni zamanda biz mürəkkəb durumda olan vətəndaşlarımızı da çətin vəziyyətdən xilas edib və onlara lazımi köməklik göstəririk. Mən bir daha sevinirəm ki, bölüyümüzdə bax belə Hüseyn Qurbanov kimi vətənpərvər, peşəkar polis zabitləri var.

**Azərbayacn polisi həmişə xalqımıza, dövlətimizə və millətimizə şərəflə xidmət edib. Onlar Azərbayacanın müstəqilliyi yolunda və eləcə də Birinci və İkinci Qarabağ savaşında çox böyük qəhrəmanlıqlar göstəriblər. Bu savaşda 100-lərlə Azərbyacan polisi şəhid olub, ondan da çox əməkdaşı yaralanıb. Bütün bunlar Azərbyacan polisinin dövlətə və vətinimizə nə qədər sədaqətli olduğunu göstərir. Bu gün də Azərbaycan polisi ictimai əsayişin qorunmasında və cinayətkarlığa qarşı mübarizədə var qüvvə və bacarığını əsirgəmir. Çünki onlar bu xalqın, bu millətin vətənpərvər övladlarıdır.**

**Faiq QİSMƏTOĞLU**

**(əvvəli ötən sayımızda)**

### *“Saqqallı erməni palçılqı batinkasını ağzıma salıb dedi ki, torpaq istəyirdiniz, ye indi”*

”Kameramın qapısı yenə açıldı və içəri beş nəfər əli silahlı, qara paltarlı erməni girdi. Onlardan biri mənə yaxınlaşıb avtomatın qundağıyla vurmağa başladı. Qalan dörd nəfər də ona qoşuldu və məni yenə ölümünə nı zorla ağzıma salıb dedi ki, ”sizə torpaq lazımdı, ye bu torpağı, türk!”. Nəfəsim kəsilirdi və artıq nəfəs ala bilmirdim. Onun ayaqları altında çırpınırdım. Ətrafdakılar isə mənə baxaraq qəhqəhə çəkib gülürdülər. Soruşdular ki, Əlifi, Elmanı gördünmü? Dedim ki, bilmirəm, görmədim. Ona görə də mənə çox əziyyət verirdilər. Daha sonra onlar çıxıb getdilər. Burnumun isə qanı kəsmirdi. Sınıq burnuma zərbələr vurub daha da pis vəziyyətə salmışdılar”.

gəldi və sərxoş erməninin yaxasından tutub kameradan çıxardı. Otağın kamerası yenə açıldı və içəri əli silahlı bir nəfər gəldi.

O məni yanına çağırıb türkcə adımı soruşdu. Ona başa düşmədiyimi dedim.

O isə dedi ki, ”Erməniyəm və Türkiyədə yaşayıram. Siz türklərin kökünü kəsməyə gəlmişəm”. O mənə dedi ki, ”üzünü divara çevirib əllərini boynuna qoy ”. Fikirləşdim ki, artıq sonum çatdı, məni güllələyəcək. Amma kamerama daha bir nəfər daxil oldu və isidək, soba istidir”. Karo qoymadı və dedi ki, ”bu günlük bəsdir, soba sabaha qalsın”. Ardıyca qəhqəhə çəkib güldürlər. Onlardan birinin əlində zəncir var idi və o zəncirlə məni döyməyə başladı. Qəfildən Vitaliy içəri girdi və Karoya dedi ki, ”yenə bu qızı döydün? Çox döymə ölə bilər. Bu qıza su verib kamerasına aparın”. Su içdikdən sonra erməni hərbçilərdən biri məni kamerama apardı. Kameramda qalanda yenə kişi əsirlərimizin bağırtı səsləri gəlirdi”.

# Əsir qadın: "Ermənilər təpiklə yaralı ayağıma vururdular..."

döydülər. İnsan nə qədər döyülər, təhqir olunar. Bu qədər işgəncələrə baxmayaraq ölmürdüm. Amma ölmək istəyirdim, çünki taqətim qalmamışdı. Onlar çıxıb getdilər və məni Vitali Balasanyanın otağına apardılar. Vitali dedi ki, ”sizin tərəfdən xəbər gəlib səni azad etmək istəyirlər”. Vitalinin yanında bir erməni oturmuşdu mənə dedi ki, ”Bakıda evim-eşiyim, çox gözəl həyatım var idi. İndi hamısı məhv oldu”. O əsəbi halda ayağa qalxıb məni döyməyə başladı. Daha sonra koridora çıxdı. Məni yenə kamerama qaytardılar. Qonşu kameradan isə kişi əsirlərimizin bağırtı səsi gəlirdi. Bu səslərə dözmək olmurdu, amma ürəyi daş olan düşmənin heç vecinə də deyildi. Burda qadın əsirlərə Karo, kişi əsirlərə isə Monte Melkonyan işgəncə verirdi”.





### *“Bıçağı çıxarıb boğazıma söykədi...”*

”Kameramın qapısı növbəti dəfə açıldı, içəri Karo və yanında daha üç nəfər daxil oldu. Karo onlara mənim rabitəçi olduğumu deyəndən sonra ermənilərdən biri bıçağı çıxarıb boğazıma söykədi. Amma Karo ona nəsə deyəndən sonra adam geri çəkildi. İçlərində bir nəfər qara saqqallı, qara geyimli adam var idi. Dedi ki, ”hamınızın kökünü kəsəcəyik, it küçüyü türklər. Aç ağzını itin qızı!”. O bütün bunları bağıraraq deyirdi və mən küncə sıxıldım. O isə palçıqlı batinkası-

### *“Dedi ki, necə sərxoş olmuşamsa, səni burda görməmişəm...”*

”Hava qaralırdı və mən bədənimdəki şiddətli ağrılara baxmayaraq səsimi çıxarmırdım. Deyirdim ki, səsim çıxsa, yenə gəlib məni döyərlər. Gecənin zülmətində kameramın qapısı açıldı və iki nəfər içri daxil oldu. Onlardan bir nəfər kamerada yıxılıb qaldı, o biri isə çıxıb getdi. Gecə səhərə qədər sərxoş adam xoruldamağa başladı. Onun kim olduğunu bilmirdim.

Elə bildim ki, bizim hərbçilərdəndir. Səhər açılanda isə o məni görəndə təəccübləndi. Dedi ki, ”necə sərxoş olmuşamsa, səni burda görməmişəm. Yanıma gəl, türk qızı, biz az söhbət edək. Qorxma, sənə işgəncə verməyəcəm”.

O bunları deyən vaxtı qəfildən qışqırdım. Yəqin ki, bu artıq qorxudan idi. Səsimə növbətçi o məni öldürməyə qoymadı.

Türkiyədən gələn erməni isə məni saçımdan tutaraq yerə çırpdı. Daha sonra onlar çıxıb getdilər”.

### *“Karo barmaqlarımı qapının arasına qoyub sıxmağa başladı...”*

”Kameramın qapısı yenı açıldı içəri bir hündür, bir də qısa boylu erməni girdi. Onlardan biri mənim adımı, rabitəçi olduğumu soruşdu. Dedi ki, ”dünən Xankəndində bir qadın və dörd kişi öldürdüm. Biz Xocalını məhv etdik. Burdan da irəli gedib Şuşa, Ağdam və Kəlbəcəri də alacağıq. Ağdamdan sonra isə Bakıya qədər yolumuz var”. O bu sözləri deyəndən sonra yanındakı erməniyə dedi ki, ”bu qızın əllərinə bax əgər, soyuqdursa, isit”. Bu vaxt Karo içəri daxil oldu və məni götürüb onlarla birlikdə otaqlarına gətirdi. Karo barmaqlarımı qapının arasına qoyub sıxmağa başladı. Mən isə səsimi çıxara bilmirdim, amma gözümdən yaş axırdı. Ancaq ”uff” deyə zarıyırdım. Ermənilərdən biri Karoya dedi ki, ”bəlkə onu sobada da

### *“Ermənilərdən biri onların qollarına, dizlərinə atəş açırdı ki...”*

”Bir nəfər gəlib məni yenə Karonun otağına apardı. Orda daha bir nəfər erməni var idi. Karo məndən soruşdu ki, ”sən heç müharibə filmi görmüsən?”. Dedim ki, bilmirəm. Bu vaxt 12 nəfər kişi əsirlərimizi içəri gətirib döyməyə başladılar. Mən də üzümü tutub ağlamağa başladım. Ermənilərdən biri dedi ki, ”əgər bir də üzünü tutsan, səni də onların sırasına qatacağıq”. Əsirlərimiz tanınmaz halda idi. Ermənilərdən biri onların qollarına, dizlərinə atəş açırdı ki, ölməsinlər. Otağın divarları qan idi. O döyülənlərin sırasında qardaşım Elşadı görmədiyim üçün elə düşünürdüm ki, onu öldürüblər. Nəhayət onlar yorulub dayandılar. Otaqdakı əsirlər qanın içindəydi və sürüyərək onları koridora çıxardılar. Karo isə məni stuldan qaldırıb dedi ki, ”küncdə dayan”. Sonra mənə dedi ki, ”yerə çök!”. Yerə çökdüm və qabağıma sümük atıb dedi ki, ”götür o sümüyü it kimi gəmir!”. Üzümü yana çevirib ağlamağa başladım və Karo ayağa qalxıb məni döyməyə başladı. Dedi ki, ”bu qız nə qədər döyülür, amma ölmür. Axırda mən bunu öz əllərimlə öldürəcəm”. Karo daha sonra məni saçımdan tutub sürüyə-sürüyə kamerama gətirib atdı. Taqətsiz halda yerdə qaldım”.

**Vasif Əlihüseyn**

# Finlandiya Rusiya ilə sərhədini hasara alır

**Finlandiya ölkənin şərqində Rusiya sərhədində yerləşən İmatra keçid məntəqəsinin hər iki tərəfində üç kilometr uzunluğunda hasarın tikintisinə başlanıldığını açıqlayıb.**

Finlandiya Sərhəd Mühafizəsi tərəfindən edilən açıqlamada, söz mövzusu maneə tətbiqinin pilot mərhələdə olduğu bildirilib.

Bu gün meşələrin təmizlənməsi ilə işlərə başlanıldığı bildirilən açıqlamada İmatra keçid məntəqəsinin hər iki tərəfində üç kilometr uzunluğunda hasarın tikintisinə başlanılıb. Yol tikintisinə və hasarın quraşdırılması-



na mart ayında başlanacaq. Daha sonra texniki nəzarət sistemi qurulacaq. Pilotun iyunun sonunda başa çatdırılması gözlənilir”.

Açıqlamada qeyd olunub ki, sözügedən layihə üçün hökumət tərəfindən ayrılan vəsait 70 kilometrlik sədd üçün istifadə olunacaq. (AA)

**Emin**

Emin Piri

# ÖLƏN SEVGİLƏR, SEVGİLİLƏR



***Son zamanlar düşündüyüm bir nüans var. Sevgilisi, nişanlısı ölən insanlar...Yoldaşı vəfat edən, Şəhid xanımları heç olmasa ürəkdən deyib ağlaya bilirlər. Onun yaxınlarına, övladlarına sarılıb ağlaya bilmək də xoşbəxtlikdi nə qədər qəddar səslənsə də.***

***Bəs, heç ailə qurmadan, bu xəbərlə gəlinliyi boş qalan sevgililər, nişanlılar?***

***Ən çox üzüldüyüm insanlardandılar. Tanımasam da, bilməsəm də...***

***Bilirəm, varlar. Hardasa xatirələrə baş qoyub için-için ağlayırlar...***

***Hamıya gülərək, özünü, qürurunu sındırmadan ürəyində dərdlərinə yoldaş olaraq.***

***Nə kimsəylə tam olaraq bölüşə bilmir, bəlkə də ürəkdən ağlaya da bilmirlər. O birilər yaxınlarına, övladlarına söykənərək dərdlərini gözlərindən axıda bilərlər. Bəs, onlar?***

***Başlarını söykəyəcəyi bir çiyin, ya çiyinlər deyil hansısa xatirələr olur ancaq. Xatirələrə nə qədər baş qoyub ağlamaq olar?***

***Günahlarını almayım, kişilər əsas çoxluq olaraq bu ölümlərə uzun müddət dözmür, unudur, yeni həyata dönür. Xanımlarsa yox...***

***Müharibə vaxtı da bu diqqətimi çəkdi. Subay şəhid olanlar. Görəsən, indi hansı qız hamıdan gizlin və illərlə için-için ağlayacaq? Hamının xoşbəxt gördüyü, bəxtəvərlik oxuduğu, dərd sarıdan bolluq yaşayan ”bəxtəvərlər”.***

***2021-ci ilin yanvar ayı idi. Yeni tərxis olmuşdum. Bir xanım yazaraq, döyüş yolu eyni istiqamət olan şəhid zabiti soruşdu. Məlum oldu ki, sevgilisiymiş. Ağlayırdı, amma kimsəylə bölüşə bilmirdi. İlk dəfə onda kiminsə sevgilisini itirməsinə ağlamışdım. Qızın psixoloji problemləri yaranmışdı.***

***Sonrasa bu yaxınlarda bir xanımı bildim. Üzü gülən, ”bəxtəvər” insan. İnsan nə qədər dərdlərin acığına gülməyi bacararmış?!***

***Xeyr, acımıram, amma bilmirəm niyəsə bu hadisələr daha çox toxunur mənə.Son vaxtlar ölən sevgilərə, sevgililərə ağlayıram ancaq. Hamının ağladığına deyil, daha çox belə ağlaya bilirəm.***

***Mənə elə gəlir ən böyük əzabı onlar çəkir. Əzab, dərd gizli olanda daha ağır və dəhşətli olur...***

***Bəlkə də kimsə indi də ölmüş sevgiyə ağlayır...***

## Azərbaycanın Türkiyəyə dəstəyi ictimai rəydə

**Sosial Tədqiqatlar Mərkəzi Türkiyənin 11 şəhərində humanitar fəlakətlərə yol açmış zəlzələ hadisəsindən irəli gələrək, Azərbaycanda bu kimi fövqəladə hallara qarşı mümkün risklərin, ictimai davranış və mühakimələrin öyrənilməsi, eyni zamanda proqnozlaşdırılması məqsədilə rəy sorğuları keçirib.**

Sorğu çərçivəsində Türkiyədə baş verən fəlakətin ayrı-ayrı aspektlərinə, o cümlədən Azərbaycan tərəfindən bu istiqamət göstərilən dəstəyə də ictimai münasibət öyrənilib.

Sorğuda iştirak edənlərin mütləq əksəriyyəti Azərbaycan xalqının və dövlətinin Türkiyəyə dəstəyini müsbət xarakterizə edib. Belə ki, iştirakçıların 99%-i Azərbaycanın bütün imkanları ilə Türkiyənin yanında olduğunu bildirib. Onların cəmi 1%-i Azərbaycanın Türkiyəyə yetərli dəstək göstərmədiyi mövqeyini bölüşüb.

Sorğunun sahə işi 11 fevral - 14 fevral 2023-cü il tarixində icra olunub. Sorğuda könüllülük prinsipi əsasında 18 yaşından yuxarı 384 respondent iştirak edib. Sorğular telefonla müsahibə formasında aparılıb. Sorğu ölkənin üç böyük şəhərində - Bakı, Sumqayıt və Gəncə şəhərlərində yalnız bina evlərində yaşayan şəxslər arasında keçirilib.

**Eminquey**

## Abramyanın ümidsizliyi: "Laçın dəhlizində nəzarət-buraxılış məntəqələri..."

**Yadınızdadırsa, hələ 2021-ci ilin oktyabrında Ermənistanın ”Şərəfim var” fraksiyasından olan deputatı Tiqran Abramyan dedi ki, Qarabağ məsələsi indiki hökumət üçün bağlıdır: ”Hökumətin fərqli nümayəndələri açıq mətnlə deyirlər ki, onlar Qarabağın təhlükəsizliyi məsələləri ilə məşğul olmurlar, bu mövzu Rusiyanın səlahiyyətindədir. Bu nə səhv, nə də yanlış sözdür. Onlar aydın şəkildə deyirlər ki, Qarabağ mövzusu onlar üçün bağlıdır”.**

Adalet.az xəbər verir ki, Abramyan ötən gün - fevralın 28-də Milli Assambleyada jurnalistlərlə söhbətində Laçın dəhlizi bağlı suallara cavab verib.O, jurnalistlərə bəyan edib ki, Laçın dəhlizində nəzarət-buraxılış məntəqələri məsələsinin gündəmdən çıxarılacağına heç bir təminat görmür:”Rusiya Federasiyası xarici işlər nazirinin Bakıya səfəri Laçın dəhlizi ”böhran”ı, Ermənistan - Azərbaycan münasibətləri və regional hadisələr kontekstində maraq doğurub. Lavrovun Bakıdakı bəyanatlarına və xüsusən dəhlizdə nəzarət-buraxılış məntəqəsinin olmamasına nə qədər diqqət yetirilsə də, Azərbaycanın 2020-ci ilin müharibədən sonrakı davranışını xatırlamamaq çətindir”. Müxalifətçi deputatın sözlərinə görə, Azərbaycan noyabrın 9-da üçtərəfli bəyannaməni çox seçmə şəkildə həyata keçirir və uzun müddətdir ki, sənədin müddəalarına əməl olunmasına inam yoxdur: ”Deməli, mən dəhlizdə keçid məntəqələri məsələsinin gündəmdən çıxarılacağına heç bir təminat görmürəm. Xüsusən də Azərbaycan müxtəlif formalarda bu məsələdə israr etməkdə davam edir”. Abramyan bir nüansı da soydaşlarına hüznlə bildirib: ”Dəhlizin bağlanması Azərbaycanın taktiki gedişidir və onun altında kifayət qədər mürəkkəb çoxmərhələli sxemlər qoyulub. Erməni tərəfi Azərbaycan oyununun qaydaları sahəsinə nə qədər çox girsə, bu, bizim üçün Artsaxın mümkün kapitulyasiyasına bir o qədər yaxın olacaq”. Qeyd edək ki, erməni siyasətçini hüznlü açıqlamasına bir səbəb də hələ Xankəndi- Laçın yolunda ekoetirazçıların aksiyasından bir həftə əvvəl belə bir proqnoz vermişdi. Demişdi ki, Azərbaycanın Ermənistanı Qarabağla birləşdirən dəhlizə nəzarət etmək cəhdləri kifayət qədər mürəkkəb vəziyyət yaradıb:”Azərbaycan Ermənistandan Qarabağa və geriyə yük daşımalarının həyata keçirilməsinə ən azı nəzarət funksiyasını əldə etmək üçün ciddi çalışır. Bunun Rusiya tərəfi ilə birgə, yoxsa başqa formatda həyata keçirilməsi önəmli deyil. Bu addım Ermənistan və Qarabağın ”təhlükəsizlik sisteminə” böyük zərbə olacaq. Bu, Qarabağın tamamilə Azərbaycanın nəzarətinə keçməsi üçün böyük addımdır. Azərbaycan Ermənistan hökumətinin susması ilə Qarabağa təzyiqləri artırır və bizim üçün arzuolunmaz prosesləri sürətləndirir”.



***P.S. Ötən ilin 12 dekabrında proqnozları düz çıxan Tiqran Abramyanın bu dəfə ki, proqnozları da gerçəkləşəcəyinə şübhəniz olmasın!***

**Əntiqə Rəşid**

# Daşınmaz əşyaların kirayə və icarəyə verilməsinə dair müqavilələrin hüquqi rejimi



*Əlixan Şirvanov,*
*Şirvan şəhəri 1saylı Notariat Ofisinin xüsusi notariusi*

**Ölkəmizdə mülki dövriyyənin və bazar iqtisadiyyatının inkişafı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin əsas vasitələrindən olan daşınmaz əşyalarla bağlı mülki hüquq münasibətlərinin daha da genişlənməsi ilə nəticələnmişdir ki, bu da öz növbəsində mülki qanunvericiliyin təkmilləşməsini labüd etmişdir.**

Daşınmaz əşyalar haqqında danışarkən öncədən daha geniş bir institutun - əmlakın tərkibini müəyyən etməliyik. Əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin toplusudur. Göründüyü kimi əmlak ideal bir anlayış olaraq heç də konkret bir əşyanı nəzərdə tutmur. Onun tərkibinə şəxsə məxsus əşyalarla yanaşı qeyri-maddi əmlak nemətləri daxildir. Fiziki obyektlər, pullar və sənədli qiymətli kağızlar əşya sayılır.

Mülkiyyətçilər özlərinə məxsus daşınmaz əşyaları digər şəxslərin istifadəsinə müqavilələr əsasında verməklə bu əşyalara dair hüquqlarının təmin olunmasına nail olurlar. Belə ki, müqavilə bağlandığı andan hər iki tərəf üçün hüquqlar ilə yanaşı vəzifələr də yaradır. Demək olar ki, müqavilənin müddəaları müqavilə tərəfləri üçün qanun qədər məcburi xarakterə malikdir. Hüquqlar müqavilədən irəli gələn vəzifələrin mütləq icrasını tələb edir. Vəzifələrin yerinə yetirilməməsi digər müqavilə tərəfinin hüquqlarının pozulması ilə nəticələnir və bunun nəticəsində dəymiş ziyanın ödənilməsi məsələsi qarşılıqlı razılıqla, bu olmadıqda məhkəmə qaydasında həyata keçirilir. Ona görə də müqavilə bağlayan zaman tərəflər bütün şərtlərlə diqqətlə tanış olmalı, bu şərtlərin öz maraqlarına uyğunluğunu dərindən təhlil etməlidir.

İstifadə hüquqlarının digər şəxslərə verilməsinin mülki dövriyyədə geniş yayılmış hüquqi yolları kirayə və icarə müqavilələri konstruksiyasıdır. Əmlak kirayəsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 33-cü fəslində təsbit olunmuşdur. Əmlak kirayəsi müqaviləsinə görə, kirayəyə verən əşyanı kirayəçinin istifadəsinə verməyi, kirayəçi isə bunun üçün kirayəyə verənə kirayə haqqı ödəməyi öhdəsinə götürür.

Kirayə müqaviləsinin cəmi iki elementi onun mövcüdluğunu təmin edir: əşyanın istifadəyə verilməsi və bunun əvəzində kirayə haqqının ödənilməsi.

Eramızdan əvvəl mövcud olmuş Qədim Roma xüsusi hüququnda alqı-satqı ilə kirayə müqavilələrinin yaxın olduğu qeyd edilirdi. Tanınmış Roma hüquqşünası Qay qeyd edirdi ki, alqı-satqı müqaviləsinin etibarlı olması üçün əşyanın satış qiyməti (pretium) razılaşdırılmalı idi. Bu qayda kirayəyə də aid edilirdi. Kirayə haqqı nəzərdə tutulmadıqda kirayə müqaviləsi etibarsız hesab edilirdi.

Bununla yanaşı, kirayə müqaviləsində bu elementlərin həyata keçirilməsi üçün müəyyən şərtlərin razılaşdırılması və müqavilədə əks olunması müqavilə tərəflərinin hüquqları ilə bağlı hər hansı bir anlaşılmazlığı aradan qaldırır.

Kirayənin predmeti əvəzedilməz aşyalardır, yəni başqa əşyalardan yalnız özlərinə xas əlamətlərə görə ayrılmış fərdi-müəyyən əşyalar. Belə ki, kirayəçi istifadəyə götürdüyü əşyanı qaytarmaq vəzifəsini daşıyır.Bu vəzifə olmasa idi kirayə müqaviləsinin mahiyyəti dəyişərdi.

Qanunvericilikdə kirayə müqavisəsi üzrə kirayə verənin məsuliyyəti müəyyənləşdirilmişdir. Bunardan aşağıdakıları qeyd edə bilərik: kirayəyə verilən əşya kirayəçinin istifadəsi üçün yararlı vəziyyətdə olmalıdır; kirayəyə verilmiş əşya əmlak kirayəsi müqaviləsi ilə qarantiya verilmiş xassələrə malik olmalıdır; üçüncü şəxslərin hər hansı hüquqları və ya iddiaları kirayəyə verilmiş əşyanın müqavilədə nəzərdə tutulan istifadəsinə mane olmamalı və ya bu istifadəni istisna etməməlidir; yaşayış otağı və ya adamların olması üçün nəzərdə tutulan digər otaq həmişə elə vəziyyətdə olmalıdır ki, ondan istifadə istifadəçilərin həyatına və sağlamlığına vicdanlı kirayəyə verən üçün aşkar təhlükələr törənməsi ilə bağlı olmasın.

Yaşayış sahəsinin kirayəyə verilməsi üzrə müqavilənin notariat qaydasında təsdiqi zamanı həmin sahədə mülkiyyətçinin qeydiyyatda olmaqla yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərinin yazılı razılığının əldə edilməsi qanunvericiliklə tələb olunur. Belə ki, bu sahənin kirayə verilməsi ailə üzvlərinin istifadə hüquqlarına xələl gətirməməlidir.

Qanunvericilik kirayə verənin hüquqlarının qorunması ilə bağlı müəyyən müddəaları nəzərdə tutmuşdur. Məsələn, əgər kirayəçi və ya onun kirayəyə götürdüyü əşyanı istifadəyə verdiyi hər hansı digər şəxs kirayəyə verənin xəbərdarlığına baxmayaraq müqaviləyə uyğun olmayan və kirayəyə verənin hüquqlarını əhəmiyyətli dərəcədə pozan istifadəni davam etdirirsə, o cümlədən əşyanı üçüncü şəxsin qeyri-hüquqi istifadəsində saxlayırsa və ya təhlükəyə məruz qoyursa, bununla da özünün vicdanlı kirayəçi vəzifələrini pozursa, kirayəyə verən kirayə müqaviləsini xəbərdarlıq müddətini gözləmədən ləğv edə bilər. Kirayəçi müqavilənin ləğvinə dair bildiriş vermək əvəzinə neqator iddiası da irəli sürə bilər.

Kirayəyə verən xəbərdarlıq müddətini gözləmədən kirayə müqaviləsini aşağıdakı hallarda ləğv edə bilər: kirayəçi iki ardıcıl müddət üçün kirayə haqqının və ya onun xeyli hissəsinin ödənilməsini gecikdirdikdə; ikidən çox müddət üçün iki aylıq əmlak kirayəsi haqqının məbləğinə çatan məbləğdə əmlak kirayəsi haqqının ödənilməsini gecikdirdikdə.

Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi, əgər Mülki Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, tərəflərin razılaşması ilə mümkündür. Notariat təcrübəsi göstərir ki, yaşayış sahəsinin kirayə müqavilələrinin tərəflərin razılaşması ilə ləğv edilməsi şərti bəzi hallarda kirayəyə



verən üçün çətinliklər törədir. Belə ki, kirayə müqaviləsi müddətində kirayəçinin vaxtından tez bu sahəni tərk etməsi müqavilənin ləğv edilməsi zərurətini yaradır. Kirayəçinin notariat ofisinə dəvət etməklə müqavilənin ləğvinə dair yeni müqavilə bağlanması mümkün olmur. Bu kimi halların həlli əvvəlcədən müqavilədə müqavilənin birtərəfli qaydaların müəyyənləşdirilməsi yolu ilə mümkündür. Yəni müqaviləni birtərəfli ləğv etmə hüququ mülkiyyətçini bu qayğılardan tamamilə azad edir.

Kirayə ilə yanaşı mülki dövriyyədə icarə institutu da geniş yayılmışdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 700.1-ci maddəsinə görə icarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Bu müqaviləyə görə kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verir. İcarəçi icarəyə verənə müəyyənləşdirilmiş icarə haqqı ödəməyə borcludur. İcarə predmeti torpaq sahələri, binalar, daşınar əşyalar, hüquqlar və müəssisələr ola bilər.

Tarixə nəzərdə saldıqda görürük ki, daşınmaz əşyalara mülkiyyət hüququ ilk olaraq məhz torpaq sahələrinə sahiblik və bu sahələrin istifadə ilə bağlı olmuşdur.

Torpaq sahələrinin icarə müqavilələri müəyyən məlumatları özündə əks etdirməlidir. İcarə müqaviləsi üzrə hüquq münasibətlərinə girməzdən əvvəl icarəyə verən və icarəçi icarəyə verilən torpağın təsvirini birlikdə tərtib etməlidirlər. Təsvirdə torpağın həcmi, habelə verildiyi an olduğu vəziyyət göstərilir. Təsvir hüquq münasibətlərinə xitam verildikdə də tərtib edilir. Təsvirə onun tərtib olunduğu günün tarixi qoyulmalı və müqavilənin hər iki iştirakçısı imza atmalıdır. Müqavilə iştirakçılarından biri təsvirin tərtibində iştirakdan imtina etdikdə və ya tərtib zamanı mühüm ixtilaflar yarandıqda müqavilənin istənilən iştirakçısı tələb edə bilər ki, təsvir ekspert tərəfindən tərtib edilsin, amma torpağın icarəyə verildiyi vaxtdan doqquz aydan çox və ya icarə hüquq münasibətlərinə xitam verildiyi vaxtdan üç aydan çox keçdiyi hallar istisna təşkil edir. Belə hallarda tərəflərdən birinin iddiası üzrə ekspert məhkəmənin qərarı ilə məcburi qaydada təyin edilə bilər. Bununla əlaqədar əmələ gələn xərcləri müqavilənin hər iki iştirakçısı yarıbayarı çəkir.

Torpaq icarə haqqı tərəflərin razılığı ilə müəyyənləşdirilir. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddi onların təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativlər əsasında müəyyənləşdirilir.

Qeyd edilməlidir ki, əgər hər hansı torpaq sahəsinin, hüququn və ya müəssisənin icarəsi müqaviləsi bağlanarkən icarə müddəti müəyyənləşdirilməyibsə, müqavilənin ləğvinə yalnız azı altı aylıq xəbərdarlıq müddətini gözləmək şərti ilə ilin sonunda yol verilir.

Bələdiyyə torpaqlarının mülkiyyətə və icarəyə verilməsi zamanı müəyyən qaydalara əməl edilməlidir. "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsinə əsasən bələdiyyənin ərazisində daimi yaşayan və eyni zamanda ən azı beş il müddətində yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikası vətəndaşlarının mülkiyyətinəbu Qanunun 9.8-ci maddəsində müəyyən edilmiş məhdudiyyət nəzərə alınmaqlafərdi yaşayış evinin tikintisi üçün torpağın ayrılması, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəlikləri yerinə yetirmək məqsədi ilə torpağın dövlət mülkiyyətinə və ya icarəsinə verilməsiistisna olmaqla, digər hallarda bələdiyyə torpaqları üzərində mülkiyyət və icarə hüquqları yalnız açıq torpaq hərracları və ya müsabiqələri vasitəsilə əldə edilə bilər.

Torpaq sahələrinin icarəyə verilməsi üzrə vərəsəlik məsələləri də əhəmiyyət kəsb edir. İcarəçinin öldüyü halda icarə hüquqlarına xitam verilirmi? Torpaq Məcəlləsinin 51-ci maddəsinə əsasən icarə müddəti tamam olanadək, icarəçi öldükdə torpaq sahəsi üzərində icarə hüququ onun vərəsələrinə keçir.

Hüquqi və fiziki şəxslərin torpaq sahəsi üzərində hüquqlarının ümumi xarakteristikası ilə bağlı müəyyən məhdudiyyət nəzərə alınmalıdır: əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər Azərbaycan Respublikasında torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər.

Torpaq üzərində hüquqların tanınması üçün bu hüquqlar (müddəti on bir aydan az olan icarə və istifadə hüquqları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınmalı və həmin reyestrdən çıxarışla rəsmiləşdirilməlidir.

Kirayə və icarə müqavilələrinin notariat qaydasında təsdiqlənməsinin vacib olan sənədlərdən biri daşınmaz əşalara dair mülkiyyət hüququnun daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasıdır. Bu hüquq çıxarış əsasında müəyyən olunur. İcarəyə verənin hüququ mövcud olmalıdır ki, bu hüququ digər şəxsə müqavilə əsasında verə bilsin.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinin tələbləri icarəyə görünənin diqqətindən yayınmamalıdır. Həmin maddəyə görə daşınmaz əmlak üzərində müddəti on bir aydan çox olan icarə və ya istifadə hüququ dövlət qeydiyyatına alınır. İcarə və ya istifadə hüququnun dövlət qeydiyyatına alınması barədə ərizəni daşınmaz əmlakın icarə (istifadə) müqaviləsi üzrə tərəflərdən biri verə bilər. Torpaq sahəsi və ya yerin təki sahəsi icarəyə (istifadəyə) verildikdə qeydiyyat üçün təqdim edilən müqaviləyə torpaq sahəsinin və yerin təki sahəsinin planı əlavə edilir.

**Kirayə və icarə müqavilələrini notarat qaydasında müqavilə bağlamaqla tərəflər öz hüquq və vəzifələrini dürüst müəyyən etməklə yanaşı bu hüquqların təmin edilməsi yüksək sübutedici notariat sənədinə malik olurla ki, bu da öz növbəsində mülki dövriyyənin və mülki hüquq münasibətlərinin hüquqi baxımdan sabitliyini və vətəndaş hüquq və mənafelərinin qorunmasını təmin edir.**

*Mehmet Yaşin*

## İstanbul titrəməyə başlayanda biz evdə olmasaq nə olacaq?!



***Prof. Dr. Naci Görür zərurətdən biz istanbulluların içini qaraltdı.***

***Onun dediyinə görə, zəlzələburnumuzun dibinə qədər dirənib.***

***Başqa sözlə, böyük məhvəbir bağ qalıb.***

***Bu bağ da açılsa vay halımıza! Bu, qiyamətdən sonrası deməkdir.***

***Fədakar professorumuz Cəlal Şengör də eyni təhlükəyə diqqət çəkir.Onun sözlərinə görə, İstanbul zəlzələsinəbir addım qalıb!***

***Mən İstanbulda yaşayıram. Bütün bu illər ərzində bu qədər qorxmamışdım! Mənim ruhum heç vaxt bu qədər qaranlığa qərq olmamışdı. Halbuki mən ömrümün payızını yaşayanda, yəni ömrümün sonuna az qalmış bu qorxunun səbəbi nə idi?***

***Bilmirəm. Bəlkə də bu qədər zəhmətlə qurulan həyatın bərbad bir divarın altında qalıb toz-torpağa çevriləcəyi qorxusu idi.***

***Bu həm də çətinliklə, sevinclə, ilmik-ilmik toxunmuş bir həyatın bir neçə saniyəlik sarsıntı ilə bitəcəyi qorxusu ola bilər!***

***Bütün o illər, bütün o anlar, bütün səylər saniyələr içində sıfırlanması.***

***Qarşısının alınması çətin olan bir məhvolma!***

***Biz necə qorunmalıyıq?***

***Cavab vermək üçün çox çətin sualdır.Cavabı heç kim bilmir.***

***Bilənlərin dediklərini əzbərlədim: Evimizi zəlzələyə davamlı etməliyik!***

***Bu həll zəlzələnin səhər biz evdə yatarkən baş verəcəyi ehtimalına əsaslanır.***

***Onlar da səhv etmirlər. Böyük zəlzələlər həmişə eyni tələ qurur. İnsanları ən zəif anlarında, dərin yuxularında, şirin yuxularında dolaşan zaman yaxalayır.***

***Və amansızlıqla öldürür.***

***Həmişə belə olacaq? Həmişə qaranlığın ən qaranlıq saatında vuracaqmı?***

***Zəlzələ bu qədər xaindirmi?***

***Deyək ki, xəbərdarlıqlara qulaq asdıq, evimizi polad divarlarla əhatə etdik, sütunları ən qalın dəmirlə, fransız betonları ilə möhkəmləndirdik.***

***Ancaq deyək ki tavalar toqquşanda biz evdə olmadıq.***

***O gün yeraltı keçiddən keçirik, kafedəyik, restoranda şorba yeyirik, işdəyik, çökmüş binanın düz qarşısından keçirik, meyxanada romantik nahar edirik, xəstəxanada təzyiqimizi ölçüb, estakadada tıxacın düzülməsini gözləyirik, təndirdən çörək alırıq, bankdan pensiyamızı alırıq...***

***Yaxud mehmanxana otağında ləzzət və günah zirvəsinə qalxırıq!***

***Demək istədiyim odur ki, biz artıq əlimiz bir yerimizdə gəzirik.***

***Evimizi təhlükəsizliyə almışıq, amma o an olduğumuz yerin betonundan, divarından, dəmirindən, kəsilmiş sütunundan xəbərimiz yoxdur!***

***Heç bir ayıbımız yoxdur, amma yerin xain tavaları bunu hərləyirmi?***

***Onlar öz işlərini görürlər. Əsrlər keçsə də ölümcül oyunlarını davam etdirəcəklər. Yəni amansızcasına mübarizə aparıb minlərlə günahsız insanın həyatına hər zaman olduğu kimi xaincəsinə son qoyacaqlar.***

***Mən xain deyirəm, çünki bu hiyləgər tavalar heç kimə sirr demir!***

***Nə vaxt, harada, nə qədər güclü?!***

***Mütəxəssislər həqiqəti ancaq cəsədlərin sayılması zamanı deyə bilər!***

***Samanyolundan kənarda şəkil çəkən teleskoplar yarada bilən elm yerin bir neçə kilometr altındakı nasazlıqları müşahidə edə bilmir!***

***Bəli, Görür bəy, Şengör bəy, Yaltırak bəy, Ercan bəy...***

***Və digər mütəxəssislər!***

***Evimiz möhkəmdir, amma İstanbul titrəməyə başlayanda biz evdə olmasaq nə olacaq?!***

***Buna cavabınız olacaqmı?***

***Dilimizə uyğunlaşdıran: Eminquey***

## Bu şəxslərə də ipoteka verilsin

**Əlilliyi olan şəxslərə də ipoteka kreditinin verilməsi təklif olunub.**

**Bu barədə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2022-ci il üzrə məruzəsində deyilir.**

**Məruzədə ipoteka krediti ilə mənzil almaq və ya**



**digər kreditlər əldə etməklə maddi vəziyyətini yaxşılaşdırmaq istəyən əlilliyi olan şəxslərlə sığorta müqaviləsinin bağlanmasını və onların bu hüquqdan istifadəsini məhdudlaşdırdığına görə Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının 2014-cü il 23 sentyabr tarixli, Q-21 nömrəli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası Qaydaları"nın 4.3.2-ci yarımbəndinin (sığorta müqaviləsində başqa cür müəyyən edilmədiyi hallarda, birinci və ikinci dərəcə əlilliyi olan şəxslərlə bağlı sığorta müqaviləsi bağlanmır) çıxarılması təklif olunub.**

# Hacı Şahinin ölüsünü də dinləmək gözəldir....

**" - Hacı, ruhuna qurban!**

**Mərsiyəxanın səsi ucalır.**

**Adamlar bir-bir silkələnir, izdiham yırğalanır, başları aşağı dikilir. Kim başını yuxarı qaldırırsa, qızarmış gözlərindən yaş süzülür. Sanki Hacının illərdir moizələrdə danışdığı Kərbəla şəhidlərinin qanı qətrə-qətrə bu insanların gözlərinin dibinə axır".**

Bu, reportaj deyil, bir neçə dəqiqəlik sükutdur...

Sükut da danışa bilir.

Ağlaya bilir.

Ağlada bilir.

Sübhə yaxın yatsam da, saat 9-un yarısı elə bil kimsə vurub oyatdı məni. Adi günlərdə məni anam oyadır. Başımı yastıqdan qaldırdım, televizora diqqətim kəsildi, üzgün-üzgün danışırdılar. Anam qabaqladı:

***- Emin, Hacı dünyasını dəyişib e...***

***- Nə Hacı? Hansı Hacı?***

***- Hacı Şahin...***

***- Nə? Necə yeni? Niyə?***

Ayağa qalxıb tez-bazar əyinimi geyindim. Zəhrimara qalsın, siqaretim də bitib. Vərdişdir, yerimdən qalxan kimi həyətə çıxıb siqaret yandırıram.

***- Nə? Nə? Nə?***

Boşluğa sual verə-verə telefonumu götürüb evdən çıxıram.

***- İşə gedirsən? - anam soruşur.***

***- Yox, Məşədi Dadaşa...***

"Hacı Şahin niyə ölsün axı?! Xəstə deyildi axı?! Niyə belə qəfil?" - özümlə danışa-danışa taksi Məşədi Dadaşa gəlib çatır. Daha doğrusu, yaxınlıqda saxlatdırıb düşürəm. Mərsiyə səslərinə tərəf addımlayıram.

Sonuncu dəfə Məhərrəm ayında gəlmişdim. Dostlarımızdan biri dəvət etmişdi. İmamın üçündə. Ondan biraz öncə məsciddən reportajıma görə minlərlə insanın sevgi dolu rəylərini oxumuşdum sosial şəbəkə hesabımdan. Elə Məşədi Dadaşa gələndə də bunu insanların tanış baxışlarından sezmişdim. Hacı moizə oxuyurdu, mərsiyəxanlar isə Kərbəla şəhidləri üçün ağı deyirdilər, böyük izdiham var idi.

Hacı növbəti görüş üçün məscidə gələnlərlə vədələşmişdi. Sonrakı günlərdə ya vaxt tapa bilmədim, ya da başqa nəsə, gedə bilmədim. İndi məscidə yaxınlaşdıq



c a

yenə eyni mərsiyəni eşidirəm, yenə eyni izdihamı görürəm. Adamların arasına qarışıb məscidin qapısına çatıb dayanıram.

***- Hacı, ruhuna qurban!***

Mərsiyəxanın səsi ucalır.

Adamlar bir-bir silkələnir, izdiham yırğalanır, izdihamın üstündən siqaret tüstülər qalxır, adamların başları aşağı dikilir. Kim başını yuxarı qaldırırsa, qızarmış gözlərindən yaş süzülür. Sanki Hacının illərdir moizələrdə danışdığı Kərbəla şəhidlərinin qanı qətrə-qətrə bu insanların gözlərinin dibinə axır. Hacı Şahin isə illərdir əzadarlıq gecələrində saatlarla moizə oxuduğu bu məsciddə bu dəfə minbərdə oturmayıb, lal-sükut dərin yuxuya gedib.

Başqa nə baş verir?

Heç nə.

Ağı oxunur.

Ağrılar kirimir.

Ağrıdır...

Bəlkə də bu izdihamda hər adamın bir xatirəsi var Hacı Şahinlə. Buna əminəm. Məni də Məşədi Dadaşa gətirən məhz onunla olan xatirəmdir. Hələ iki il öncə doğum günündə onu niyə sevdiyimi yazmışdım.

Hacı düz dörd il öncə digər bir çox dindar, inanclı insanlardan fərqli olaraq kütləvi linç olunduğum zaman, saytların üzərimdən İP qazanıb məni söydürdüyü zaman oğlunun profilindən mənə mesaj yazıb çox mədəni şəkildə bəzi məqamlara iradını, xürafata qarşı çıxdığımı isə dəstəyini bildirmişdi. Həmin dövrdə Hacının bu mesajı içimə elə bir fərahlıq gətirmişdi ki, artıq kiminsə nəsə deməyi qəti vecimə deyildi. Onun sözlərini anama çatdıranda da yazıq qadın göz yaşını kəsmiş, kirimişdi.

"Qapıdan çəkilin, indi xanımlar Hacı ilə vidalaşıb məsciddən çıxacaqlar".

"Xahiş edirik, gözəl insanlar, cığır açın".

"Hacı ilə vidalaşmaq istəyənlər məscidin arxa qapısından girsinlər".

Üstündən heç bir il keçməmişdi, Hacıdan müsahibə almağa gedəndə də onun və ətrafındakılarının mənə qarşı insani münasibətini görmüşdüm. Hacını hamı kimi 10 il qabaq tanımışdımsa, özüm kimi 4 il qabaq tanımışdım. Daha sonralar Hacı mənim dəvətimlə kitabımın təqdimatına gəlmişdi. Həmin radikal kəsim Hacını da, məni də mövzuya çevirib nələr deməmiş



dilər. Bütün bunları xatırlaya-xatırlaya gözlərim dolur, insanların üzünə baxıram, sanki onların da bir çoxusu mənim kimi xatirələrini dilləndirib ağlayırlar. Bəlkə də bir çoxları ümumiyyətlə bu ölümün mahiyyətini hələ dərk etmirlər. Hacının bəzi ölkəiçi söhbətlərdə niyə səssiz qaldığını anlamırlar. Mən gözəl anlayıram, anladığım həqiqəti öz-özümə deyirəm. Bu yazını oxuyanlar da bir gün özləri o həqiqətə varacaqlar.

Əslində məscidin ətrafındakı susmuş hər bir adamın içi danışır. Mən indi necə xatirələrimi danışıramsa bu izdiham da ağlaya-ağlaya buna oxşar şeyləri öz içlərində danışıb ağlayırlar.

"Hacının dəfninə gedib ürək-dirək olduğu analar gəliblər. İndi onlar Hacını şəhid övladlarının yanına yola salacaqlar. Keçin, ehtiyatlı olun, Hacıyla vidalaşın" - deyir Mərsiyəxan.

Hacı Şahin isə bugün moizə oxumur, gələn görüşlərə vəd vermir, lal-sükut, dinməz-tərpənməz öz sevənlərinin gəlişinə baxır. Məncə ora gəlib, Hacı Şahinlə vidalaşan insanlar, əyləşib onu dinləmək istəyərdilər. Nə olsun ki, o, daha danışmır. Hacı Şahinin ölüsünü də dinləmək gözəldir

***

**Dəfn mərasimi.**
**İzdiham.**
**Göz yaşları.**
**Və Hacı o dünyada...**

**... ki, mən hansısa bir başqa dünyanın olmasına inanıram.**

**... o yerdə, o məkanda dünyasını dəyişmiş inanclı insanları başına yığıb söhbət etmək üçün bir müddətlik məzarına uzanıb dincəlir.**

**O ölmür, sadəcə mənəvi dinclik dövrünə qədəm basır.**

**Onu kim qarşılayacaq, bilmirəm, amma hər kimdirsə, Hacı bizdən də o qüvvəyə danışacaq.**

**Bizim üçün nə xeyri olacaq, bilmirəm.**

**Amma əminəm.**

**Danışacaq...**

**EMİNQUEY**

## Hüquqşunas: "Belə bir mühüm tarix ərəfəsində əfv sərəncamının verilməsi istisna deyil, amma..."

**"Əfv Komissiyası yanvarın 12-də öz iclaslarına başlayıb və artıq 8 iclas keçirilib. Bu iclaslarda 1000-dən çox ərizəyə baxılıb və müvafiq rəylərin hazırlanmasıyla bağlı qərarlar qəbul edilib. Komissiyamızın iclasları davam edir və bunun may ayına qədər olacağı gözlənilir"**

Bunu Adalet.az-a açıqlamasında hüquqşunas, Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü Əliməmməd Nuriyev deyib. Ə.Nuriyev mart ayında əfv sərənvamının olub-olmaması məsələsinə də aydınlıq gətirib:



"Mart ayında, Novruz bayramı ərəfəsində əfv sərəncamı olmayacaq. Əfv sərəncamı Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən tədbirlər çərçivəsində olacaq.

Bu gözlənilə biləcək əfv sərəncamı may ayına təsadüf edə bilər. Çünki bildiyimiz kimi mayın 10-da Ulu Öndərin doğum günüdür. Güman etmək olar ki, belə bir gündə əfv sərəncamı olacaq. Hal hazırda Əfv Komissiyasının iclasları davam etməkdədir, iclaslarımızı bitirək, müvafiq rəylərimiz Cənab Prezidentə təqdim olunsun ki, daha sonra əfv sərəncamıının olub-olmamasıyla bağlı Prezidentimiz qərar versin. Əlbəttə ki, son və qəti qərar Prezidentimizin səlahiyyətləri çərçivəsindədir.

Qeyd etməliyik ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ilk qəbul edilən konstitutsiyanın müəllifi Ulu Öndər Heydər Əliyev olub.

Məhz onun təşəbbüsüylə əfv hüququ Prezidentin səlahiyyətləri çərçivəsinə müstəsna hüquqları sırasına daxil edilmişdir. Şübhəsiz ki, belə bir şəxsiyyətin anadan olması ərəfəsində əfv sərəncamının olmasıyla bağlı çağırışlar başadüşüləndir. Onu da qeyd etməliyəm ki, ölkə başçısı Cənab İlham Əliyevin fəaliyyətində hər zaman humanizm, mərhəmət və sosial ədalət prinsipləri təməl prinsipləri olub.

Ötən müddət ərzində baxsaq görərik ki, Azərbaycanda 68 əfv sərəncamı olmuşdur. Onun 32-si mərhum Prezident Heydər Əliyev, 36-sı isə ölkə başçısı Cənab İlham Əliyev tərəfindən imzalanıb. Bu müddət ərzində isə 8980 nəfərdən artıq şəxs cəzadan azad edilmişdir.

Onların da mütləq əksəriyyəti azadlıqdam məhrumetmə cəzasının qalan hissəsindən azad edilmişdir. Bu baxımdan da belə bir mühüm tarix ərəfəsində əfv sərəncamının verilməsi istisna deyil, amma əlbəttə ki, son və qəti qərar Cənab Prezidentə məxsusdur".

**Vasif Əlihüseyn**

*Əbülfət MƏDƏTOĞLU*



# Bir üzü qara dünyanın İŞIQ adamı

### *Mahmud Qacarın xatirəsinə*

***Bilmirəm kim deyib , niyə deyib... Amma inanıram ki, o da mənim kimi dərdlə baş- başa qalanda, təkliklə əlbəyaxa olanda və birdə haqsızlıqlara gücü çatmayanda əlini göyə açıb, bir qarğış kimi gətirib dilinə bu dünyanın üz qaralığını. Həqiqətən dərindən düşünəndə özünlə, çevrənlə, oxduqlarınla, eşitdiklərinlə və ən vacibi gördüklərinlə müqayisə edəndə, dünyanın üzündə ürək açan işıq, nur çox azdır. Qaranlıq, qara ləkələr... təssüf doğuran nəsnələr isə daha çoxdur. Yəqin ki, bunun da səbəbi elə özümüzük- yəni, biz insanlarıq. Çünki hər şeyi özümüz üçün düşünürük. Öz boyumuza biçir, öz istəyimizə uyğunlaşdırmağa çalışırıq. Bu fərdilik də sonda yer üzündə milyardlarla fərdin istək toqquşmalarını həmin o qara ləkələrə, konkret desəm, dünyanın üz qaralığına çevirir.***

***Birdəki insan olan varlıq nədənsə dağıtmağa daha çox meyillidir. Özü də məqsədli şəkildə öz rahatlığı üçün olanı dağıtmaq, özününkünü yaratmaq… Növbəti dağıntı da başqa bir insanın özününkünü yaratmaq istəyindən cücərir. Və beləcə dağılır dünyamız… Dağıdırıq dünyamızı…***



***Onunla tanışılığım, dostluğum bəlkə də dünyada ən yaşlı tanışlıqlardan, dostluqlardan biridir. Çünki öncə imzasını tanıdığım, şeirlərini oxuduğum və o yazılardan, o şeirlərdən özünün obrazını içimdə yaratdığım bir şair, bir publisist idi O... Üstəlik həqiqətən də O. həyatda da öz şeirinə, öz yazısına bənzəyirdi. Sanki bir almanı yarı bölmüşdün. Yazıda da həlimlik, şeirdə də həlimlik, səsdə də , davranışda da, münasibətdə də, hətta cismani varlığının özündə də həlimlik hakim idi ona!!! Sanki Allah onu, könlünü sevgi dolu anında, insanlara həlimlik nümunəsi kimi yaratmışdı…***

***Kəndlərimiz qonşu idi. Kəndələrimizin qohumluq əlaqəsi var idi. Bu qohumluq əlaqəsinin bir ucu da bizi tuturdu. Onu da lap sonradan öyrənmişdim. Daha doğrusu özü demişdi. Həyat elə gətirdi ki, Füzulidə "Araz" qəzetində birlikdə işlədik. O məndən öncə işə başlamıdı. Kollektivdə ilk təmas qurduğum qələm adamlarından biri idi. Bunu ona görə xüsusi vurğuayıram ki, redaksiyada Mahmud Qacar, Sabir Rüstəmov və Süleyman Qaradağlını rayonda fəaliyyət göstərən "Ərgünəş" ədəbi birliyindən tanıyırdım. Bu üç şair dostlarım mənim üçün redaksiyada ilk anlarda sözün gerçək mənasında güvənçilər idi. Onların otağına ərklə gedir , ilk isti, mehriban söhbətlərimi onlarla edirdim. Təbii ki, qısa bir zamandan sonra rayon qəzetinin redaksiyasında artıq hamı mənim üçün doğmalaşdı!. Bu gün onların bir çoxu artıq haqq dünyasındadır. Məkanları Cənnət olsun !.***

***Və mən qaçqınlığın ilk günlərindən aradığım, sorağına düşdüyüm həmkarlarımdan, dostlarımdan biri də Mahmud Qacar idi…***

***Hər dəfə "Ədalət" qezetinin redaskiyasına gələndə Mahmud Qacar özü ilə "Araz" qəzetinin havasını gətirirdi. Rayon qəzetindəki münasibətlər, istilik , e4ləcə də yazıları müzakirə etmək, irad və təkliləri söyləmək ənənəsi var idi. Bu səbəbdən Mahmud "Ədalət"ə gələndə hər nömrəsini izlədiyi qəzetlə bağlı fikirlərini mütləq deyirdi. Üstəlik o özünün yazılarını, şeirlərini mənə təqdim edəndə də birbaşa və həmişə bu fikri xüsusi vurğulayardı:***

***-Özün bax, özü də diqqətli ol. Mənə görə yox, qəzetə və özünə görə yazıya qiymət ver. Sonra üzünə söz gəlməsin. Sənə irad tutmasınlar ki, dostunun, kəndçisinin yazısını çap edir.***

***Bəli, biz Mahmudla ruh dostu idik, ürək dostu idik. Ailə məsələlərimizi də birlikdə müzakirə edirdik. O oğlu Azərdən, bizim Babəkdən söhbət salırdı. Tez- tez səhhətində problem olan balacalardan danışırdı. Və ən çox da onun qəlbinə toxunan haqsızlıqları, xüsusi ilə zamanında "adam saydıqlarının" ona etdiyi namərdliklərdən ürək ağrısı ilə söz açırdı...***

***Şeirlərini də ürək ağrısı ilə yazırdı. Sözünün əvvəli də, axırı da Qacar idi. Füzuli şəhəri işğaldan azad olunanda mənə zəng etdi. Ağlaya- ağlaya danışdı. Bu sevinc göz yaşı idi. Amma o qədər isti idi ki, sanki mən də ona qoşulub ağlayırdım...***

***Bəli, Mahmud Qacar Bakıda gecəqondu evində rahatlıq tapa bilmirdi. Qaçqın kimi məskunlaşdığı ünvan onu sıxırdı. Ona görə də imkan düşdükcə özünü çatdırırdı Horadizə. Gedib bir neçə gün doğmalarının yanında qalırdı. Gedəndə də, qayıdıb gələndə də mənə mütləq zəng edirdi. Son gəlişində mənə Horadizdən meyvə gətirmişdi. Onları mənə verəndə dedi ki, öz əlimlə yığmışam. Kürəkənin həyətindəndir. Dedi və gözləri doldu. Onun ağrıları çox idi. Elə o ağrılar da yeyirdi onun ürəyini. Və bir də Mahmud Qacar son dərəcə diqqətli idi. Hamının dərdinə şərik ola bilirdi. Hamının sevincinə sevinirdi. Onunla söhbətlərimdə ən çox Umud Rəhimoğludan, Oktay Əliyevdən , Mais Kazımovdan söhbət salırdı.***

***Mən dünyanın üzünün qara olduğunu yazının əvvəlində deyəndə məqsədim, məramım var idi. Axı deyirik ki, qara torpaq udur adamı. Amma deyir ki, aydınlar. dəyərlilər. təbii ki, şairlər torpağa qarışanda Vətən torpağını bir ovuc artırır. Bu fikri mən daha çox qəbul edirəm. Lakin dünyanın üz qaralığının bir əlaməti də işıqlı adamları tez çərlədib, tez çökdürüb öldürməyidi... Bax bu amanasız dünya da bizləri, xüsusilə nurlu, işıqlı aydınlarımızı yaşamağa qoymur. Onları qara torpağın qoynuna tez yola salır. Torpaq bir ovuc artsa da, gerçəkdə dünyann üz qaralığı da bir adam boyu artır.***

***Bəli, əzizim Mahmud, sən Bakıda təmiz hava axtarırdın. Tapa bilmədin. Təmiz dünya gəzdin, onu da tapa bilmədin. Amma sonda təmiz vicdanın, təmiz ürəyin səni ruhunun qanadında Qacara apardı. Axı orda hava da təmizdir. Sənin dünyanda özün kimi ÖZƏLDİ!!!***

***Ruhun şad olsun, qovuşdun Qacara...***

## *Ən xəsis milyonçu*



**ABŞ-ın Las-Veqas şəhərindən olan və özünü "ən qənaətcil milyonçu" adlandıran sahibkar Eymi Elizabet deyəsən xəsisliyinə görə "Ginnesin Rekordlar Kitabı"na düşmüş Qenrietta Houlendin rekordunu təzələmək niyyətindədir.**

Belə ki, sərvəti 5,3 milyon dollar (təqribən 9 milyon manat) olan qadının "qənaət" məqsədi ilə elədikləri hər kəsi heyrətə gətirib.

Elizabet inanır ki, pulun olması heç də onu hara gəldi səpələnə biləcəyi demək deyil. Onunu sözlərinə görə, qabyuyan süngəri toz halına gələnə qədər atmır. Su puluna qənaət etmək üçün isə çəngəl-bıçaqları ümumiyyətlə yumur, sadəcə silir. Üstəlik, o, balığı ucuz pişik yemi ilə əvəz edir, həta qonaqlarına belə bir yemək verir.

Amerikalı qadının məqsədi ayda 1000 dollardan (1700 manat) artıq pul xərcləmək olmadığı üçün təmizlikçi tutmayıb. Amma burada da sahibkar çıxış yolunu tapıb. Onun evindəki təmizliyə keçmiş əri cavabdehdir - o, tualeti yuyur və bağçaya baxır. Elizabet isə bunun müqabilində ona məşqçi və qidalanma məsləhətçisi kimi xidmət göstərir.

**Eminquey**

# Sərvaz Hüseynoğlu: "Ənvər Paşa" romanını mən yazsaydım" fikrim "mən yazmışam" kimi təhrif olunmuşdu..."

### *("Ədəbiyyat qəzeti"nin 25 fevral 2023-cü il tarixli nömrəsində dərc olunan müsahibədən ixtisarla)*

**- Sərvaz müəllim, ötən il "Ənvər Paşa" romanının müəllifliyilə bağlı tanınmış yazıçı Hüseynbala Mirələmovla aranızda məlum olay yaşandı. Təbii, bu olay ədəbi camiədə böyük hay-küylə qarşılandı. Fərqli fikirlər, yozumlar oldu. Aradan xeyli vaxt keçib. Amma nədənsə bu olayla bağlı əlavə heç bir açıqlamanız olmadı...**

- Hesab edirəm dədə-babalarımızın "Yanlış da bir naxışdır" yozumunun gerçəyini siz özünüz də bilməmiş deyilsiniz. Amma məlum olayla bağlı fikirlərimi sizinlə bölüşməzdən əvvəl, gərək ki, Heminqueydən oxuduğum bir hekayəni xatırlatmaq istərdim; deməli, əyalət şəhərlərindən birində üzündə dərin çapıq olan naməlum bir adam günlərlə şəhər əhlinin əsas mövzusuna çevrilir. Biri deyir adam cəngavərdi, hansı döyüşdəsə bütöv orduya qarşı təkbaşına savaşıb. Biri deyir bu, duel məsələsidir. Xəncər, qılınc yarasıdı. Daha nələr, nələr... Əslindəsə həqiqət çox sadəymiş, sən demə, qəlyanaltıda kefli bir zabit qolaylanıb konserv qutusunu zala atmaq istəyəndə həmin adamın üzündə dərin şırım açıbmış. Belə, bu qədər. Həqiqətin gerçəyi...

"Ənvər Paşa"yla bağlı anlaşılmazlığın təfərrüatına, gerçəkliyinə gələndə isə, bir məsələni əvvəlcədən qeyd etmək istəyirəm; mənə yaxın olan, ətrafımdakı hər kəs yaxşı bilir ki, mən yaxın aylara qədər heç bir halda kompüter vasitəsindən istifadə etməmişəm. İnternet yazışmaları, "Facebook", e-mail yazışmaları mənlik olmayıb. Bəlkə sizin özünüzün də yadınıza gələr, mənim özümə də çox əziz olan yazıçı Elçin Hüseynbəyli vaxtilə "Ədəbiyyat qəzeti"nə baş redaktor gələndə müsahibələrinin birində əməkdaşlardan bəzilərinin kompüterdən istifadə edə bilməməsindən söz açmışdı. Bilirdim ki, Elçin Hüseynbəyli bu zaman məhz məni nəzərdə tutur. Çünki redaksiyada çalışan əməkdaşlar arasında təkcə mən kompüterlə işləməyi bacarmırdım. Təbii ki, bunun səbəbi də vardı. Yəni gərək əvvəlcə adamın kompüteri, müəyyən proqram yüklənmiş mobil telefonu olsun ki, o da həmin sistemlə çalışa bilsin... Biləsən, mənim iqtisadi çətinliklərim belə bir təchizatı əldə etməyimə heç vaxt yol verməyib. Ona görə də həmişə kağız-qələmlə işləmişəm. Elə indinin özündə də mən adi qələmlə yazıram. Vərdiş eləmişəm. Ailədə isə təkcə bir mobil telefonumuz olub. Övladlarım müştərək işlədiblər. Oğlum mənim Nuh əyyamından qalma əl telefonumun nömrəsindən qeydiyyatdan keçib. Yəni, faktiki olaraq mobil telefon, "Facebook", "Votsap" və sair məsələlərlə bağlı nə vardısa evdə övladlarım məşğul olurdu... İş elə gətirdi ki, bir dəfə evdə Hüseynbala Mirələmovun yenicə çapdan çıxmış "Ənvər Paşa" romanından söhbət düşdü. Əlbəttə, Hüseynbala müəllimlə şəxsi tanışlığım olmasa da, mən onun başqa əsərlərini də oxumuşdum.



Gənclik illərinin nostalji duyğularını əks etdirən hekayələrini, "Gəlinlik paltarı" əsərini. Xüsusilə "İki şah, iki sultan", Sara xatunun, Qazi Bürhanəddinin parlaq obrazlarını içinə alan trilogiyasını heyranlıqla oxumuşdum. Xülasə, evdə ailəvi söhbətimiz zamanı mən zarafatla dedim ki, "Ənvər Paşa" romanını Hüseynbala Mirələmov yox, mən yazmış olsaydım bütün tənqidçilər, akademiklər bir-birinə aman vermədən məndən yazacaqdılar. Söhbət belə oldu. Mən belə dedim. Amma mənim nə demək istədiyimin fərqinə varmadan oğlum mənim adımdan məlum mətni yayımlamışdı. Əlbəttə, təhrif edilmiş şəkildə. Fərqinə varmadan. Özü bildiyi kimi. Bax, haqqında bəhs etdiyiniz olayın gerçəyi budu. Yəni "Ənvər Paşa" romanını mən yazsaydım" fikrim "mən yazmışam" kimi təhrif olunmuşdu. Yanlışlığın naxışıydı bu...

**- Açıqlamanı bu qədər gecikdirməyinizin də səbəbi oldu yəqin...**

- Bilirsiniz, bu olay barədə ilk xəbəri mənə yaxın qələm dostlarım verdi. Çoxsaylı müraciətlər oldu ki, nə məsələdi? Sonrakı saatlarda, günlərdə də məlum mətnə yazılan şərhlər, çeşidli fikirlər barədə də dostlarımdan eşidirdim. Onlar kimin nə yazdığı, nə fikir səsləndirdiyi barədə nə vardısa, mənə çatdırırdılar. Özlərini yeyib-tökənlər, ucuz reytinq xətrinə ağızlarına gələni yazanlar vardı. İllərlə tanıdığım, çoxsaylı təqdimatlarda mehribanlıqla görüşüb hal-əhval tutduğumuz bir xanım yazarın fikri vardı ki, guya məni şəxsən tanımır. Məndən "Sərvaz adlı birisi" deyə söz açırdı. Biri yazırdı ki, mən dəqiq bilirəm, araşdırmışam nə olub. Elə bil müstəntiqdi. Düzü, şaşırıb qalmışdım ki, bu adamların içində bu qədər kin-küdurət, qərəz hardandı. Atılan bir daşın dalınca bu qədər cummalarının səbəbi nədi? Təbii, anlaşıqla yanaşanlar, bu xora qoşulmayan yetərincə söz sahibi insanlar da vardı. Sağ olsunlar.

Əli Rza Xələfli, Ağacəfər Həsənli, Akif Aşırlı, Adil Cəmil, Dayandur Sevgin bütün dedi-qoduların tezliklə keçib gedəcəyini söyləyirdilər. Bilirdilər ki, adi bir anlaşılmazlıq, yanlışlıq olub...

# "Türkün haqq bağıran səsi"

**Ötən ilin sonlarında işıq üzü görmüş və böyük bir zəhmət, həm də istedad gücünə qələmə alınmış bir kitab var qarşımda. Kitabın müəllifi qələminə və əxlaqına yüksək sayqım olan, ürəklə "Bacı" dediyim Göyərçin ABİDQIZIdır. Mənə avtoqrafla bağışlanmış bu kitab barəsində münasibət bildirmək istərkən akademik Rafael Hüseynovun yazmış olduğu " Ön söz " diqqətimi çəkdi.**



Yeri gəlmişkən onu da qeyd edimk " Ön söz" də barəsində Göyərçin xanımın kitab yazdığı Əhməd Cavada sonsuz sevgi özünü ifadə edib...Elə buradaca mən bir daha Əhməd Cavada, onun ruhuna və yaradıcılığına böyük DİQQƏT və SEVGİNİN şahidi oldum.

Həmin "Ön Söz " də akademik Rafael Hüseynov yazır ki, "Göyərçin Mustafayevanın Əhməd Cavada həsr edilən kitabı millətin ruhundakı əhmədcavadşünaslıq rəfinə qoyulması vacib olan yeni cildlərdən biri kimi ürək sevindirir."

Zənnimcə bu təqdimat artıq çox və həm də ən dürüst bilgini oxucuya çatdırır. Birmənalı olaraq deyir ki, bu kitab ədəbiyyatımızın ünlülərindən olan və hər zaman yaşayacaq, seviləcək, anılacaq Əhməd Cavada layiq SÖZ ABİDƏSİDİR!

Kitabın "Ön Söz" ündə o da vurğulanıb ki, " O, ( yəni Əhməd Cavad - Ə,M,) Azərbaycan ruhunun şairi idi.O, Azərbaycan dilinin şairi idi. O, azərbaycanlı ürəyinin şairi idi." Məhz belə bir şairin faciəli taleyi, istiqlal yanğısı ilə dolu ədəbi-bədii irsi bu kitabda araşdırmaların bəhrəsi kimi oxucu qarşısına çıxarlılb."Elm və təhsil" nəşriyyatında işıq üzü görmüş kitab Ön Söz, Müəifdən, Giriş, Son söz əvəzi ilə yanaşı üç fəsildən ibarətdir.

Mən bu kitabda toplanmış yazıların dövrü mətbuatda müəyyən hissələri ilə tanış olduğumdan, kitabı gözdən keçirərkən sanki köhnə bir həmsöhbətimlə yenidən qarşılaşdım... yenidən baş-başa qalmaq imkanı qazanmış oldum.





Bu mənada kitabın çapını səbirsizliklə gözləyən bir oxucu kimi, indi müəllifin sevincinə də ürəkdən qoşuluram. Həm də bu kitabda "gecikmənin" səbəbini də müəllif qələmindən öyrənib " darıxmaqla deyil, meyvə vaxtında yetişir" fikri ilə də bir daha razılaşdım.

Bax elə bu kitabın müəllifi , dəyərli Göyərçin xanım da yazır ki, "Mən kitaba son nöqtəni qoymağa tələsirdim.Tələsməyən zamandı , bir də kitaba "Ön söz " ü yazmaq üçün təqdim etdiyim hörmətli Rafael müəllim idi ki, ( 3 ildən sonra) sanki bu illərin həsrətinə, 30 il sonra torpaq həsrətinə son qoyulacağını, bir də böyük şairin 130 illik yubleyini gözləyirmiş."

Bəli , bu bir həqiqətdir ki, zəhmətin bəhrəsi Sevinc bəxş edir. Bu sevinc ümummilli olanda isə onun mahiyyəti də çox-çox böyük olur.

Müəllif Sevincin mübarək, Göyərçin bacım!

**Bizimsə Oxucu Sevincimiz mübarək !**

**Əbülfət Mədətoğlu**

## *Azərbaycanda dərmanların keyfiyyətinə nəzarət gücləndirilməlidir*



**Azərbaycanda dərman vasitələrinin keyfiyyəti narahatlıq yaradan problemlərdəndir.**

Bu barədə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2022-ci il üzrə məruzəsində deyilir.

Qeyd edilir ki, eyni tərkibli, lakin müxtəlif ölkələrdə istehsal olunan dərmanların orqanizmə təsiri həmin dərmanların keyfiyyəti məsələsinə də ciddi yanaşma tələb edir. Bu baxımdan, ölkəyə idxal edilən və əhali tərəfindən istifadəsinə icazə verilən dərman vasitələrinin keyfiyyətinə nəzarət gücləndirilməlidir.



***VAQİF YUSİFLİ***

# ÜÇ MÜHARİBƏ ROMANI

**(əvvəli ötən sayımızda)**

**Biz unutmuruq ki, hər bir xalqın həyatında müharibə ayrıca bir tarixdir və bu tarixin səhifələrpini tez-tez vərəqləmək lazımdır ki, heç kim və heç nə unudulmasın.**

Tariximizin son 35 ilində biz iki müharibənin şahidi olluq. Birinci Qarabağ müharibəsi itkilərlə başa gəldi. Otuz il bu itkilərin ağrı-acılarını çəkdik, amma ümidimizi itirmədik. Xalq şairi Qabilin "Ümid sənədir ancaq, Azərbaycan əsgəri" çağırışı əbəs yerə səslənməmişdi. Məmməd Arazın, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun "Ayağa dur, Azərbaycan!" nidaları da ədəbiyyatın mVətən müharibəsində əzmkar rolunu bir daha sübut elədi. İkinci Qarabağ müharibəsində isə - 44 günlük fövqəladə savaşda Ali BaşKomandan və Ordumuz kimi qələbə müjdələrini yaşadı.

Əlbəttə, biz bu yazıda nə iki müharibənin, nə də bu iki mühavribədə ədəbiyyatımızın, xüsusilə, nəsrimizin xronologiyasını təsvir və təqdim etmək fikrində deyiləm. Lakin nəsrin bir janrında-roman janrında müharibəyə həsr olunan üç əsərdən söz açmaq istəyirəm. Deyək ki, şeirdə də, nəsrin kiçik janrlarında da, pubölisistikaa da müharibə mövzusu kifayət qədər öz bədii təcəssümünü tapıb. Amma müharibədən söz açan romanlarımızın sayı çox azdır (Aqil Abbasın "Dolu", Sabir Əhmədlinin iki romanı, Hüseynbala Mirələmoviun "Dağlarda atılan güllə və aha bir-iki roman və son illərdə Vüsal Nurunun və Etibar Muradxanlının romanlarını da bura əlavə etmək olar). Roman elə bir janrdır ki, onun təsvir hədəfi, çoxplanlı süjet xətti, obrazlar-xarakterlər silsiləsi və ən başlıcası, Müharibə və İnsan problemini əks etdirmək yazıçıdan böyük sənətkarlıq tələb edir.

Yazıçı Səyyad Aran son 4 ildə üç roman yazıb və onların hər biri müharibə həqiqətlərini əks etdirir. Səyyad Aran müasir Azərbaycan nəsrində artıq etiraf olunmuş bir yazıçıdır və onun istər hekayələri, istərsə də povestləri müasirlərimizin mənəvi dünyasını, həyat və məişətini, duyğu və düşüncələrini əks etdirmək baxımından oxucuların rəğbətini qazanıb. 1978-ci ildə "ulduz" jurnalında dərc olunan "Körpü" hekayəsi ilə ədəbiyyata gələn Səyyad Aran doğrudan da özü ilə oxucular-ədəbi ictimaiyyət arasında bir körpü yaratmağa nail oldu. Onun əksər hekayə və povestləri kənd həyatından, Aran rayonlarında yaşayan insanların həyatını, mənəvi aləmini, psixologiyasını bədii lövhələrlə əks etdirir. Lakin indi söhbət onun üç müharibə romanından gedir.

"Başdaşı" və "İrəvana gedən yollar" romanları haqqında biz mətbuatda öz sözümüzü demişik. Qısaca xatırlayaq: "Başdaşı" romanı Birinci Qarabağ müharibəsinə həsr edilib, daha doğrusu, bu müharibənin insanların taleyində buraxdığı acılıqları, kədər dolu hadisələri təsvir edir. Həmin illərin hadisələri bizim yaddaşımızdan qətiyyən silinməyib. Azərbaycan kəndləri-Qarabağda o zaman ağır müharibə şəraiti hökm sürürdü, ordum hələ zəif idi, hər tərəf düşmən qüvvələri ilə əhatə olunmuşdu, əsasən könüllülər vuruşurdu, lakin heç kimdə təslim olmaq fikri yox idi. " Başdaşı" romanında Səyyad Aran bir ailənin timsalında müharibə dəhşətlərini əks etdirirdi. Ata Səməndər, ana-Nubar, onların öğlanları - Qürbət və Səlahət, qızları Minarə - bu ailənin hər bir üzvü müharibənin maddi və mənəvi qurbanlarına çevrililər. Əlbəttə, roman təkcə bir ailənin deyil, müharibə gedən bölgələrdə yaşayan insanların keçirdikləri ağrı-acıları da canlandırırdı, amma "Başaşı"nı sırf kədərlivə oxucuda üzüntü yaradan bir əsər hesab etmək də doğru olmazdı. Çünki romanda düşmənə qarşı qətiyyətlə döyüşən oğulların da obrazları diqqəti cəlb edirdi. Romanın sonuncu cümləsi: "Azərbaycan öz xilaskarını gözləyirdi". Bu xilaskar isə ulu öndər, ümummilli liderimiz Heydər Əliyev idi. Məhz onun qayıdışından sonra Azərbaycanda ordu quruculuğun önəm verildi.

Səyyad Aranın "İrəvana gedən yollar" romanı isə İkinci Qarabağ müharibəsinin zəfəri üçün stimul olan Lələtəpə döyüşlərindən söz açır. Yazıçı Azərbaycan ordusunun artıq formalaşma prosesindən, əsgər və zabitlərimizin həm hərbi,həm texnika, həm yüksək əhval-ruhiyyə, həm də psixoloji baxımdan inkişafını nəzərə çarpdırırdı.

Bu iki romandan sonra Səyyad Aran "Tacın qaytarılması" əsərini nəşr etdirir ("Elm və təhsil" nəşriyyatı, 2022). Bizcə, müharibə haqqında trilogiya başa çatır (amma indidin fikir söyləmək tezdir, yeni bir roma da yarana bilər).

Roman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin epiqraf kimi bu sözləri ilə başlayır: "Şuşa Qarabağın tacıdıfr". Bu tac -yəni Şuşa iyirmi səkkiz il düşmən əlində olub və müəllif Şuşa uğrunda gedən (təkcə Şuşa deyil, ümumən digər rayonların da) , Xüsusi Təyinatlı Qüvvələrin iştirakı ilə gedən və çox ağıllı şəkildə idarə edilən döyüşləri ardıcIllıqla qələmə alır. Burada üç məqamı xüsusilə nəzərə çarpdırmaq istəyirəm.



Birincisi: sırf canlı müharibə səhnələrini təsvir edən yazıçı az-çox savaş-döyüş texnologiyasına bələd olmalıdır,bu döyüşləri təsvir edərkən yazıçı özü də addım-addım o döyüşçülərlə birgə olmalıdır (müharibədə özünün iştirakı olub-olmaması əsas şərt deyil). Səyyad Aran Şuşa və Qarabağ uğrunda gelən savaşlarda bu üsulu uğurla həyata keçirir. O, Xüsusi Təyinat Qüvvələri iştirakçılarının söylədiklərini (konkret adlar dəyişilib) və onların gündəliklərindəki qeydlərini qələmə alır və bu da müharibədən söz açan əsərlərdə təsadüf olunan bir üsuldur.

Əslində, müharibə romanlarında - özü də zəfərlə başa çaian döyüşlərdə dəqiqlik əsas şərtdir. Səyyad Aran 44 günlük döyüş səyahəti 2020-ci ilin 27 sentyabrından başlanır və Şuşanın azad olunmasına qədər tarixi qələbə dövrünə qədər davam edir.

**İkincisi:** Romanda xüsusilə diqqəti cəlb edən baş qəhrəman nəzərə çarpmır. Amma romanda adları çəkilən bütün personajlar - Vətən uğrunda döyüşən hər bir kəs qəhrəmandır. Müəllif hər bir səhnədə qəhrəmanlığın yeni bir nümunəsini, çeşidini nümayiş etdirir. Böyük türk şairi Nihal Atsızın "Qəhrəçmanlıq dadaraq acıölüm şərbətin, İrəliyə atılmaq və sonra dönməməkdir" misraları yada düşür. Bizim qəhrəmanlar da ya şərəflə vuruşur ya da qəhrəmancasına həlak olurlar.

**Üçüncüsü:** hər hansı bir müharibə romanında yalnız döyüş-vuruş səhnələrini təsvir etmək yanlış deyilmsi? Axı, hər bir döyüşçünü əlində silah ölüm-dirim vuruşunda -onun qəhrəmanlığını nəzərə çarpdırmaq məsələnin sırf praktik həlli demək olar. Bəs bu döyüşçünün-bu qəhrəmanın ürəyi, ruhu yoxmu? "İrəvana gedən yollavr" romanında Səyyad Aran iki rardaşın bir qıza məhəbbətindən söz açır. Şahin ağır yaralanıb son nəfəsində ona ürək sözlərini söyləyən qardaşı Ruhindən eşidir ki, o, bir qızı sevir. Amma o qızın əl sevgilisi elə Şahindir və kəndə qayıdandan sonra ata-anası sevdiyi qızla evlənməyi ona təklif edirlər. Amma Şahin buna razı olmur, çünki qardaşının o qızı sevdiyini necə unuda bilər və Şahin təzədən cəbhəyə qayıdır.

Bu hadisənin təsviri ilə S.Aran romana bir emosional-kədərli bir xətt əlavə edir. Deməli, istənilən bir müharibə romanında Qəhrəmanlıq həm də Ürək - o Ürəkdə dalğalanan hisslər, həyəcanları əhatə etməlidir. Vaxtilə tarixçi Tarle yazırdı ki, "Hərb və Sülh" romanında Lev Tolstoyu təkcə müharibə səhnələri, Peterburq saplonlarında gedən diplomatik söhbətlər deyil, bəlkə Nataşa Rostovanın könlündəki həyəcanlar maraqlandırırdı.

Səyyad Aranın "Tacın qaytarılması" romanında da belə təsirli səhnələr az deyil. Bir misal: "Özümüzə gələndə ilk eşitdiyimiz söz "Nialə" sözü oldu. Əsgər qardaşımız Cahangirinsəsiydi. Əvvəlcə anlamadıq. Elə bildik arvadını səsləyir. Yenic

Ə evləndiyini bilirdik. Özümüzdə güc tapıb ona tərəf süründük. Qolu çiynindən qopub yanına düşmüşdü. Üz-gözü qan içinəydi. -Həkim, həkim!-deyə çağırmağa başladıq. Təcili həkim üdaxiləsi lazım idi. Yaxınlıqda həkim olmadığını bilirdik. Əslində çarəsizlikdən qışqırırdıq.Nə edəcəyimizi bilmirdik. Cahangir inildəyirdi.

-Niyaləni istəyirəm. Qardaşlar, axı heç üzünü də görməmişəm. Qızıma eləcənə şəkildə baxmışam. Döş cibimdədi, şəkli çıxarın, heç olmasa balama baxa-baxa ölüm. Kimsə hərbi biletini arasından balacaqızcığazın şəklini çıxavrtdı. Allah, atasına necə oxşayırdı! Yəqin şəkil çəkdirəndə uşağı qıdıqlayıb güldürmüşdülər ki, atası hər dəfə baxanda gülümsəsin, rahat olsun. Şəklə baxanda dəhşətli ağrılarına baxmayaraq Cahangir elə gülümsədi ki Şəkli dodaqlarına yapışdıraraq "Nialə, Nialə, gözəl balam, məni bavğışla, səni yetim qoydum-ananı da, səni də "-deyib dərindən nəfəs aldı, boynu yana düşdü".Çox təsirli səhnədir və Səyyad Aranın romanında bütün bu təsirli səhnələr döyüş-vuruş səhnələri ilə müvazi şəkildə təqdim edilir. Bu döyüşçülər-Azərbaycan əsgərləri və zabitləri bütün hissləri, həyəcanları ilə ganlandırılır.nların bir-birilə zarafatları da, deyib-gülməkləri də, öz doğmalarını yad etməkləri də təbiidir, çünki öyüşçü həm də İNSANDIR, ürəyi, ruhu var. Amma S.Aran əsas diqqətini Şuşaya-Qarabağın tacının alınmasına yönəldir. Romanda nikbin bir ruh dolaşmaqdavdır, hamı inanır ki, Şuşa və Qarabağ erməni faşistlərindən təmizlənəcək, daha işğal sözü eşidilməyəcək. Çünki "Azərbaycan ordusu ötən illər ərzində kifayət qədər təcrübə toplamış, hərbi cəhətdən xeyli möhkəmlənmişdi. Düşmən ya bunu bilmirdi, ya da vecinə almırdı. Deyəsən, 92-93-=cü illərdən ağızlarında şirə qalmışı". Romanda bu tipli şərhlərə tez-tez rast gəlirik. Beləliklə, Qarabağın tacı-Şuşa ordumuzun qələbəsiylə bizə qaytarılır. Buv da romanın sonu: "Hamı küçələrdə və meydanlarda idi. Soyüuq noyabr gecəsinə baxmayaraq kim əlinə nə keçibsə, əyninə taxıb bu mislsiz bayramı və qələbəni qutlamaq üçün küçələrə, meydanlara axışmışdı. Heç kim yatmaq istəmirdi .Millət xoşbəxt idi.

Otuz ilə y axın müddətdə qəhəri, kədəri içində qalan xalq dirçəlmişdi. İllərdən bəri həsrətində olduğu qələbəyə qovuşmuşdu, özü öz içindən böyümüşdü.

O gecə Azərbaycanda heç kim yatmadı".

Romanla bağlı iku tövsiyyəmi də bildirmək istəyirəm. Əgər Səyyad Aran yenə bir müharibə romanı yazarsa, bədiiliyə daha çox diqqət yetirsin. Həm də hər hansı romanda mütləq baş qəhrəman obrazının yaradılması zəruridir. Bir az da publisistik şərhlərə çox da yer verməsin.

**Mənim fikrimcə, Səyyad Aranın bu son romanı əsasında bir bədii-sənədli film də çəkmək olar. Çünki İkinci Qarabağ müharibəsindən elə bir film çəkilməyib. Kino işçiləri bu haqda düşünsələr daha yaxşı olar...**

№ 9 (2333) 4 mart 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Heydər Əliyev və milli dövlətçilik təfəkkürü

**Ulu Heydər Əliyevin bu xalq, bu millət və bu dövlət qarşısında əvəzsiz xidmətləri olub. Ən azından ona görə ki, dünya şöhrətli siyasətçi həmişə millətin və xalqın ən ağır günündə onun yanında olub. Başqa sözlə demiş olsaq, Ümummilli Lider heç vaxt xalqını çətin gündə darda qoymayıb. Biz bunun bariz nümunəsini 1990-cı ildə 20 Yanvar qanlı hadisələri zamanı gördük. Gördük ki, Heydər Əliyev SSRİ-nin kəshakəs vaxtında heç nədən, hətta ölümdən belə çəkinməyərək Moskvada səfirliyimizə gəldi. Orada imperiyanın törətdiyi qanlı cinayətə öz etirazını bildirdi. Təbii ki, belə bir addımı atmaq, belə bir vətənpərvərlik nümunəsi göstərmək o qədər də asan deyildi. Çünki həmin vaxtlar Heydər Əliyev vəzifədən çıxarılmış və Siyasi Büronun üzvlüyündən azad edilmişdi. Üstəlik də sovet rejimi onu rahat buraxmırdı. Həmişə nəzarətdə saxlayırdı. Amma bunların heç biri Ulu Öndəri tutduğu yoldan döndərə bilmədi. Xalqın ən ağır günündə, ən faciəvi günündə onun yanında olmağı həyatı bahasına olsa da, qərara aldı və möhtəşəm bir addım atdı. Bu hadisə bir daha göstərdi ki, Heydər Əliyev xalqımızı canı qədər çox istəyir.**

Ulu Öndərin hakimiyyətdə olduğu ilk gündən son anadək həmişə ürəyi bu vətən, bu xalq üçün döyünürdü. Dövlətimizin müstəqilliyi, azadlığı və dirçəlişi üçün, bayaq dediyimiz kimi, həyatını belə təhlükəyə atıb. Ona görə ki, Ulu Öndər həmişə bu xalqı müstəqil və azad görmək istəyirdi. Heydər Əliyev Pekin İctimai Elmlər Akademiyasındakı çıxışında demişdir:

"Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir. Bizim vəzifəmiz, məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmlətməkdən ibarətdir".

Təbii ki, Ulu Öndərin xarici ölkələrdə, beynəlxalq yığıncaqlarda bu fikirləri səsləndirməsi onu deməyə əsas verirdi ki, hələ də bir çox ölkələr, müstəqilliyimizi və azadlığımızı həzm edə bilmir və bu yolda qarşımıza maneçiliklər yaradırdı. Aydındır ki, dünya şöhrətli siyasətçi Heydər Əliyev düşmən qüvvələrin apardığı pozucu siyasəti öncədən görürdü və buna qarşı da lazımi siyasət həyata keçirirdi.

Əlbəttə, yeni yaranmış Azərbaycan dövlətini parçalamaq və onun müstəqilliyini əlindən almaq istəyən qüvvələr heç vaxt sakitləşmirdi. Azərbaycan tarixinin ən ağır, ən çətin vəziyyətində Ulu Öndər xalqın tələbi ilə yenidən hakimiyyətə gətirildi, ölkəmizi parçalanmaqdan xilas etdi. Hamının yaxşı yadındadır, Lənkəranda Əlikram Hümbətov özünə bir "dövlət" yaratmışdı. Eləcə də Balakən və Zaqatala bölgəsində vəziyyət çox mürəkkəb idi. Yəni həm cənubda, həm də şimalda vəziyyət çox pis idi. Bəzi xarici ölkələrin köməkliyi ilə qaragüruhçu qüvvələr fəallaşmışdılar. Xalq Cəbhəsinin, eləcə də ondan əvvəlki mövcud hakimiyyət zamanında həmin qüvvələr özlərinə yer almış, inkişaf etmiş və ölkədə qarışıqlıq, xaos yaratmışdı. Başqa sözlə demiş olsaq, milli dövlətçiliyimiz artıq süqut edirdi. Belə bir zamanda Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanı parçalanmaqdan və milli dövlətçiliyimizin məhv edilməsindən xilas etdi. Aydındır ki, qısa zaman kəsiyində ərazi bütövlüyümüzü bərpa etmək, milli dövlətçiliyimizi qorumaq və onu beynəlxalq səviyyələrdə möhkəmlətmək heç də asan deyildi.



Dünyanın ən nəhəng siyasətçiləri belə bu problemin öhdəsindən gələ bilməzdi. Ölkəmizin çətin vəziyyətində Ulu Öndərin təşəbbüsü və iştirakı ilə "Əsrin müqaviləsi"- neft kontraktının imzalanması və dünyanın bir çox ölkələrinin bu müqaviləyə qoşulması Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirdi. Milli dövlətçiliyimizə yeni nəfəs, yeni güc verdi. Aydındır ki, həmin dövrdə erməni işğalçıları öz havadarlarının köməkliyi ilə Azərbaycanın 20 faiz torpağını işğal etmişdi, bir milyondan çox məcburi-köçkün və qaçqın kontingenti yaranmışdı. Həmin məcburi köçkünləri yerləşdirmək, onlara şərait qurmaq və bu insanların həyat tərzini bərpa etmək elə də asan deyildi. Çətin vəziyyətdə olan ölkəmizin bütün problemlərini ancaq Heydər Əliyev kimi böyük siyasətçi dünyaya çatdıra bilərdi. Ulu Öndərin dünyanın ən böyük ölkələrinə səfəri, eləcə də beynəlxalq təşkilatlardakı çox cəsarətli və prinsipial çıxışları xalqımızın səsini dünyaya çatdırdı. ABŞ, İngiltərə, Fransa, Almaniya və digər dövlətlər Azərbaycan həqiqətlərini Ulu Öndərin müdrik siyasəti nəticəsində qəbul etdilər. Təbii ki, onları inandırmaq bir o qədər də asan deyildi. Bunun üçün Ulu Öndərin əlində çox güclü sübutlar və faktlar var idi. Heydər Əliyev də bu faktları dünya liderlərinin və ictimaiyyətinin diqqətinə çatdırırdı.

Ən maraqlısı o idi ki, ABŞ-ın, Fransanın, Almaniyanın, Rusiyanın dövlət başçıları Heydər Əliyevin qarşısında çox aciz və zəif görünürdülər. Çünki Ulu Öndər dünya siyasətinə həmin prezidentlərdən əvvəl gəlmişdi və öz istedadı, təcrübəsi, biliyi və cəsarətli addımları ilə həmişə adını çəkdiyimiz ölkələrin prezidentlərini təəccübləndirirdi. Və onlar da heç bir ölkənin prezidentinə göstərmədiyi diqqəti Ulu Öndərə göstərirdi.

Ulu Öndər harda olursa-olsun Azərbaycan dövlətinin maraqlarını, onun milli dövlətçilik ənənələrini bütün dəyərlərdən üstün tuturdu. Onun çıxışlarında, xarici ölkələrin dövlət başçıları ilə görüşlərində və beynəlxalq təşkilatlardakı məruzələrində bir qırmızı xətt var idi: Azərbaycan dövlətçiliyi, xalqımız və millətimizin öz ərazi bütövlüyünü təmin etməsi! Bax bu məsələlər Ulu Öndərin apardığı siyasətin əsas təməlini, özəyini, siyasi xəttini təşkil edirdi. Heydər Əliyev belə bir uzaqgörən, müdrik siyasətçi olub ki, onun zaman keçdikcə daha böyük şəxsiyyət olduğu aydınlaşır. Sanki o, bir Günəş kimi göy üzündə görünür və həmişə bu Günəşdən Azərbaycan dövləti, Azərbaycan xalqı nur alıb. Bizim fikrimizcə, Azərbaycan tarixində müstəqilliyimizi və milli dövlətçiliyimizi qoruyan tarixi şəxsiyyətlər çox az olub. Əlbəttə, bütün bu deyilənləri ona görə xatırlayırıq ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu uzun müddət ərzində bu dəyərlərə həmişə böyük diqqətlə önəm verib. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi böyük tarixi şəxsiyyəti və uzaqgörən siyasətçisi var. Əgər Allah eləməmiş kimi, Azərbaycanın ən ağır vəziyyətində xalqın dəvəti ilə hakimiyyətə gətirilməsə idi, onda görün nadan və cahil siyasətçilər ölkəmizi nə günə qoymuşdular. Başqa sözlə desək, ölkəmiz parçalanmış və milli dövlətçiliyimiz məhv olmuşdu. Milyonlarla insanın sevincinə səbəb olan Heydər Əliyevin hakimiyyətə gəlməsi xalqımızı bu bəladan xilas elədi. Dövlətçiliyimiz və müstəqilliyimiz qorundu. Ulu Öndər erməni işğalı ilə bağlı bütün çıxışlarında bəyan edirdi ki, bir qarış torpağımız işğal altında qalmayacaq. Onları zaman-zaman geri qaytaracağıq. Tarix bunu göstərdi. Ulu Öndərin siyasətini uğurla davam etdirən prezident İlham Əliyevin rəhbərliyi və ordumuzun gücü ilə 44 günlük savaşda işğal altında olan 9 rayonumuz geri qaytarıldı. Bu o demək idi ki, Ulu Öndərin apardığı uğurlu siyasət 30 ildən sonra öz bəhrəsini verdi. Azərbaycan dövlətçiliyi möhkəmləndi.

**Tarix göstərir ki, Heydər Əliyev həmişə çox müdrik və uğurlu bir siyasət həyata keçirib. Bu uğurlu siyasət öz bəhrəsini verib və verməkdədir. Təsadüfi deyil ki, bu gün dünya o ölkələrə böyük maraq göstərir ki, orda sabitlik var, demokratik və hüquqi dövlət qurulub. Azərbaycanda demokratik və hüquqi dövlət quruculuğu məhz Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində həyata keçirilib. Elə ona görə də bu gün dünyanın ən inkişaf etmiş ölkələri belə ölkəmizə çox böyük maraq göstərir, sərmayə qoyur və rahat fəaliyyət göstərirlər. Əlbəttə, dünya siyasətində hər hansı bir yanlış addım demokratik ölkələrin həmin məmləkətdən öz çevirməsinə səbəb olur. Amma Ulu Öndər Heydər Əliyev Azərbaycanda belə bir sivil, müstəqil və milli dövlətçilik ənənələri yaratdı ki, bu ənənə yüz illər bundan sonra da davam edəcəkdir. Milli dövlətçilik təfəkkürünün formalaşması, yeni mərhələyə qədəm qoyması bir daha ona əsas verir ki, Azərbaycan müstəqil dövlət kimi iri addımlarla irəliləyəcək, beynəlxalq aləmdə öz nüfuz və mövqeyini daha da möhkəmləndirəcək.**

**Faiq QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Yad adamların maşınına minməyə məcbur qalan adamlar - Sahil qəsəbəsinin həll olunmayan dərdi

***Samirə Əşrəfin "Küçələrdə qalanlar" adlı yazısını təqdim edirik.***

Çarəsizilk pis şeydir. İnsanıq hamımız. Ətdən, qandan, sümükdən yaranmışıq. Hisslərimiz, duyğularımız, həssas nöqtələrimiz var. Ömrümüzün müəyyən dövrlərində əlacsızlığın, çarəsizliyin nə olduğunu hiss edirik. Əlimiz heç yerə çatmır, səsimizi heç kim eşitmir. Öz içimizə qapanırıq. Bəzən bu səssizlik, içə qapanmalar günlərlə, bəzən həftələrlə, bəzən isə illərlə davam edə bilər.

Yazının gedişatında bəhs edəcəyim elə situasiyalar ola bilər ki, bu cür bədii, sentimental girişlə uyuşmasın. Amma inanın ki, hazırda özümü dünyanın ən əlacsız, ən çarəsiz adamı kimi hiss edirəm. İki kitabın müəllifi, uzun illərdir mediada fəaliyyət göstərən, onlarla tanınmış insanla görüşən, söhbət edən, ünsiyyətdə olan, onların müşahidələrini, etiraflarını, əzablarını, sənət təəssübkeşliklərini, öz narahat taleyinin bir hissəsinə qatıb yazıya köçürən mən indiki situasiyada çarəsizəm.



Çünki yaranan problemlərlə bağlı əlaqədar qurumlara müraciət edəndən, dəfələrlə onlara sorğu göndərəndən, problemin həlli yollarını araşdırıb təqdim edəndən sonra da, heç bir tədbir görülmədiyini görəndə, susub bir tərəfə çəkilməyə məcbur olursan.

Məncə, bu qədər ədəbiyyat kifayət edir. İndi keçək əsas məsələyə... Yəni bu dumanlı, çiskinli qış səhərində məni pessimizmin dibinə yuvarlayan "yol əhvalatına".

20 ildir ki Bakının Qaradağ rayonunun Sahil qəsəbəsində yaşayıram. Artıq dörd ildir ki, hər səhər evdən çıxıb işə gəlir, bir də qaş qaralanda evə qayıdıram. Bu dörd ildə hələ bir dəfə də olsun qəsəbəmizin marşrutu ilə işə gəldiyimi xatırlamıram. Çünki, bu, heç vaxt mümkün olmayıb. Mənim nəsibim həmişə sınıq salxaq qazellər, sprinterlər, bir manatlıq taksilər olub.

Bilirəm ki, xalq şairinin, yazıçısının, sənət adamının küçələrdə səfil kimi ölməsinə, onların aclıqdan, yoxsulluqdan, dərdə-sərə düşməsinə, içkiyə, siqaretə qurşanıb sürünməsinə ürəyi daha çox ağrıyır, nəinki normal şəraiti olanlara. Ona görə də, bu gün xalqın (oxu: oxucunun) damarından basmaq istəyirəm.

Hə, harda qalmışdıq? Yol məsələsində. Deməli, illərdir bizim qəsəbəmiz 149 və 164 saylı marşrutların ümidinə qalıb gətirib ki, həmin bu marşrut bir saatdan bir gəlib bizim qəsəbədən də keçir. Belə olan halda, bazara-bezara getmək istəyən adamlar bu marşrutu özlərinə kömək bilib əyləşib gedirlər. Yerdə qalır 149 saylı marşrut xətti.

Mən qəsəbəyə təzə köçəndə, bu xətt düz Azneft dairəsinə qədər gedirdi, sonra onun yolunu qısaldıb "20-ci sahə"yə qədər etdilər. Bir neçə il keçdi, xətt qısalıb Lökbatan dairəsində qərar qıldı. Sonra Lökabatan qəsəbəsi və.s. İndi bu dayanacağın sonu haradadır, heç bilinmir. Bəlkə də, sonu yoxdur, elə bütün günü Yer kürəsi ilə birgə fırlanır. Nə bilim.

Hə, onu da deyim ki, əvvəllər xətdə 10, sonra 9, sonra 8 marşrut fəaliyyət göstərirdi. İstifadə müddəti çoxdan başa çatmış bu avtobuslar yol qəzaları edə-edə sıradan çıxıb 4-əqədər endilər. İndi 50 min əhalisi olan qəsəbə 4 sınıq-salxaq 149 saylı marşrutun ümidinə qalıb. Gülməlidir, deyilmi?

Və bu dörd marşrut yarım saatdan bir xəttə çıxır, asta-asta dayanacaqlara çatıb, Lökbatana, Binə, Sədərək bazarına getmək istəyən evdar xanımları, yaşlı xalaları, dayıları götürüb gedir. Qəsəbədə yaşayan, şəhərdə təhsil alan yüzlərlə tələbə, iş fəaliyyətində olan işçi isə saatlara yollarda bir manatlıq taksilərin, sprinterlərin ümidinə qalır.

Hər səhər dayanacaqlarda dayanan gənc tələbələrin soyuqdan necə titrədiklərini, işə tələsən, ağsaqqal, ağbirçək ki, 164 saylı marşrutun şəhərə, işə gələn adamlara çox az aidiyyəti var. Bu marşrut xətti insanların Ümid qəsəbəsindən Sədərək bazarı istiqamətinə aparılması üçün təyin olunub. İndi allah işimizi düz adamların ayaqlarının birini götürüb, o birini qoyduğunu görəndə, ürəyim ağrıyır. Baxmayaraq ki, mən özüm də həmin situasiyada kənardan kiminsə ürəyini ağrıdıram. Ona görə də, bəzən şəxsi maşınları ilə şəhərə adam daşıyan sürücülər deyirlər, ancaq xanımlar, tələbələr əyləşsin.

Bir manatlıq yol maşınları gəldikcə, insanlar özlərini maşınların qarşısına atır, hamı işə getmək, gecikməmək uğrunda mübarizə aparır. Çox vaxt mübarizədə qalib gələn qadınlar maşınlara doluşub gedirlər. Kişilər isə yenə soyuqda qalırlar, növbəti allah bəndəsinin gəlib çıxmasını ümidlə gözləyirlər. Oxşar vəziyyət tək səhərlər yox, axşam da baş verir. Ancaq bu dəfə vəziyyət daha da dramatikləşir. Çünki səhər evdən çıxan adamlar yatıb yuxularını almış, tox vəziyyətdə, dinc olurlar. Axşam isə hamı acsusuz və iş gününün sonu olduğundan yorğun olurlar. "Sahil" metrosunun yaxınlığındakı, "20-ci sahə"nin ətrafındakı dayanacaqlarda insanlar maşın yolunun düz ortasına qədər çıxırlar. İndiyə qədər buralarda adamların maşınların təkərlərinin altına düşüb ölməməsinə təəccüb edirəm. Acı, yox, zəhər kimi həqiqət isə ondan ibarətdir ki, bir manatlıq taksilər olmasa, insanlar küçələrdə qalar, biabırçılıq baş alıb gedər.

Ən pisi bilirsiniz nədir? Axşam saat 20:00-dan sonra Sahil qəsəbəsinə gedən 149 saylı marşrut ən yaxşı halda gedib Lökbatan dairəsində saat yarıma birbir adam dənləyir. Adam Lökbatan dairəsində nə gəzir axı? Adamlar hamısı bir manatlıq taksilər uğrunda "Sahil" metrosu, "20-ci sahə" dairəsinin ətrafında ölüm-dirim savaşı aparır. Bütün bunları yazmışkən, gəlin sizə bir şad xəbər də verim, əziz oxucu. Saat 22:00 dən sonra bizim qəsəbə, ümumiyyətlə, hamının yadından çıxır. Yəni ora gedən marşrutlar qeybə çəkilir. Tutaq ki, mən yerlə-göylə əlləşən, teatrdan axşam tamaşasından çıxıb Şekspir, Nizami, Cavid dünyasında var-gəl edən adam, axşam saat ondan, on birdən sonra qalıram küçələrdə. Teatrdan, tamaşadan aldığım həvəsi, zövqü də küçələrə salıb itirirəm.

Nə qədər yazmaq, nə qədər pozmaq olar? Bütün bu yazılanların nə Bakı Nəqliyyat Aqentliyini, nə Qaradağ rayon İcra hakimiyyətinin səlahiyyətli şəxslərini, nə Sahil qəsəbəsi bələdiyyəsini, bir sözlə, heç kimi narahat eləmir. Yumşaq desəm, yaranan mənzərə onların veclərinə deyil.

Ona görə veclərinə deyil ki, illərdir bu marşrut xətləri ilə bağlı şikayətlər olunub, yüzlərlə ərizələr yazılıb, müxtəlif TV kanallarından gəlib çəkilişlər edilib, amma çifayda. Səssizlik yenə də öz qüvvəsində qalıb. Əziyyət çəkən isə yenə də əhalidir. İnsanlar hər gün işə getməli, tələbələr də dərsə. Saatlarla dayanacaqda qalan, tanımadığı, bilmədiyi adamların maşınlarına əyləşib evinə getməli olan tələbələrin başına bir saatdan sonra hadisə gələcək deyə heç kim narahat deyil. Dəfələrlə bir manatlıq taksilərdə müxyəlif formalı insidentlər yaşanıb. Cavan uşaüdı, maşının güzgüsündən yaşıdı olan tələbə qızlara göz- qaş edir, mahmı qoyur, söz atır və.s.

Normal marşrut xətti olmadığından, adamlar hər gün bir gedişə 40, 50 qəpik yerinə 1 manat pul xərcləyirlər. Üstəlik, onsuz da tıxaclarda itirilən vaxtın üzərinə bir də taksiləri gözləmək vaxtı əlavə olunur.

Beləliklə, misalçün, axşam saat 7-də evində olmalı adam 9-da güclə gedib mənzil başına çatır. Bu tələbədirsə, onu təhsil alma, işçidirsə, onun işgörmə qabiliyyətini aşağı salır. Nəticədə insan həyatı qısalır, gənc ölümlərin sayı çoxalır, xəstəliklər günü-gündən artır.

**Yazımı yenə də əlacsız, əli hər yerdən üzülən pessimist notlarla başa vururam. Onsuz da bilirəm ki, bu yazıya da, nə Bakı Nəqliyyat Aqentiyindən, nə Qaradağ rayonu İcra Hakimiyyətindən, nə də digər əlaqədar qurumlardan reaksiya gələcək. Amma, deyəsən, ümid sonda ölürdü deyirdilər. Biz də ümidimizin ölümünü, bu ölümdən sonra yazılacaq sentmentallıqdan uzaq yazını gələn dəfəyə saxlayaq.**

# İranda 400-ə yaxın qız zəhərləndi: Qisas, yoxsa bədbəxt hadisə?

**İranda məcburi hicaba etirazlardan sonra ən azı 30 məktəbdə 400-ə yaxın qız şagird zəhərlənib. Hücumların arxasında etirazların qisasını almaq istəyən radikal qrupların dayandığı ehtimal edilir.**



Başlanğıcda səlahiyyətlilər tərəfindən diqqətdən kənarda qalan hallar ən azı 30 məktəbdə təkrarlananda istintaq başladıldı. Dövlət Xəbər Agentliyinə danışan Səhiyyə Nazirinin müavini Younes Pənahi deyib ki, zəhərlənmələrə görə bütün məktəbləri, xüsusən də qız məktəblərin bağlanmasını istəyənlərin məsuliyyət daşıdığı anlaşılır. Lakin o, əlavə məlumat verməyib.

İran parlamentinin təhsil komitəsinin üzvü, deputat Əli Rza Monadi də zəhərlənmələri "qəsdən atılan addım" kimi qiymətləndirib. Milli Məclisin Səhiyyə komitəsinin üzvü Dr. Homayoun Sameah Najafabadi də tələbələrin "qəsdən zəhərləndiyini" deyib. Zəhərlənmə hadisələri 22 yaşlı Məhsa Əmininin geyim tərzinə əməl etmədiyi səbəbilə həbsdə ölməsindən sonra başlayan şiddətli etirazların astanasında olduğu dövrə təsadüf edir. Etirazçılara qarşı polisin müdaxiləsi ilə azı 530 nəfər həlak olub, 20 minə yaxın adam saxlanılıb.

Zəhərlənmələrin arxasında hökumət əleyhinə nümayişlərə qarşı rejimi müdafiə edən radikal qrupların dayandığı güman edilir. İlk hadisə noyabrın sonunda Qum şəhərində yaşandı, uşaqlar baş ağrısı, ürək döyüntüsü və yuxululuq şikayətlərini bildirdi. İlkin olaraq hadisənin təbii qazla qızdırılan məktəblərdə qazdan zəhərlənmə ola biləcəyi iddia edilsə də, sırf qızlara təhsil verən müəssisələrdə bunun təkrarlanması şübhələri daha da artırıb. Tehranda yerləşən Shargh xəbər saytının məlumatına görə, valideynlər son həftələrdə şagirdlərini sinif otaqlarından çıxarıb, bəzi məktəblərin bağlanmasına səbəb olub.

1979-cu ildə İran İslam İnqilabından keçən 40 il ərzində qızların təhsildə iştirakına heç vaxt mane olmayıb. Hətta Əfqanıstanda Taliban rejimi bunun əksini etdikdən sonra Tehran administrasiyası qadınları məktəbə qayıtmağa çağırıb.

**"Onlar etirazçıları qorxutmaq və məktəbli qızlardan qisas almaq istəyirlər", - deyə anonimlik şərti ilə British Guardian-a danışan həkim bildirib ki, pestisidlər və pestisidlər zəhərli maddələr kimi istifadə oluna bilər. Səhiyyə nazirinin müavini Pənahi də tələbələrin qanında "müharibə kimyəvi maddələri aşkar edilmədiyini" bildirib və bunun müalicə oluna bilən maddə olduğunu bildirib.**

**Eminquey**

# Uşaqlar üçün telefon alanda diqqət edin

**Müasir zamanda insanları telefonsuz təsəvvür etmək olmur. Hətta artıq uşaqlarda, məktəblilərdə də bu cihazı görmək mümkündür. Uşaqların bəziləri əyləncə, bəziləri isə dərsləri və özünün inkişaf üçün smartfonlardan istifadə edirlər. Nə qədər məsləhət görülməsə də, azyaşlıların telefondan istifadəsi qaçınılmazdır.**

Bəs, valideynlər uşaqlarına necə telefon almalıdırlar?

Uşaqlara ilk növbədə hansı məqsədlə telefon alacağınıza qərar verməlisiniz. Sonra həm büdcənizə uyğun, həm də funksional özəllikləri baxımından keyfiyyətli seçim etməlisiniz.

Uşağa ancaq ünsiyyət üçün telefon almağı planlaşdırırsınızsa, bunun üçün sadə bir cihaz seçin. Hətta düyməli olan smartfonlar daha məsləhətlidir. Yox, əgər oyunlar və proqramlar üçün istəyirsinizsə, bu zaman xüsusiyyətlərinə, əsasən də güclü batareyaya malik bir telefon almağınız vacibdir.

Seçim edərkən uşağın yaşına baxmaq lazımdır. Müasir cihazların diaqonalı 5 düymdən böyük olur.

10 yaşından kiçik uşaq belə bir smartfondan istifadə etməsi çətindir. Çünki bu cihazlar onların əl ölçüsünə uyğun gəlmir. Belə halda azyaşlılar tez-tez telefonu əlindən sala bilər.

Buna görə bu yaşdakı uşaqlara kiçik ölçülü telefonlar almağınız tövsiyə edilir. Böyük diaqonallı smartfonlar daha çox orta məktəb şagirdləri üçün əlverişli hesab olunur.

**Onu da qeyd edək ki, uşaqlara bahalı telefonların alınması qətiyyən məsləhət görülmür. Buna səbəb onların telefondan düzgün istifadə etməməsi, çoxsaylı oyunların smartfona yüklənməsidir.**

**Emin**

*Əli ÇƏRKƏZOĞLU*

## *Başın sağolsun Vətən!*

**Ya Rəbbi,xeyrə cala kütə mail gümanı,**
**Rəhmətinin ziyası tərk etməsin səmanı,**
**Qoyma çırağı keçmiş Bakı Hava Limanı,**
**Nurundan xali qalsın o İlahi təmasın,**
**Türk elində nə hilal nə də günəş batmasın.**

**Bizim ki, dinimiz haqq,Kitabımız Ecazdı,**
**Fəthə işarə edən Tanrı türkə qıymazdı,**
**İblisin təkmələri deprem quyusu qazdı,**
**Dərdimə kafa tutan ahımı unutmasın,**
**Ovunarıq, yetər ki, zəmin günəş batmasın.**

**Maraşa havalandı gecəylə neçə uçaq,**
**Ürəyimiz məşəldi, göydə üz ağardacaq,**
**Eşq gedə sıcaq-sıcaq,qəm bölə qucaq-qucaq.**
**Allah özün səbəb sal, təskinlik xar olmasın,**
**Seyrək vuran nəbzə də ümid günəş batmasın.**

**İmanın inamı var bizdə fövqəl qüvvəyə,**
**İnsan müqaviməti fövqündə faciəyə,**
**Məmmədin dəstəsi də fövqəladə hal deyə,**
**Yetdi ki,Mehmetgilin zor yükünə əl atsın,**
**Enkazın naçarına çarə günəş batmasın.**

**Qan kokan tüstü boğub Hatayın çöhrəsini,**
**Kimisi sokak-sokak gəzir öz kimsəsini,**
**Yer üstdə ölən pusur altdan diri səsini,**
**Kölgələr də tərpənmir ki, səhv addım atmasın,**
**Sükutu susdurur ki, gözlə günəş batmasın.**

**Məhşərvari gecədən ta bu gündüzə qədər,**
**Hər anına tam ayrı kədər həkk etdi kadər,**
**Tək məzara çevrildi bütöv bir qədim şəhər,**
**Varmı bizdən qeyrisi,Haqq bunca sərt sınasın,**
**Təki türkün səbrinə həyan günəş batmasın.**

**Mehmetlə Məmməd -qoşa xilasedici mələk,**
**İsa-Musa quşutək pəs səs-səsə verərək,**
**Az qalırdı torpağı yeyələr ki, daş-kəsək**
**altda bəlkə diri var, nicata göz yummasın,**
**Çox sönənə yetdilər ki,dur, günəş batmasın.**

**Budur, Rəis də gəldi,gözü qan çəkmiş halda,**
**Ağlayarmış dünyanı tək yönəldən adam da,**
**Səsinə səs verməyən olmaz bütün mahalda,**
**On dörd Mayıs'ta kimsə künc -bucaqda yatmasın,**
**Turanın başı üstdə Sultan günəş batmasın.**

**Bu gündən iki dövlət demə gəl şair,qəti,**
**İlham çəkən yeni sədd ta bölmür tək milləti,**
**Azərbaycan, Türkiyə vahid Cümhuriyyəti,**
**Ülküçüyə nə fərqi, paytaxtı hara sansın,**
**Laməkandı sədası bu milli iltimasın;**
**Günəşimiz batmasın! Günəşimiz batmasın!**

## *Messiyə mafiyadan təhdid*

**Argentina millisinin və PSJ-nin futbolçusu Lionel Messi şok təhlükə ilə üzləşib.**

Qol.az xəbər verir ki, kimliyi məlum olmayan bir neçə şəxs ötən gün Messinin həyat yoldaşı Antonella Rokkuzzonun ailəsinin mağazasına silahlı hücum edib. Həmin vaxt onlar 35 yaşlı hücumçuya da təhdid mesajı göndəriblər. Silahlılar bildiriblər: ”Messi, səni gözləyirik. Rosarionun Bələdiyyə başçısı Cakvin də narkotik ticarətində səni qoruya bilməyəcək”. Həmçinin silahlı basqın səbəbindən Rokkuzzo ailəsinin mağazasına da zərər dəyib. İddia olunur ki, bu hərəkəti edənlər mafiya qruplaşmasının üzvləridir. Argentina Purokurorluğu məsələ ilə bağlı araşdırmaya başlayıb.

**OQTAY KAZİMİ - 90**

# BÖYÜK BƏSTƏKAR ANILDI



**Xalq aristi, böyük bəstəkar Oqtay Kazıminin 90 yaşı tamam olub. Düzdü, Oqtay Kazımi bu yaşı özü qeyd eləyə bilmədi. Çünki o, Allahın dərgahına qovuşub, amma onu sevənlər, çox istəyənlər bəstəkarı yada saldılar və xatırladılar. Bu münasibətlə Mədəniyyət Nazirliyi və Rəşid Behbudov adına Mahnı Teatrının təşkilatçılığı ilə bu günlərdə böyük tədbir keçirildi. Tədbirdə ön sözlə çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamova unudulmaz bəstəkarın həyat və yaradıcılığı barəsində ətraflı danışdı. O, qeyd etdi ki, Oqtay Kazımi kimi böyük bəstəkarlar həmişə yaşayacaq. Çünki onların ölməz bəstələri var. O bəstələr yüz illər keçsə də səsləndikcə, Oqtay müəllimi milyonların yaddaşında yenidən yada salacaq.**

Tədbirdə böyük bəstəkarın ”Qaytar eşqimi”, ”Mehriban insanlar”, ”Dalğalar”, ”Məhəbbət”, ”Əlvida”, ”İnanmıram”, ”Bəs nə deyim”, ”Taleyim mənim”, ”Ey həyat, sən nə qəribəsən”, ”Aman yar”, ”Qaranquş” mahnıları səslənib. Həmin mahnıları Fəxri Kazım-Nicat, Aynur İsgəndərli, İlhamə Qasımova, Aytən Məhərrəmova, Ayşə Mehdiyeva, Mətin Rzazadə və digərləri səsləndiriblər. Bununla yanaşı, pianoda Xalq artisti Salman Qənbərovun müşayəti ilə ”Bulaq suyu, dağ havası”, ”Bir yerdə olaq”, ”Ayrılıq olmayaydı”, ”Nə gəlməz oldun”, ”Cavanlığım”, ”Hər Vətən deyəndə”, ”Tələsin insanlar” mahnıları da səsləndirildi. Həmin mahnıları isə Gülyanaq Məmmədova, Gülyaz Məmmədova, Aynar İsgəndərli, Heydər Anatolu, Taleh Yəhyayev ifa ediblər.

Bu tədbir Oqtay Kazıminin Azərbacyan xalqına və müsiqisinə necə bağlı olduğunu bir daha təsdiq etdi. Zaman göstərdi ki, Azərbaycan xalqı olduqca, Oqtay Kazıminin özü də, musiqiləri də həmişə yaşayacaq.

**Tədbirdə Oqtay Kazımilnin oğlu Elçin Kazimi atasının adını uca tuduğuna görə, tədbir təşkilatçılarına - Mədəniyyət Nazirliyinə və Rəşid Behbudov adına Mahnı Teatrının rəhbərliyinə öz minnətdarlığını bildirdi.**

**Faiq QİSMƏTOĞLU**

# *Əməkdar artist:* "Qadınlar mələkdi, günahkar kişilərdi deyə bir şey yoxdur"

**”Təbii ki, ”tək əldən səs çıxmaz”, biz hamımız bir olub bəzi şeylərə qarşı mübarizəmizi birlikdə aparmalıyıq ki, qalib gələ bilək. Əlbəttə ki, bu gün cəmiyyətdə baş verən hadisələr müasir dövrün tələblərinə cavab verə bilməyən, məişət zorakılığı, həyat, yaşam tərzinin ağır olması, bəzən insanların cahil olması bütün bunların hamısı sonda gətirib xoşagəlməz hallara çıxarır. Amma hansısa bir hadisə baş verəndə onun əvəlinə çatanda görürsən ki, insan sağlam düşüncəli, əqidəli bir insandır, lakin həyatda yaşadıqları, gördükləri onu sonda bu vəziyyətə gətirib salır. Əlbəttə, burda söhbət ən çox da qadınlarımıza qarşı olan zorakılıqdan gedir”**

Bunu Adalet.az-a açıqlamasında Əməkdar artist, muğam ifaçısı Nuriyyə Hüseynova qadın-kişi münasibətlərindən danışarkən deyib. N.Hüseynova daha sonra bunları bunları əlavə edib:

”Təbii ki, baş verən hadisələr birtərəfli deyil, gəlin biz buna belə yanaşmayaq. Ümumiyyətlə, həyatda heç bir məsələyə birtərəfli yanaşmaq düzgün deyil. Ona görə də düşünürəm ki, qadınlar mələkdi, günahkar kişilərdi deyə bir şey yoxdur. Amma bütün hallarda qadınla-kişinin qolunun gücünə nəzər salsaq, təbii ki, kişi həmişə güclü olur. O həmişə qadına basqı da edə, vura da bilər və sair. Bu çox sadə və adi bir şeydir.



Böyük və güclü kişilər heç vaxt qadına əl qaldırmır və qolunun gücünü qadınla sınamır. Düşünürəm ki, bunun həlli yolunu sadəcə o şiddət, xoşagəlməz, milli, mənəvi ənənələrimizə xələl gətirən hərəkətlərlə etmək olmaz.

Bizim çox gözəl adət-ənənələrimiz var və onları yaşatsaq, elə bilirəm ki, ailələrimizdə bu cür söz-söhbətlər, zorakılıqlar olmaz. Xoşagəlməyən şeyləri bəzi qadınlar sosial şəbəkədə göstərir. Bəzi cahil qızlarımız da elə bilir ki, hamı belə olmalıdır.

Onu özünə örnək götürür, getdiyi ailədə bunu tətbiq etmək istəyir və bu, həyata keçməyəndə söz-söhbət olur. Hər bir insan ayrı-ayrılıqda fərd olduğu kimi, hər bir insanın xarakteri də, düşüncəsi də, əqli də, həyata baxışı da tam fərqlidir. Amma bizim hamımız çalışırıq ki, o davranışı, əxlaqı, mədəniyyəti, insanlarla münasibəti saxlayaq və bunun arxasınca gedək. Nə qədər müasirləşsək də, bizim mili-mənəvi dəyərlərimiz var, onların ardınca getməsək, hər şeyi itirəcəyik. Ümumiyyətlə, dünyanın sonu gələcək.

İnsanın dini inancı olmasa və bir də utanmasa, o insandan nə desən gözləmək olar. Sadaladıqlarım elə bil ki, bəzi insanlarda azalır. İstər qadın, istərsə də kişi olsun hər kəs öz yerini bilməli və üzərinə düşəni icra etməlidir.

Hansısa tələbəm bir-iki dəfə dərsə hazır gəlməyəndə onu təhqir etməmişəm, bu mənim xarakterimdə də yoxdur. Sən gözəl ifaçısan, sənətin, səsin gözəldir, bunu bacaracaqsan, Azərbaycanın ən gözəl müğənnisi olacaqsan, seviləcəksən, məşhur olacaqsan kimi sözləri deyəndən sonra tələbəmdə olan dəyişikliyin özüm şahidi olmuşam.

Demək ki, sadaladığımız xoşagəlməz sözlərlə heç nəyə nail olmaq olmaz. Qadın kişinin, kişi də qadının yerini bilməlidir. Həmişə arzu etmişəm ki, evlər ağıllı böyüklə olsun. Onlar həmişə evləri tənzimləyir, çalışırlar ki, tarazlıq pozulmasın. Bəzən elə olur ki, gənclər yola gedə bilir, amma onlara ailələri tərəfindən müdaxilələr olur. Bunun üçün də maariflənmə işləri aparılmalıdır, televiziyalarımızda bu cür verilişlərin sayı artırılmalıdır. Gənclərimiz də buna baxıb örnək götürməlidir. Gəlin qaynananı, qaynana gəlini təhqir edir, saymır kimi mövzuları gündəmə gətirmək gülüncdür”.

**Vasif Əlihüseyn**

## *Günay Əfəndiyeva Kanat Tumışla görüşüb*



**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva təşkilatın baş qərargahında Qazaxıstan Respublikasının Xarici İşlər Nazirinin müavini Kanat Tumışla görüşüb.**

Fondun prezidenti qonağı salamlayaraq Qazaxıstanda bu gün qeyd olunan Təşəkkür Günü münasibətilə cənab Tumışı təbrik edib. Görüş zamanı Günay Əfəndiyeva Fondun fəaliyyətindən, Türk xalqların çoxəsrlik tarixinin, zəngin mədəniyyətinin təbliği məqsədilə dünyanın müxtəlif ölkələrində həyata keçirilən və gələcəkdə nəzərdə tutulan tədbirlərdən söz açıb. Fondun prezidenti Türk Dünyasının qədim irsinin beynəlxalq aləmdə təbliği ilə bağlı birgə layihələrin görülməsinin əhəmiyyətindən bəhs edib. Qazaxıstan Respublikasının Xarici İşlər Nazirinin müavini Kanat Tumış Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən görülən işləri yüksək qiymətləndirərək, təşkiilatın türk ölkələri arasında əməkdaşlığın möhkəmləndiriməsinə xüsusi töhfələr verdiyini vurğulayıb. O, eyni zamanda Qazaxıstanın Fond tərəfindən keçirilən layihələrə hərtərəfli dəstək verəcəyini bildirib. Görüşdə Fondun fəaliyyət göstərdiyi illər ərzində yalnız Türk dövlətləri ilə deyil, digər ölkələrlə də tərəfdaşlıq münasibətlərinin mövcudluğu və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın önəmi qeyd edilib. Tərəflər bu il Qazaxıstanda keçiriləcək Türk Dövlətləri Təşkilatının X Zirvə Görüşünün Türk dövlətlərinin inteqrasiyası üçün böyük əhəmiyyət daşıdığını bildirib. Eyni zamanda, bu il Azərbaycanın və bütövlükdə Türk Dünyasının böyük oğlu Heydər Əliyevin 100 illiyi, Türk təsəvvüfünün banisi Əhməd Xoca Yasəvinin 930 illiyi, məşhur türk hökmdarı Sultan Beybarsın 800 illiyi kimi əlamətdar tarixlərin Türk Dünyasında təntənə ilə qeyd edildiyi vurğulanıb.

Görüşdə Qazaxıstan ilə təşkilata üzv və müşahidəçi ölkələrin mədəniyyətləri arasında qarşılıqlı əlaqələrin genişləndirilməsinin perspektivləri müzakirə olunub.

## *Tahir Əkbərin qızı: “Onun bəstələrini ifa edənlər heç bilirmi ki, qəbri hardadı?”*



**”Artıq bu gün 5 ili tamam etdik. Mənim üçün Tahir Əkbər kimi bir atanı itirmək çox çətindi. Düzdü, Tahir Əkbər Azərbaycana çox yüksək səviyyəli əsərlər bəxş etdi. İndi də bir çox müğənnilər onun bəstəsinə müraciət edirlər”**

Bunu Adalet.az-a açıqlamasında Əməkdar incəsənət xadimi, bəstəkar Tahir Əkbərin qızı Bəhriyyə Əkbər deyib. Bəstəkarın qızı atasına qarşı laqeydlikdən də danışıb:

”Bəzən bilirsiniz niyə çox kədərlənirəm. Hələ bu 5 ildə Tahir Əkbər bəstələrinə müraciət edib, efirlərdə, toylarda oxuyan müğənnilər bir dəfə də olsun fikirləşirlərmi ki, bu bəstəni yaradanın qəbri hardadı, hansı gündə vəfat edib? Bir qərənfil ilə onu ziyarət edibmi, yox. Bir də ki, haqqı olan Xalq artisti fəxri adı olmadığına görə bu gün Bəstəkarlar İttifaqının divarlarından şəkli asılmır. Hansı ki, Tahir Əkbər Azərbaycan musiqisinə 2 janr gətirən bəstəkardı”-deyə qızı bildirib.

**Vasif Əlihüseyn**

## *Aktrisa “Zöhrə” obrazı ilə vidalaşdı*

**ATV-də yayımlanan ”Bir qadın” serialının çəkilişləri yekunlaşıb.**

Adalet.az-ın məlumatına görə, ekran işi bu mövsümün son çəkilişlərini ötən gün edib. Layihənin yeni sezonda davam edib-etməməsi isə sual altındadır.

Aktrisa Zemfira Əbdülsəmədova da serialda canlandırdığı Zöhrə obrazı barədə fikirlərini yazaraq rolu ilə vidalaşdığını söyləyib:



”Bu da bir qadın taleyi... İllərlə doğmaların üçün canını qoyursan, ailənin möhkəm olması üçün çalışırsan, min cildə girirsən, onu sakitləşdirirsən, bunu malalayırsan, barışdırırsan, onun-bunun qabağında əyilirsən. Hər şeyi öz öhdənə götürürsən, hətta qürurunu da ayaqlar altına atırsan. ”Təki ailə möhkəm olsun, doğmaların, yaxınların problemi olmasın, bir ömür boyu çarpışırsan. Axırda da belə.... Məlum olur ki, hamı yalnız özünü düşünür, öz maraqlarını güdür. Sənin verdiyin qurbanları isə yada salan, aqibətini fikirləşən də yoxdur. İnsanın minnətdarlığı, mərhəməti budur?! Bəlkə heç lazım deyildi bu qədər çalışmaq? Bəlkə hər şeyi öz axarına buraxmaq, özünü fikirləşmək lazım idi?”.

Zöhrənin (Zöhrələrin - azdır, çoxdur, o qadınların sayı nə qədərdir, bilmirəm) monoloqundan.

Bu gün ”Bir qadın” serialının son çəkiliş günündə, son sözlərim bu oldu. Hər halı ilə haqsız və haqlı tərəfləriylə bu obrazımı sevmişdim. Bundan bir dərs almaq isə heç vaxt gec deyil”.

## *Fədayə Laçın: “Heç düşünmürdüm ki, bu qədər...”*

**Bir müddətdir Rusiyada yaşayan müğənni Fədayə Laçından xəbər var.**

Adalet.az xəbər verir ki, müğənni ”Günaydın, Azərbaycan”a açıqlamasında bildirib ki, Rusiyadakı işlərinin çoxluğundan orada qalmalı olub.

Verilişə görüntülü zəng edən ifaçı aparıcı Xoşqədəm Hidayətqızının ”Nə vaxt Bakıya gəlirsən” sualına belə cavab verib:

”Yaxın günlərdə gəlməyi düşünürəm. Efirə çıxmaq və tanıdığım insanlar üçün darıxmışam. Oğlumla gəlmişəm. Heç düşünmürdüm ki, bu qədər Rusiyada yaşayacağam. Pandemiya düşdü, sonra toylar çox oldu. Buna görə də qalası olduq”.

Qeyd edək ki, müğənni 2 ildir oğlu Əhləmlə birlikdə Moskvada yaşayır. İfaçı orada restoran açıb.

**Əntiqə**

Hərbi qulluqçu Qarayev İsmayıl Nazim oğluna verilmiş hərbi vəsiqə İkinci Qarabağ müharibəsində naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas mərhum şair Əli Kərimin həyat yoldaşı

**Elza Kərimovanın**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Aslan Mehdiyev, Nəbi Muxtarov, Aydın Alıyev, Sədrəddin Məmmədov, Musa Əfəndiyev, Davud Əliyev, Ələkbər Qəmərli və Fəxrəddin Məmmədov **Kərəm Qara oğlu Əliyevə** əzizi

**Telman İsmayıl oğlu Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Rejissor Elvin Mirzəyev: «Əlində pul olanlar bəlkə də yaxşı film necə olmalıdır, bilmirlər»

***Elvin Mirzəyevlə kitabımın təqdimatında tanış olmuşduq. Açığı, o zamanlar ağlımın ucuna da gəlməzdi ki, onunla birgə hansısa işdə birləşəcəyik. Bir gün Elvin bəy mənə hazırlamaq istədiyi tamaşada musiqi sözlərini yazmağı təklif etdi. Heç vaxt belə bir təcrübəm olmasa da, nədənsə gözüyumulu razılaşdım. ”Bir dəfə Qarabağda” adlı etno-müzikl tamaşanın yaradıcı heyətində yer aldım. Tamaşa ərsəyə gəldiyi müddətdə Elvini daha yaxından tanıdım. Yapışdığı işə necə can yandırması, necə şövqlə işləməsi, teatrdan, filmdən danışanda gözlərinin parıldaması...***

***Sizə Elvin bəylə söhbətimizi təqdim etmək istəyirəm. İstədik ki, müharibə mövzusunda çəkilən və ya hələ də çəkilməyən filmlərimizdən danışaq.***

**- Elvin bəy, hansı yeni filmlər üzərində işləyirsiniz?**

- Bu dəqiqə əlimdə iki ssenari var, gözləyirəm. İkisi də azbüdcəli ssenaridir. Cəmiyyət üçün lazımlıdır. Müharibədir mövzu. Kütləvi döyüş səhnələri yoxdur, böyük maliyyə tələb olunmur, minimal gücə hesablanıb. Amma çəkə bilmirəm. Çünki sponsor yoxdur.

**- Bizim cəmiyyət üçün müharibə mövzusu biraz qapalıdır. Azərbaycan insanının düşüncəsində müharibə filmi kütləvi döyüş səhnələrindən ibarətdir. Bu yaxınlarda Vaqif Mustafayevin çəkdiyi ”Həyat deyəsən gözəldir” filmi müzakirələrə səbəb oldu, birmənalı qarşılanmadı. Öyrəşdiyimiz müharibə filmi deyildi. O filmə baxmısınız?**

- Vaqif Mustafayev canlı karifeylərimizdən biridir. O adamın öz üslubu, baxış bucağı var. Məncə sifariş olunan zaman sifariş verdiyin tərəfin potensialını bilmək lazımdır ki, bu adam istənilən halda bu səpkidə film çəkəcək. Vaqif Mustafayevin üslubu şəxsən mənim çox xoşuma gəlir. Özünəməxsusz manerasını sevirəm. Ondan başqa film gözləmək ağılsızlıq olar. Siyavuş Aslan dünyasını dəyişməmişdən öncə ona sual vermişdilər ki, siz faciəvi obrazda çəkilə bilərsiniz? O da cavab vermişdi ki, əlbəttə, oynaya bilərəm, amma gülməli olacaq. Hətta mən onu ”Hamlet” tamaşasında Polonini oynayırdı, o Poloni olaraq səhnəyə çıxanda bütün zal gülürdü. Özünəməxsus Poloni idi, heç kəsə bənzəmirdi, faciənin içində idi, amma səhnəyə çıxanda gülüş doğururdu.

**-Sizcə müharibənin yeni bitməyi bu mövzuda filmlərin gecikməyi üçün səbəb ola bilər?**

- I Qarabağ müharibəsindən 30 il keçib, bir-iki filmdən başqa ciddi bir iş yoxdur. 30 ilə film çəkmək olmazdı?

**- Biz niyə müharibənin arxa pərdəsini göstərməyə cəhd etmirik?**

-Mənə elə gəlir ki, hər şey ssenarilərin təsdiqlənmə mərhələsindən başlayır. Yəni artıq istehsalata buraxılan material özü əvvəlcədən öz müqəddəratını həll edir. Düşünürəm ki, seçimdə dayanan insanlar, onların zövqləri, riskləri gözə alması. Məsələn, uğur qazanmış elə Hollivud filmləri var ki, baxanda demişəm, bunu Azərbaycanda çəkməyi təklif etsən, qəbul olunmayacaq. Soruşacaqlar, n qədər sual verəcəklər, ”bu reallıqda belə deyil axı” deyəcəklər. Ssenarini o qədər silkələyəcəklər ki, axırda içərisində mündəricat qalacaq, canı qalmayacaq. Mənim çəkilməmiş nə qədər mövzularım var. Hansı ki mən onları saxlamışam, bəlkə nə vaxtsa bəxti açılar. Məsələn, Kusturitçanın ”Undergraund” filmi kimi məndə bir iş var və post-sovet dövrünü özündə əks etdirir. Amma mən onun sinopsisini oxuyanda deyirlər ki, sən canın, lazım deyil. Qorxurlar, ənənəvi mövzu deyil deyə. Mənə elə gəlir ki, hər şey bax o seçimdən başlayır. Amma düşünmürəm ki, onlar yaxşı film çəkilməyini istəmirlər. Sadəcə bəlkə də yaxşı ssenari nədir, necə olmalıdır, bunu bilmirlər.





**- Bəlkə bu tələbat məsələsidir?**

- Bunu kim müəyyən edir? Azərbaycanda hansı statistika var ki, desin, filan qədər faiz bu fimlərə baxır, filan qədər faiz başqa. Bazara nə çıxarılırsa, onun da müştərisi tapılır. İnanmıram ki, seçim olduğu halda bu filmləri seçməsinlər.

**- ”Pianoçu”, ”Zolaqlı pijamalı uşaq”... Bu filmlərə baxırıq, sevirik, amma özümüzkülər çəksə, daşa basarıq. Niyə özümüzdə görə bilmirik, amma kənardakıları həzm edə bilirik?**

-Ümumiyyətlə, qəbullanmaq çox çətin məsələdir. Cek Nikolson həyatının müəyyən bir mərhələsində etiraf etmişdi ki, mənim bacım əslində anamdır. Mənə elə gəlir ki bizdə qorxu var. Yaradıcı mühitdə olan insanlar bu qorxudan çıxmalıdırlar, qəbullanmalıdırlar ki, mən buyam. İnsan özünə bunu etiraf edə bildikdə problem aradan qalxacaq. Qorxuruq ki, bunu belə edərəm, məni qınayarlar, çörəksiz, işsiz qalaram. ”Sən Allah işin yoxdur”, ”Nəyinə lazımdı, iki uşağın var” kimi sözlər gətirib buna çıxarır ki, risklər minimallaşır, addım atmağa qorxursan.

**- Sizin çəkmək istədiyiniz filmdə oynayacaq potensialda aktyorlar var?**

- Aktyorlar var əlbəttə ki. Aktyor potensilı nədən yaranır? Çox vaxt ”bizim katyorlar süni oynayırlar” deyirlər. Bunlar hamısı məhsulun olmamağından irəli gəlir. Aktyoru saxlaya biləcək məhsul yoxdur. Ən orta aktyor belə yaxşı filmin içərisində yüksək əyarlı görünə bilir. Eynilə də ən yaxşı aktyor da ən pis filmin içində it-bat ola bilir. Mənə elə gəlir ki, bütün komponentləri meyarlara cavab verən film yoxdur. Komanda, institut yoxdur. Sistem axsaqdır. Xatirələrə qapanmışıq. Elə hey deyirlər ki, Sovet vaxtı belə deyildi, elə idi. Həmişə müqayisə edəndə Sovetlə müqayisə edirlər, dünya ilə yox. Hansı ki Sovet dönəmi də, onun hər şeyi də süqut edib. Və nədənsə o adamlar həlledici mövqedə dayanırlar, insanın müqəddəratını həll edirlər. Elə edirlər ki, sənə heç vaxt film vermirlər. Dəfələrlə olub, bir proyektin içində olmuşam, bir müddətdən sonra proyektdən uzaqlaşdırılmışam. Sözlərimmi xoşuna gəlməyib, dostları deyilləmmi, ya hansısa təklifimmi bəyənilməyib, bilmirəm.

**- Film həm də ideoloji silahdır...**

-Bəli. Düşünürəm ki, bugün Türkiyənin də bugün dünyada artan nüfuzunda türklərin çəkdikləri filmlərin, serialların rolu var.

**- Necə ki Sovet dövründə belə idi.**

-Gürcü filmləri... Otar İosseliani, Tenqiz Abuladze kimi rejissorlar. Onların özünəməxsus ənənəsi, mesajları var. Dünyada tanınırlar. Avropa festivallarında nümayiş olunub filmləri. O ənənə ki bu dəqiqə İran, Koreya, Yaponiya, Polşa filmlərini dünyaya çıxarıb. Bizim Sovet filmlərində o yoxdur. Məsələn, hansı filmlər var? Tenqiz Abuladzenin ”Ümid ağacı” filminə baxın, əsl gürcü kinosudur, gürcülərdir. ”Nadir və Simin ayrılığı”nda nə qədər iran ənənəsi var, fransız filmlərinə oxşayır, amma iranlılardır. İrana aiddir, amma dünyəvidir.

**- Sənədli film yaradıcılığınızı öldürmür ki? Məsələn, ola bilər, sənədli filmdə istifadə etdiyiniz hansısa detal sizə bədii filmdə lazım ola bilər.**

-Gördüyüm bütün işlər daxılıma gedir. Sənədli filmlər mənim məşqlərimdir, gələcəkdə çəkəcəyim daha böyük işlərə hazırlığımdır. Son dövr çəkdiyim sənədli filmlər tariximizlə, milli kimliyimizlə bağlıdır. Dağılmış Cəbrayılla, Şuşayla, Ağdamla bağlıdır. Mən bu filmləri çarəsizlikdən çəkmirəm. ”Qafqazın inciləri”ni işləməsəydim Sufiliyin ən bariz nümunəsi olan Kələxana türbələrini o cür görə bilməzdim.

”Əli və Nino”da dənizdə səhnə var idi, dekabrın 24-də yay səhnəsini çəkirdik, bərk xəstələndim. İstəyirdim ki çəkiliş bitsin, evə gedim. Evə getdim, dedim, ay Allah, qələt eləmişəm, birdən məni eşidərsən, etmə! Çünki mən çəkilişsiz, məşqsiz, kamerasız qala bilmərəm. Evdə anam da bezib məndən. Deyir, çörəyini ye, deyirəm, filan aktyor belə oldu, elə oldu *(gülür)*.

**Eminquey**


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**



**Tiraj: 1500**
**Sifariş: 120**
Çapa imzalanmışdır: 03.03.2023